**Bu bir xalq qəzetidi**

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *Gündəlik hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 69 (5901) 3 iyul 2021-ci il | Qiyməti 30 qəpik

# Son 18 ildə...

## 22 mindən çox cinayətkar qrup və dəstə zərərsizləşdirilib



**Son 18 ildə 22 mindən çox cinayətkar qrup və dəstə zərərsizləşdirilib, əllərdə qanunsuz saxlanılan 17 minə yaxın odlu silah yığılıb və onun tətbiqilə törədilən hüquqazidd əməllərin sayı xeyli azalıb.**

**Bunu Daxili işlər naziri Vilayət Eyvazov Azərbaycan Polisi Gününə həsr olunan tədbirdə deyib.**

**Nazir bildirib ki, cinayətlərin orta hesabla 84 faizinin açılması təmin olunub, axtarışda olan 58 mindən çox təqsirləndirilən şəxs tutulub, qanunsuz dövriyyədən 13 tona yaxın narkotik vasitə çıxarılıb: "Respublikada əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı bu gün də əksər dünya ölkələri ilə müqayisədə xeyli azdır".**

## Ərdoğan: "Bizə dedilər Qarabağda nə işiniz var?"



**"Bizə nə dedilər? Suriyada, Liviyada, Qarabağda, Aralıq dənizinin şərqində nə işiniz var?"**

Adalet.az xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Sakaryada Tank fabrikinin kollektivi ilə görüşdə bildirib.

"Bunu deyənlər ya dünyadan xəbərsizdir, ya da düşmən qılıncını çəkir. Biz buralarda varıq və olacağıq. Allah qismət etsə iyulun 20-də Şirmali Kipr Türk Respublikasına gedəcəyəm". - Türkiyə prezidenti vurğulayıb.

## NƏ TÜRKİYƏ, NƏ DƏ GÜRCÜSTAN QAZ İSTEHSAL ETMİR

**Ağır müharibədən çıxmış bir ölkədə qazın, elektrik enerjisinin və ya digər kommunal xidmətlərin bahalaşması təbiidir və başa düşüləndir. Bunu da xalqa elə bu cür çatdırmaq olar. Min acını yeyərlər, bir şirinin xatirinə. Min acını yeyərlər, bir Şuşanın xatirinə.**

Amma televiziyaya çıxıb bunu xalqın rifahı üçün etdiklərini söyləmək ayıbdır.

Sonra da qazın Türkiyədə və Gürcüstandakı qiymətlərlə bizdəki qiymətləri müqayisə etmək lap yersizdir. Dostlar, nə Türkiyədə, nə də Gürcüstanda qaz istehsal edilmir. Onlar qazı bizdən alırlar. Nə isə…

## Aqil Abbas: "Polis bizi qoruduğu kimi, biz də polisi qorumalıyıq"



**"Azərbaycan keçmiş MDB məkanında ən əmin-amanlıq olan yeganə ölkədir. Bunu möhtərəm Prezident də çıxışında vurğuladı. Polis çox əziyyət çəkir, gecəsi-gündüzü yoxdu, səkkiz saatlıq iş deyil, polis gecə saat 3-də də, səhər saat 5-də də vəzifə başında olur. Yəni polisin əməyini yüksək qiymətləndirirəm"**

Adalet.az xəbər verir ki, bunu Moderator.az-a açıqlamasında yazıçı, millət vəkili Aqil Abbas deyib. Aqil Abbas Polis Günü münasibətilə bütün polis əməkdaşlarını təbrik edib: "Bütün Azərbaycan polisini təbrik edirəm. Azərbaycan keçmiş MDB məkanında ən əmin-amanlıq olan yeganə ölkədir. Bunu möhtərəm Prezident də çıxışında vurğuladı. Polis çox əziyyət çəkir, gecəsi-gündüzü yoxdu, səkkiz saatlıq iş deyil, polis gecə saat 3-də də, səhər saat 5-də də vəzifə başında olur. Yəni polisin əməyini yüksək qiymətləndirirəm. Polis böyük bir ailədir, onun içində yerində olmayanı ola bilər, amma onu bütün polisə şamil etmək olmaz. Bəzən görürsünüz ki, mətbuatda polisin əleyhinə yazılar gedir, bir polisə görə bütün sistemə qarşı yazılar çap olunur. Azərbaycan polisini başda cənab nazir olmaqla təbrik edirəm. Həm birinci Qarabağ savaşında, həm də Vətən müharibəsində polisin fəaliyyətini, qeyrətini gördük, hər iki müharibədə həm şəhidlər verdi, həm də yaralıları var. Yəni polis bu xalqın balasıdır, sənin, mənim qardaşımdı. Ona görə də polis bizi qoruduğu kimi, biz də polisi qorumalıyıq".

**Qeyd edək ki, 2 iyul Azərbaycanda Polis Günü kimi qeyd edilir.**

## *GÜNÜN STATUSU AYAZ ARABAÇIDAN*



**"Vaksin duası: Gün o gün olsun balalarının toyunda vurduraq".**

## ŞAİR HAQQINDA ŞEİRSAYAĞI DÜŞÜNCƏLƏR

Bax: səh.9

## DÜNYANIN 8-Cİ MÖCÜZƏSİ

**Bu dəfə Taarif Şurası qiymətləri gecə saat 12-də deyil, günorta qaldırdı.**

**Mehman CAVADOĞLU**

# Əfqan bataqlığı



## Çıxış yolu olacaqmı?

**May ayının 1-dən etibarən NATO (oxu: ABŞ) öz qoşunlarını Əfqanıstandan çıxartmağa başlayıb. 11 sentyabr 2001-ci il terror aktının intiqamını almaq məqsədilə 50-dən çox koalisiya ortağının dəstəyiylə ölkəyə yeridilmiş hərbi kontingentin oranı tərk eləməsi də elə 11 sentyabrda, yəni, həmin simvolik tarixdə başa çatmalıdı.**

Bax: səh.5

## GÜNÜN LƏTİFƏSİ

Vəli Xramçaylı ilə Kəramət Böyükçöl bulvarda çayxanada söhbət edirlər. Son vaxtlar intiharda cox danışan Kəramət:

**- Vəli qardaş, sən dünya görmüş adamsan. Görəsən o ən hündür binadan özümü yerə atsam neçə günə yerə düşərəm?**





Vəli Xramçaylı:

**- Uzağı bir həftəyə.**

Kəramət:

**- Bəs görəsən yerə düşəndə ölərəm?**

Vəli Xramçaylı:

**- Ayə bə nədi, bir həftə yerə düşənəcən göydə elə ajınnan ölərsən dana.**

## İlham Əliyev dörd nəfərə general-mayor rütbəsi verdi



**Prezident İlham Əliyev Daxili İşlər Nazirliyinin zabitlərinə ali xüsusi rütbələrin verilməsi haqqında sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, sərəncama əsasən, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı zabitlərinə polis general-mayoru ali xüsusi rütbəsi verilir:

**polis polkovniki Əlaslan Qaçay oğlu Ağayevə**
**polis polkovniki İslam Möhsüm oğlu Hümbətova**
**polis polkovniki Əkbər Məcid oğlu İsmayılova**
**polis polkovniki Əbülfət Əhəd oğlu Rzayevə.**

## DİN-in bu əməkdaşlarının maaşları artırıldı

**Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında sərəncam imzalayıb.**

Adalet.az-ın məlumatına görə, sərəncamda deyilir:

**1.** İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həqiqi hərbi xidmət edən hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq vəzifə maaşlarına 2021-ci il iyulun 1-dən Azərbaycan Respublikası Prezidentinin əlavəsi müəyyən edilsin.

**2.** Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan hərbi qulluqçulara (bundan sonra - hərbi qulluqçular):

**2.1.** Azərbaycan Respublikası Prezidentinin əlavəsi hərbi qulluqçuların aylıq vəzifə maaşlarının 50 faizi həcmində 5 (beş) il müddətində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən ödənilir;

**2.2.** 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin əlavəsinin ödənilməsi "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1241 nömrəli Fərmanının 1.3.5.2-ci "Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər" yarımbəndində nəzərdə tutulmuş vəsaitin, növbəti illərdə isə dövlət büdcəsinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin saxlanılması xərclərində nəzərə alınması hesabına təmin edilir;

**2.3.** Azərbaycan Respublikası Prezidentinin əlavəsi hərbi qulluqçulara onların Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış sayına və tərkibinə uyğun olaraq ödənilir.

**3.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**4.** Bu Sərəncam 2021-ci il iyulun 1-dən qüvvəyə minir.

# AZAD İQTİSADİ ZONA ÖLKƏNİN İQTİSADİ QÜDRƏTİNƏ AÇILAN YENİ PƏNCƏRƏDİR

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimində iştirak edib. Prezident Azərbaycan Televiziyasına verdiyi müsahibədə, Ələt Azad İqtisadi Zonasının texniki göstəriciləri və ixracyönümlü istehsalın artmasına böyük töhfələr verəcəyini bildirib.**

Ələt Azad İqtisadi Zonasının ümumi sahəsi 850 hektardır. İqtisadi zonanın ümumi sahəsinin 60 hektarında layihələndirilmə artıq başa çatıb və inşaat işləri başlayıb, bütün infrastrukturun yaradılması üçün zəruri addımlar atılıb.Azad İqtisadi Zonanın yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir;

***" Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində çox vacib layihələr icra olunub. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda bu proseslər uğurla davam edir.Ələt Azad İqtisadi Zonasının yaradılması bunun bariz nümunəsidir. Bu layihənin icrası Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artıracaq. Bu iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq".***

İlham Əliyev Ələt Azad İqtisadi Zonasının yaradılması ideyası və məqsədlərini açıqlayaraq, qeyd edib ki, Ələt Azad İqtisadi Zonasının yaradılması ideyasının təməlində dövlətin siyasəti dayanır. Xüsusilə son illər qeyri-neft sektorunun inkişafı ilə əlaqədar görülən işlər bu zonanın yaradılmasına təkan vermişdir. Qeyri-neft sektoruna qoyulan sərmayə daha çox dövlət sərmayəsidir, yaxud da ki, yerli şirkətlərin sərmayəsidir. Xarici şirkətlər daha çox neft-qaz sektoruna sərmayə qoymağa meyillidirlər. Ona görə, bu zonanın yaradılması, Azərbaycanın qeyri-neft sektorunun, iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafına xidmət göstərəcəkdir.

Prezident müsahibəsində bildirib ki, bu rəqabətqabiliyyətli məhsulları dünya bazarına çıxarma imkanı yaradan bir layihədir. ***"Burada yaradılacaq infrastruktur investorlar üçün cəlbedici olacaq, ölkəmizə yeni texnologiyalar gələcək, yeni iş yerləri yaradılacaq və burada işləyəcək Azərbaycan vətəndaşlarının əməkhaqqı yüksək olacaq, rəqabətqabiliyyətli məhsul istehsal ediləcək və qeyri-neft sektorunun ixrac imkanları genişlənəcək. Çünki ümumi daxili məhsulun strukturuna baxsaq görərik ki, neft sektoru artıq üstünlük təşkil etmir. Ancaq ixraca baxdıqda görünür ki, ixracın mütləq əksəriyyəti neft-qaz məhsulları ilə təmin edilir. Ona görə, burada da islahatların aparılması və xarici investorların xüsusilə sənaye sahəsinə cəlb edilməsi əsas amillərdən biri idi. Bu ideya çoxdan müzakirə olunurdu. Ancaq bu layihənin reallaşdırılması üçün vaxt düzgün seçilməli idi, ölkəmiz buna hazır olmalı idi və bu gün buna hazırdır".***

Prezident Ələt Azad İqtisadi Zonasının yaradılması ilə bağlı atılan addımlar barədə də məlumat verib. ***"İlk növbədə, təşkilati işləri görülməli və elə bir şərait yaradılmalı idi ki, investorları cəlb etsin. Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkələrdəndir və belə ölkələrdə azad iqtisadi zonaları yaratmaq daha çətindir. Çünki əlverişli coğrafi vəziyyəti olan ölkələrdə bu zonalar çox böyük uğur qazanıb və ilk növbədə, coğrafi yerləşməyə görə. Ona görə, bu coğrafi vəziyyət nəzərə alınaraq daha da səmərəli işləmək və investorlar üçün daha da cəlbedici şərtlər təqdim etmək tələb olunurdu. İlk növbədə, qanunvericilik sahəsində işlər görülməli idi və Prezident İlham Əliyev tərəfindən 2017-ci ildə Ələt Azad İqtisadi Zonasının yaradılmasının sürətləndirilməsinə dair müvafiq Sərəncam imzandı. 2018-ci ildə qanun qəbul edildi. Bu, həm dövlət maraqlarını, həm investorların maraqlarını tam təmin edən çox mütərəqqi qanundur. Qanunvericilikdə investorlar üçün hansısa qeyri-müəyyən məqamlar olsaydı, əlbəttə ki, onları buraya cəlb etmək mümkün olmazdı. Xüsusilə son illərdə dünyada cərəyan edən iqtisadi və maliyyə böhranı investisiyaların həcmini də azaldıb. Əlbəttə ki, pandemiya da dünya iqtisadiyyatına mənfi təsir göstərib. Belə bir tarixi məqamda bu addımı atmaq, əlbəttə ki, həm böyük cəsarət tələb edir, həm də dövlətin inamına əsaslanır. Ona görə qanunvericilik sahəsində görülən işlər həm investorların, həm də Azərbaycan dövlətinin maraqlarını tam təmin edir. Bundan sonra 2018-ci ildə artıq praktiki işlərə başlanılmışdır"..***



İlham Əliyev Azad İqtisadi Zonanın Ələtdə yaradılmasının səbəblərinə də toxunub: ***"İlk növbədə, Ələt qəsəbəsinin ərazisində böyük boş torpaq sahələri var və bu torpaq sahələrinin mütləq əksəriyyəti kənd təsərrüfatı üçün yararsız torpaqlardır. Digər tərəfdən, Ələt qəsəbəsi Bakı şəhərinə yaxındır. Bu da vacib şərtlərdən biridir. İnfrastruktur layihələrinin icrası üçün artıq bütün ilkin şərtlər vardır. Səngəçalda 300 meqavat gücündə elektrik stansiyası mövcuddur və infrastruktur layihələrinə qoyulan xərclər də nisbətən az olacaq.Burada Beynəlxalq Dəniz Limanı yerləşir. Bu da iqtisadi zonanın fəaliyyəti üçün önəmli amillərdən biridir. Ələtin inkişaf perspektivi də çox uğurlu ola bilər. Əgər bu zona planda olduğu kimi formalaşsa, bu bölgənin inkişaf dinamikası ölkənin ümumi inkişafına da böyük müsbət təsir göstərəcək. Bu amillər bu yerin seçilməsində əsas rol oynamışdır. Eyni zamanda, buradan beynəlxalq dəhlizlər də keçir. Şərq-Qərb dəhlizi, Şimal-Cənub dəhlizi Ələt ərazisindən keçir. Ona görə logistika, nəqliyyat baxımından bu yer çox əlverişlidir. Məhz buna görə Ələt bu məqsədlər üçün seçilmişdir".***

"Bu gün Azərbaycanda bütün ilkin şərtlər var ki, investorlar məhz bu zonaya cəlb edilsin. Azərbaycanda çox gözəl sərmayə iqlimi vardır. Bu həm neft-qaz layihələrinin icrası zamanı nümayiş etdirilib, həm də digər sahələrdə aparılan islahatlar nəticəsində çox gözəl investisiya iqlimi yaradılmışdır. Təsadüfi deyil ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerə layiq görülüb. Bu, dünya miqyasında çox böyük nailiyyətdir. Azərbaycan bir çox inkişaf etmiş ölkələri bu parametrlər üzrə qabaqlayıb. Gözəl investisiya iqlimi investorları cəlb etmək üçün əlbəttə ki, əsas şərtlərdən biridir. Digər vacib məsələ, müasir infrastrukturun mövcudluğudur. Bu infrastruktur son illər ərzində ardıcıl şəkildə yaradılıb. Bu gün yenə də beynəlxalq mötəbər qurumlara istinadla deyə bilərik ki, bu sahədə də böyük uğurlar əldə edilib. Potensial investorlar, ilk növbədə, Dünya Bankının "Doing Business" hesabatına baxırlar, eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumunun reytinq cədvəlinə baxırlar. Hər iki yerdə Azərbaycanın üstünlüyü göz qabağındadır.İnfrastruktur layihələrinin səviyyəsinə görə, elektrik təchizatı sahəsində Azərbaycan Davos Forumunun hesabatında dünya miqyasında ikinci yerdədir. Təsəvvür edin, dünya miqyasında ikinci yerdə. Dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci yerdə. Hava nəqliyyatının səmərəliliyinə görə 12-ci yerdə. Avtomobil yollarının keyfiyyətinə görə 24-27-ci yerləri bölüşür. Xəzər gəmiçiliyi gəmiçilik xidmətlərinə görə 25-ci yerdədir. Bütün bunlar Azərbaycanın əldə etdiyi böyük uğurlardır. Bu uğurlar bu gün ölkəmizin dinamik inkişafını təmin edir. Çünki əsas infrastruktur layihələri artıq ya başa çatıb, ya da başa çatmaq üzrədir. İnvestorlar üçün bunlar çox önəmli şərtlərdir".

Prezident İlham Əliyev bildirib ki, azad iqtisadi zona kadr potensialımız qlobal layihələrdə iştirakımıza imkan yaradacaq. ***"Son illər ərzində Azərbaycanda çox güclü kadr potensialı yaradılıb. Bu sahəyə xüsusi diqqət göstərilir. Dövlət xətti ilə minlərlə gənc dünyanın aparıcı ali məktəblərində oxuyub. Onların böyük hissəsi Azərbaycana qayıdıb və müxtəlif yerlərdə çalışır. Neft konsorsiumlarında çalışan azərbaycanlılar artıq intellektual potensialımızın inkişafına xidmət göstərirlər. Kadr potensialı var, bu da investorları cəlb edəcək".***

Azərbaycandakı təhlükəsizlik mühiti, İnvestorların bu layihəyə cəlb olunmasına imkan yaradan daha bir amil oacaq. ***"Azərbaycanda təhlükəsizlik təmin edilir. Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. İnvestorlar üçün bu amil də çox önəmlidir.Azərbaycanda mədəniyyətlərarası dialoq, dini tolerantlıq məsələləri dünya miqyasında artıq nümunə kimi göstərilir. Bu gün Azərbaycana qoyulan və qoyulacaq sərmayələrin əsas şərtlərindən biri, bəlkə də birincisi ictimai-siyasi sabitlikdir, xalq-iqtidar arasındakı birlikdir.Bu amil çox önəmlidir. Digər vacib amil ondan ibarətdir ki, Azərbaycan Prezidentinin sözü ilə əməli heç vaxt fərqlənmir. Yəni, nəyi deyirsə, onu da edir. Təkcə neft-qaz layihələrinə baxmaq kifayətdir görək ki, 1994-cü ildən bu günə qədər imzalanmış kontraktlarda bir vergül belə dəyişdirilməyib. Ancaq bir çox yerlərdə müəyyən mərhələ keçəndən sonra ölkələr şərtləri özlərinə daha uyğun tərzdə dəyişdirməyə cəhd göstərirlər. Azərbaycan bunu etməyib. Çünki bunu etsə, investorlar qaçarlar.Bütün bu amillər və əlbəttə ki, İkinci Qarabağ müharibəsində qazanılan Qələbə və Dağlıq Qarabağ münaqişəsinin həlli artıq yeni bir vəziyyət yaradıb. Uzunmüddətli sabitlik, sülh artıq investorlar üçün də gün kimi aydın məsələdir. Bütün bu amillərin mövcudluğu və gələcəyə olan inam, xarici sərmayədarları bu zonaya cəlb edəcək".***

Ələt Azad İqtisadi Zonası investorları ən qısa zamanda qəbul etməyə hazır olacağını vurğulayan Prezident müsahibəsində-- "Azad İqtisadi Zonanın rəhbərliyi həm ölkə daxilində, həm də xaricdə müxtəlif tədbirlər keçirəcək. Potensial investorlarla birbaşa təmaslar qurulmalıdır. Eyni zamanda, Azad İqtisadi Zonanın nümayəndələri müxtəlif ölkələrə ezam olunacaq, həmçinin xaricdən potensial investorlar dəvət ediləcək. Bununla bərabər, Prezident İlham Əliyev tərəfindən bütün xarici ölkələrdəki səfirliklərə öz təmasları əsnasında bu zonanın yaradılması ilə bağlı potensial investorlara məlumat vermək göstəriş verilib. Bir çox ölkələrlə hökumətlərarası komissiyalar var. Bu komissiyaların rəhbərlərinə də Prezident İlham Əliyev tərəfindənkomissiyaların iclaslarının keçirilməsi zamanı Azad İqtisadi Zonanın nümayəndələrinin mütləq təmsil olunmaları və bu mövzunun mütləq gündəliyə salınması tapşırılıb"-deyə bildirib.

**İşğaldan azad olunan torpaqlarımızda böyük tikinti-quruculuq işlərinə start verildiyini, bunun böyük iqtisadi canlanmaya gətirib çıxaracağənı bildirən Azəebaycan Respublikasının Prezidenti, burada da xarici investorların fəaliyyətinə geniş imkanlar yaradıldığını vuğulayıb: " Birbaşa xarici investisiyalar olmadan ölkəmiz istədiyimiz qədər inkişaf edə bilməz. Ona görə, başqa ölkələrlə hökumətlərarası komissiyaların işi də, ilk növbədə, Azərbaycana xaricdən vəsait gətirməkdir. Məhz bu zona potensial investorlar üçün cəlbedici ola bilər. Beləliklə, bir ildən sonra - gələn ilin iyul ayında zona investorları qəbul etməyə hazır olacaq. Gözlənilən mənzərə həyatda öz əksini tapacaq. Çünki bu günə qədər bütün təşəbbüslər, bütün planlar həyatda öz əksini tapıb. Elə bir təşəbbüs olmayıb ki, o, reallığa çevrilməsin. Ən çətin layihələr, transmilli layihələr, çox çətin geosiyasi vəziyyətdə həyata keçirilən layihələr uğurla başa çatıb. Ona görə, bu zonanın yaradılması Azərbaycanın uğurunun növbəti addımı olacaqdır".**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

### *Komitə sədri Hesablama Palatası və Baş Prokurorluğa müraciət etdi*



**Milli Məclisin deputatı Musa Quliyev parlament tribunasından deputatı olduğu Gəncə şəhərində su qıtlığı ilə əlaqədar yaranmış gərgin vəziyyətlə bağlı hökumətə müraciət edib.**

"Susuzluqdan yanan ağacların yarpaqları tökülür, xəzəli küçələrdən yığışdırıb qurtarmaq olmur"- deyən deputat bildirib ki, "Körpə fidanlarla yanaşı, 100- 150 il yaşı olan Gəncə çinarları da quruyub məhv olur. Bir çox məhəllələrdə evlərə gündə cəmi 2 saat su verilir. Gəncənin qədim kəhrizlərini və arxlarını sıradan çıxartdılar ki, şəhərin su- kanalizasiya sistemi yenidən qurulur.

2011- ci ildə "Azərsu" ASC-nin başladığı layihənin indiyədək cəmi 42%- i icra olunub. 200 milyon avrodan çox vəsait xərclənməsinə baxmayaraq nəticə yoxdur. Əslində nəticə var: bu qazıq- qazıq küçələr, gündə bir küçədən partlayıb dağılan keyfiyyətsiz qurulan kanalizasiya xətləri, su qıtlığı və əhalinin narazılığıdır. Ən acınacaqlı nəticə isə odur ki, həmin layihə vəsait çatışmazlığı səbəbindən bu ilin 1 yanvar tarixindən dayandırılıb. Bu, cinayətdir, xalqa və dövlətə qarşı cinayətdir.

Mən Hesablama Palatasına səslənirəm: araşdırın bu layihənin maliyyə təminatının məqsədyönlülüyünü, mən Respublika Prokurorluğuna müraciət edirəm, yoxlayın, bu layihə nə qədər səmərəli və keyfiyyətli icra olunub? Gəncədə yaşıllıqlar məhv olur, insanlar əziyyət çəkir. Son 10 ildə Gəncənin ətrafındakı Cavad xan, Məhsəti, Şıxzamanlı, Natavan qəsəbələrində 6000- ə yaxın fərdi yaşayış evləri tikilib. Heç birinin də su- kanalizasiya təchizatı yoxdur. Təcili şəkildə bu problemlər öz həllini tapmalıdır. Hal-hazırda Gəncənin su probleminin həlli üçün 30 yeni artezian quyusu qazılmasına ehtiyac olduğu halda, bu il cəmi 1 artezian quyusu qazılması nəzərdə tutulur. Mən hökumətə müraciət edirəm: cənab Baş nazir, Gəncənin su qıtlığı problemini nəzarətinizə götürün və qısa müddətdə həlli üçün müvafiq qurumlara tapşırıq verin".

### *Elşən Musayev: "...AZ AL"*



**Milli Məclisin Zaqatala-dan seçilmiş deputatı Elşən Musayev təmsil etdiyi rayonun hava limanında bir təyyarənin belə olmamasına görə AZAL-ı tənqid edib.**

Parlamentin iclasında bu haqda danışan deputat bildirib ki, Zaqatala hava limanının hər şeyi - müdiri, bağbanı, işçiləri və s. var, ancaq, təkcə təyyarəsi yoxdur: "İnsanları təyyarə üzünə həsrət qoymaq olmaz. AZAL qiymətləri azaltmalıdır. Biletlərlə insanın cibinə girmək olmaz. Bu qurumun adı belə bunu tələb edir-AZ AL! ".

Deputat çıxışı zamanı toyların keçirilməsi ilə bağlı qoyulan bəzi məhdudiyyətlərə də etiraz edib. Deputat bildirib ki, toylarda heç olmasa, bəylə gəlin maska taxmasın: "Ən azından bəylə gəlin maskasız oturmalıdır, bir-birini görməlidir".

**Nicat**

### *Türk ordusu daha 7 terrorçunu zərərsizləşdirdi*



***Türkiyə Silahlı Qüvvələri 7 terrorçunu zərərsizləşdirib. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb. "Türkiyə ordusu "Sülh çeşməsi" əməliyyat bölgəsinə sızmağa cəhd göstərən 7 PKK/YPG terrorçusunu zərərsizləşdirib", - məlumatda bildirilib.***

***MEHRİBAN***

# Vilayət Eyvazov polisləri təbrik etdi

**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarının şəxsi heyətinə və veteranlarına təbrik ünvanlayıb.**

Adalet.az xəbər verir ki, təbrikdə deyilir:

"Hörmətli həmkarlar!

1918-ci il iyulun 2-də asayişi mühafizə dəstələri ilə fəaliyyətə başlayan polis orqanları ötən müddətdə şərəfli bir xidmət yolu keçərək böyük təcrübə qazanmış, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə dövlətçiliyin dayaqlarından birinə çevrilmişdir.

Bu gün Azərbaycan Polisi respublikamızın ərazi bütövlüyünün, dövlətin konstitusiya quruluşunun qorunmasında önəmli xidmətləri və güclü nizam-intizamı olan mühüm bir dövlət təsisatıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində fəaliyyəti daim təkmilləşən,



xidməti vəzifələri səmərəli yerinə yetirmək üçün bütün lazımi şəraitə, müasir maddi-texniki bazaya və infrastruktura malik polis orqanları cinayətkarlığa, onun transmilli mütəşəkkil növlərinə qarşı mübarizədə, asayişin qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində əhəmiyyətli nəticələrə nail olmuşdur. Vətən müharibəsi günlərində hərbi vəziyyətin təmini vəzifələrini də layiqincə yerinə yetirmiş və hazırda işğaldan azad olunmuş ərazilərdə önəmli xidmətini, həmçinin xüsusi karantin rejiminə nəzarət funksiyalarını əzmlə həyata keçirir.

Xidmətdə fərqlənən əməkdaşların möhtərəm Prezident tərəfindən dövlət mükafatlarına layiq görülməsi Zati-alilərinin bütövlükdə Azərbaycan polisinin əməyinə verdiyi böyük dəyərin əyani ifadəsidir. Əminəm ki, bundan sonra da sabitliyin və təhlükəsizliyin keşiyində qətiyyətlə dayanacaq, peşəkarlığınız, xalqa və Vətənə sədaqətli xidmətinizlə yeni-yeni nailiyyətlər əldə edəcəksiniz.

Azərbaycan polisinin yaranmasının 103-cü ildönümü münasibətilə Sizi, vəzifə borcunu yerinə yetirərkən həlak olmuş əməkdaşlarımızın ailə üzvlərini səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, xidmətdə və şəxsi həyatda uğurlar arzulayıram!

Bayramınız mübarək!"

# Xilaskar qanun keşikçiləri

**Hər dövlətin özünəməxsusqayda-qanunlarıvar. Xalqın hər bir nümayəndəsi tərtib edilən qanunlar qarşısında eyni məsuliyyəti daşımaqdadır. Bəs riayət etməyə gəlincə görəsən hər kəs eyni dərəcədə əməl etməyi bacarırmı? Qaydalardan kənara çıxmamaq öncəliklə insanın daxili mədəniyyətinin, güclü iradəsiningöstəricisidir. Məsələn əhalinin sıx yaşamadığı, seyrəklik olanucqar məkanlarda təbiətlə tək qalsaqbelə yenə də qanunlardan kənara çıxmamaq ətraf mühitə zərər yetirməməkhəm vətəndaşlıq borcu, həm də insanlıqgörəvimiz olmalıdır. Polislər bizim hər anımızı kontrol altında saxlaya bilməz,insan üçün düzgün yaşamaq vicdan məsələsidir. Qayda-qanunlara məcburiyyətdən deyil daxildən gələn istək hissiylə yanaşılarsa cəmiyyətimiz adına müsbət nəticələr əldə edə bilərik. Vətənimizdə firavanlıq və sabitliyindaima bərqərar olması həm də vətəndaş olaraq öz üzərimizə düşən əsas amildir.**

Hüquq mühafizə orqanları dedikdə gözümüzün önündə asayiş qoruqçuları canlanır. Bəli o asayiş qoruqçularıki, dünyanı bircə an onlarsız təsəvvür etsək hansı hərc-mərcliklərin hökm sürəcəyi hər kəsə yetərincə məlumdur. Dünya qadağasız idarə oluna bilməz. Bu fikrin özü də qanundur. Polis təşkilatlarında çalışan insanlar güvənliyintəşkil edilməyində rolu olan peşə sahibləridir. Münaqişələrin, faciələrin həlli yolunda ilk onlara müraciət olunur. Gecə-gündüz demədən, fədakarcasına xalqa xidmət göstərməkdən çəkinmirlər. İnsanların canını, malını, namusunu qorumağa çalışaraq bir çox cinayətlərinqarşısının alınmağına vəsilə olurlar. Onlar qanun pozuntuları ilə yanaşı istər zəlzələ, istər sel, istər yanğın kimi təbii fəlakətlərdə də hadisə yerində gözümüzə çarpan peşə sahiblərindən biri hesab edilirlər.Xalq üçün narahatlıq yaradan bütün məsələlərin həlli istiqamətindədurmadan mübarizə aparırlar. Ölkəmiz sabitliyi ilə dünyada xüsusilə fərqlənir. Vətəndaşların təhlükəsiz yaşaması naminə ciddi addımlar atılır. Qanunlardemokratik sistemin formalaşmağında hakimiyyətin möhkəm olmağı, nizamintizamınöz yerini tapmağı, cinayətlərin qarşısının alınmağı üçün düzgün vasitədir. Təəssüf hissi ilə vurğulayaq ki, yanlış qərarlarlayaşayan, özünə düzgün yol seçməyən neçə-neçə vətəndaşlarımız var. Onları çirkin yollardan geri çəkindirməyə, yaxud tutduqları mənfiəmələrin cəzası-



nı çəkdirməyə yalnızhüquqi yollarla nail olmaq mümkündür. Cəmiyyət olaraq elə kəslərlə mübarizə aparmağın nə digər üsulu nə də əlacı vardır.Məhz bu nöqteyi nəzərdən öz işlərini icra etməyə çalışanpolis əməkdaşlarınaqərəzli yaxud tənqidi fikirlərlə yanaşanları anlayışlı olmağa çağırırıq. Əgər biz cəmiyyət olaraq dinc mühitdə yaşamaq istəyiriksə mütləq şəkildə ən sərt qanunları da mülayim qəbul etməliyik.

Daxili işlər orqanlarının fəaliyyəti daim ulu öndərin və Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət mərkəzində olub. Dövlət rəhbərimizinxalqın xoş güzaranı, rahatlığı naminə qəbul etdiyi qərarların hər birinə hörmətlə yanaşmalıyıq. Əbəs yerə polis məntəqəsinə ədalətə açılan ilk qapı deyilmir. Qanunlar bu günümüzün və gələcəyimizin uğurlu təminatıdır. Dövlətin hüquq sistemi güclü olmasa hansı yüksək idarəçilikdən söz gedə bilər?Hüquqi dövlət quruculuğunun əsas sütunu qanundur. Ölkə prezidentinin ən başlıca istəyi millətin rifahıdır. Qanun keşikçiləri də bu missiyanın əsas xidmətçisidir. Polis əməkdaşları dövlət daxilini qoruyan əsgərlərdir. Onların özü də vətəndaşdır və atdıqları hər addımın sorumluluğunu daşıyırlar.

Azərbaycan polisinin vətənpərvərliyi, insanları fəlakətdən xilas etmək naminə özlərini qurban verməklərihər birimizə məlumdur. Peşəsini şərəf və ləyaqətlə icra edən, bayram-seyran bilmədən çalışan, əmin-amanlığın təminatçısı sayılan qanun keşikçilərinə cani-könüldən minnətdarlığımızı yetiririk. İnsan üçün bu həyatda ən önəmli dəyər ailədir. Onlar öz ailəsini və özlərini düşünmədən dəhşət saçan hadisələrin üzərinə atılırlar. Çünki dövlət də bir ailədir. Bu müqəddəs ailənin qorunmasındaşərksübhəsiz onlara etibar edirik. Vətən hər birimizə əmanətdir.Hər kəs öz əqidəsinin polisi olmalıdır. Məqaləmin sonunu müəllifi olduğum"Azərbaycan polisi" adlıhimnimin sözləri ilə bitirmək istəyirəm.

***O, ümid, güvən rəmzi,***
***Qayda-qanun keşikçisi.***
***Dünyada firavanlıq,***
***Yaratmaqdır məqsədi.***

**Aysel KƏRİM**
**İki dəfə Prezident təqaüdçüsü.**
**Azərbaycan Yazıçılar Birliyinin,**
**Azərbaycan Bəstəkarlar İttifaqının,**
**YAP-ın üzvü**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 69 (2250) 3 iyul 2021-ci il

# Ermənistan və bugünün reallıqları





**Dünyada baş verən siyasi prosesləri izlədikcə bir daha aydın olur ki, bu gün dünyada güclü olan, haqqını qorumağı bacaranın sözü daha tez eşidilir və eyni zamanda bu gün dünya siyasətində bir şəxsiyyət kimi, bir dövlət xadimi kimi də sayılmaq, seçilmək böyük problemlərin çözümündə təsiredici gücə malikdir.**

Söylədiyim bu kiçik girişdə əsas məqam və məram ondan ibarətdir ki, artıq qloballaşan dünya bir çox problemlərin öz maraqlarından çıxış etməklə çözməyə çalışan böyük güclərin iradəsindən asılı vəziyyətə düşüb. Bu mənada Avropanın, Amerikanın, dünyanı yenidən bölmək və daha böyük nüfuz dairələrini ələ keçirmək istəkləri gün kimi aydındır. Yürüdülən xarici siyasətlərin mahiyyəti də elə bundan ibarətdi. Doğrudur, böyük güclər bu maraqlara hər cür don geyindirirlər. Bunu gah İnsan Haqları, gah Humanitar yardım, gah da milli maraqların qorunması adı altında gerçəkləşdirirlər. Tutaq ki, Amerika Qafqazdakı maraqlarını reallaşdırmaq üçün bölgədə insan haqları məsələsini daha çox önə çəkir. Və bu yanaşmada o maddi və siyasi dəstəyin öz niyyətini gerçəkləşdirməkdə ona qucaq açan dövlətlərdən, qurumlardan əsirgəmir. Üstəlik, burada lobbiçilik, dini həmrəylik də öz təsirini göstərir. Əgər məsələnin mahiyyətinə bir az da varsaq, onda görərik ki, ABŞ hökuməti Ermənistana son 30 il ərzində maddi və humanitar dəstək verərkən onunla paralel "Qondarma Dağlıq Qarabağ Respublika"sını da unutmurdu. Bunu da onunla əsaslandırırdılar ki, bu göstərilən yardımda məqsəd sülhpərvərlik, insanpərvərlik və insan haqlarına yanaşmadır. Amma əsl gerçəkdə həmin yardımı ermənilər daha çox silahlanmaya və Azərbaycana qarşı cinayətlər törətməyə yönəldiblər.

Ümumiyyətlə, dünyanın bir çox maraqlı dövlətləri və iqtisadi gücə malik qurumları, təşkilatları zaman-zaman ermənilərə "humanitar yardım" adı altında böyük vəsaitlər yönəldiblər ki, həmin vəsaitlər də erməni kasıb zümrəsindən daha çox erməni mafiyasının, eləcə də cinayətkar dəstələrinin daha da harınlaşmasına, daha böyük cinayətlər törətməsinə səbəb olubdur. Elə bu "yardım"lar erməni daşnaklarına, onların siyasi liderlərinə, tutulduqları, yoluxduqları xəstəlikdən - böyük Ermənistan arzusundan qaynaqlanmağa bir növ təkan verib. Onlar havalandırıb, istəklərinə qovuşacaqlarına inandırıbdı.

Azərbaycana qarşı ermənilərin müxtəlif dövrlərdə, hətta Sovet dönəmində törətdikləri terror və təxribatların arxasında həmişə daha çox Ermənistandan kənardakı dairələrin dayandığı öz sübutunu çoxdan tapıbdı. Sadəcə icraçı kimi çıxış edən ayrı-ayrı erməninin "qonarar" xatirinə törətdikləri cinayətlər isə əslində Azərbaycanda, Azərbaycan xalqında xof yaratmaq, onları qorxutmaq niyyətinə xidmət edib.

Və bununla da onlar torpaqlarımızın işğalına yol açmaq niyyətini gerçəkləşdirmək istəyiblər. Məlum olduğu kimi 30 ilə yaxın Azərbaycan ərazisinin 20 faizdən çoxunu işğal altında saxlayan, bir milyondan artıq soydaşımızı qaçqın və köçkün həyatı yaşamağa məcbur edən Ermənistan və onun havadarları aparılan sülh danışıqlarına, hətta əldə edilən atəşkəsə də heç vaxt dəqiqliyi ilə əməl etməyiblər.

Onlar üçün bu danışıqlar vaxtı uzatmaq, atəşkəsə silahlanmaq üçün gərək olubdur.

Təəssüf ki, bu problemin çözümü ilə məşğul olaq ATƏT-in Minsk qrupu və eləcə də böyük dövlətlərin liderləri bu həqiqəti görməyiblər və yaxud da görmək istəməyiblər. Azərbaycan ordusunun ali baş komandanı cənab İlham Əliyevin 27 sentyabr 2020-ci ildə verdiyi əmrlə Azərbaycan ordusu özünün Böyük Vətən Müharibəsini zəfərlə başa çatdırdı. 44 günlük müharibədə Azərbaycan əsgəri təkcə Ermənistan ordusunu darmadağın etmədi, o həm də Ermənistan ordusuna havadarlıq edənlərə hərb tarixinin dərsini keçdi. Sübut etdi ki, Ermənistanın kimlərə arxalanmasından asılı olmayaraq haqq və ədalət uğrunda sərhədlərinin bütövlüyü naminə döyüşən Azərbaycan əsgəri yenilməzdir. Onun vətən savaşının önündə heç bir güc dayana bilməz!

Bəli, bu gün siyasi arenada baş verənlər məhz Azərbaycan ordusunun gücünü sübut etməklə yanaşı, Azərbaycan dövlətinin də, xalqının da gücünü nümayiş etdirdi. Dünya siyasətində əsas şərtlərdən biri olan güc məsələsini Azərbaycan ordusu 44 gündə öz xeyrinə həll etdi. Onun ardınca ikinci bir şərt də öz həllini tapmış oldu. Bu da Ali Baş Komandanımızın Azərbaycan prezidentini siyasi lider kimi dünya çapında olan nüfuzudur. Belə ki, dünyanın siyasi liderləri bir daha şahid oldular ki, Azərbaycanın prezidenti böyük siyasi liderlərlə yanaşı dayanmaq hüququnu haqq etmiş şəxsiyyətdir. Onunla danışıqlar aparmaq böyük siyasi iradə və təcrübə tələb etməklə yanaşı, həm də Azərbaycan həqiqətlərini qəbul etmək, gerçəkliyi tanımaqdır.

Biz son hadisələri, xüsusilə, Ermənistanda baş tutan seçkilərin nəticələrini və bu seçkilərə olan münasibətləri izlədikcə aydın olur ki, dünyanın aparıcı media mənsubları, həmçinin siyasi şərhçiləri vurğulayırlar ki, Ermənistan reallıqları qəbul etməsin, onun gələcək mövcudluğu sual altına düşmək təhlükəsi ilə üz-üzə qalacaqdır. Elə ölkə prezidenti cənab İlham Əliyevin son açıqlamalarında söylədiyi kimi Ermənistan rəhbərliyi imzalanmış üçtərəfli bəyanatın şərtlərini yerinə yetirərsə, o həm də erməni xalqının xilası olar. Yəni, regionda böyük iqtisadi layihələrin gerçəkləşməsi və Ermənistanın da bundan yararlanması ,ilk növbədə həmin bəyanatın şərtlərinin icrasından asılıdır.

Yeni geosiyasi vəziyyət, infrastrukturun yenilənməsi, Zəngəzur dəhlizinin açılması, kommunikasiya məsələlərinin həll edilməsi söylədiyimiz böyük iqtisadi uğurların və sərhəd məsələlərinin çözümünə yol açacaqdır. Təbii ki, Ermənistan heç bir siyasi hoqqabazlıq etmədən gerçək tərəfdaş kimi üzərinə düşəni yerinə yetirsə.

**Bu gün Ermənistanın daxili, siyasi durumu onu deməyə əsas verir ki, artıq bu ölkə Azərbaycanla yenidən baş-başa gəlmək, Azərbaycana qarşı hansısa bir iddia ilə çıxış etmək gücündə və qüdrətində deyil. Əgər belə bir istəkdə də olarsa, dəmir yumruq hər an ona öz gücünü yenidən göstərə bilər. Bu fikir Azərbaycan Prezidentinin son açıqlamasında da bütün dəqiqliyi ilə ifadə olunubdur. Deməli, Ermənistan öz gələcəyini havadarlarının maraqlarına qurban verməməlidi. Əgər verərsə, artıq bu onun özünün təkrar günahı olacaqdır.**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

### İstanbulda İŞİD əməliyyatı - Saxlanılanlar var



**Dünən İstanbulda 7 ayrı bölgədə İŞİD-ə qarşı həyata keçirilən əməliyyatlar nəticəsində 11 şübhəli saxlanılıb. Adalet.az "Sözçü"yə istinadən xəbər verir ki, İstanbul Terrorla Mübarizə Şöbəsinin əməkdaşları Başakşehir, Fatih, Esenyurt, Küçükçekmece, Pendik, Ümraniye ve Zeytunburnu kimi 15 bölgədə əməliyyat həyata keçirib.**

Saxlanılanlar arasında Suriya və İraq kimi atışma bölgələrində İŞİD-in tərəfində olan, Türkiyədə də fəaliyyətlərinə davam edənlərin olduğu bildirilib.

Qeyd edək ki, şübhəlilərin "terror təşkilatına adam cəlb etmək", "sosial mediada İŞİD propaqandası aparmaq", "maddi mənfəət və lojistik təminat" kimi günahlarının da ortaya çıxdığı məlum olub. İstintaq davam edir.

### Norveçdə 16 yaşlı suriyalı uşaq həbs olundu

**Norveçdə 16 yaşlı suriyalı uşağı zəhət və partlayıcıdan istifadə edərək terror planlaşdırmaqda və terrorçu təşkilat olan İŞİD-i dəstəkləməkdə təqsirli bilib 5 il həbs cəzası verilib.**

Adalet.az-ın xarici mətbuata əsasən verdiyi məlumata görə, bu qərarı Norveçin paytaxtı Osloda Oslo Bölgə Məhkəməsi verib. Uşağın yetkinlik yaşına çatmaması səbəbilə həbs müddəti 3 il azaldılıb. "Təqsirli bilinən şəxs gənc olmasına baxmayaraq şüurlu olaraq bu terroru planlamağı qərara alıb" - deyə hakim çıxış edib.

Məhkəmə suriyalı uşağın 18 yaşına çatsaydı, bu cəzanım 11 ilə qədər artacağını vurğulayıb. Kimliyi açıqlanmayan suriyalı uşaq məhkəmədə zəhər hazırlamaq üçün aldığı maddələri kiməsə zərər vermək üçün almadığını ifadə edib. Amma İŞİD-i dəstəkləyən bir internet saytına pul bağışladığını da etiraf edib.

### ABŞ və NATO Əfqanıstanı rəsmən tərk edir



**ABŞ və NATO Əfqanıstandan ayrılma prosesində kritik bir nöqtədən keçir ... Bu gün adlarını açıqlamayan bəzi səlahiyyətlilər, əsgərlərin bölgədəki ən böyük hərbi hava bazasını tərk etməyə başladığını açıqladı.**

Adalet.az "Reuters"-ə istinadən xəbər verir ki, ?ABŞ-ın NATO qüvvələrilə birlikdə 11 sentyabr hücumlarından sonra 2001-ci ildə başlatdığı Əfqanıstan əməliyyatı son çatır. Yüksək təhlükəsizlik rəsmisi "Reuters"-ə ABŞ və NATO qüvvələrinin ölkədəki ən böyük hərbi bazanı tərk etdiyini deyib.

"Bütün ABŞ və NATO qüvvələri Baqram Hava Bazasını tərk etdi" - deyə adını açıqlamayan məmur bildirib. Kabildən təxminən 64 km məsafədə yerləşən Baqram Hava Bazası ABŞ üçün kritik önəm kəsb edirdi. Çünki ABŞ qüvvələri buradan Talibanı və digər qrupları vurmaq üçün tez-tez bu hərbi hava bazazından istifadə edirdi.

Qeyd edək ki, səlahiyyətli şəxslər bu hərbi bazanın Əfqanıstan Müdafiə Nazirliyinə təhvil veriləcəyini açıqlayıblar.

**Eminquey**

*Mehman Cavadoğlu*

# Əfqan bataqlığı

## Çıxış yolu olacaqmı?

**May ayının 1-dən etibarən NATO (oxu: ABŞ) öz qoşunlarını Əfqanıstandan çıxartmağa başlayıb. 11 sentyabr 2001-ci il terror aktının intiqamını almaq məqsədilə 50-dən çox koalisiya ortağının dəstəyiylə ölkəyə yeridilmiş hərbi kontingentin oranı tərk eləməsi də elə 11 sentyabrda, yəni, həmin simvolik tarixdə başa çatmalıdı. Pentaqonun məlumatına görə artıq qoşunların yarısı ölkəni tərk eləyib və proses nəzərdə tutulan qrafik üzrə davam edir. Ancaq son günlər məmləkətdə qoşunların çıxma sürətinə uyğun olaraq başqa bir mühüm hadisə də baş verir. Düz yarım əsrə yaxındı ki, başı müsibətlərdən açılmayan bu əzabkeş qövm məhz "nəzərdə tutulan qrafik" üzrə yenidən öz təbii və ənənəvi stixiyasına qayıdır.**

Xatırladaq ki, keçən il fevralın 29-da Qətərin paytaxtı Dohada ABŞ hökumətiylə Taliban arasında imzalanmış sazişə əsasən Əfqanıstandakı xarici hərbi qüvvələr 14 ay ərzində ölkədən çıxarılmalıydı. Həmin tarixi sənədi NATO-nun Baş katibi Y. Soltenberq, ABŞ dövlət katibi Mark Pompeo və Rusiya prezidentinin xüsusi nümayəndəsi Zamur Kabulovun iştirakıyla Amerikanın Əfqanıstan üzrə xüsusi nümayəndəsi Zalmay Xəlilzad və Taliban hərəkatı liderinin müavini Abdulla Qəni Bərədər imzalamışdılar. Belə bir mühüm sənəd nəinki digər tərəfin - Əfqanıstan hökumətinin nümayəndəsiylə imzalanmamışdı, imza törənində, ümumiyyətlə, həmin hökumətin heç bir təmsilçisi iştirak etməmişdi.

Bayden öz Amerika sevdalısı sələfinin bir çox yanlış qərarlarının üstündən xətt çəksə də Əfqanıstan məsələsində nədənsə onunla həmrəylik nümayiş elətdirdi və bununla da ölkəni pis halda sonu görünməyən uçuruma, yaxşı halda qaramat bir gələcəyin ağuşuna yuvarladı. Hələ ABŞ qoşunları ölkədən tam olaraq çıxarılmasa da, artıq ekspert cameələrində ölkədəki hökumətin nə qədər duruş gətirə biləcəyi barədə proqnozlar səslənməyə başlayıb. Çünki onun dayanıqlı olacağına ümid yaradan heç bir siyasi-iqtisadi və hərbi zəmin mövcud deyil.Monarxiyanın ləğviylə nəticələnən 1973-cü il inqilabından sonra bu ölkə sözün həqiqi anlamında özü boyda qan çanağına dönüb. Özü də təkcə əfqan xalqının yox, əlli il ərzində ona rəhbərlik edən liderlərin boğulduğu qan çanağına. Məhəmməd Dauddan bu yana ölkəni idarə edən çoxsaylı rəhbərlərin arasında başı üstündə postunu tərk edən tək-tük adam taparsan. Bütün kiçik və zəif ölkələr böyük himayədarların kölgəsinə sığınmağa məhkumdu. Amma Əfqanıstanın fenomenliyi bu ölkəyə patronajlıq eləmək istəyənlərin özlərinin naçar duruma düşməsindən qaynaqlanır. Onu nə siyasi-diplomatik yolla idarə eləmək olur, nə də müstəmləkəyə çevirmək.

Dünyanın iki fövqəlgücündən biri olduğu vaxtlarda Sovet imperiyası oranı işğal elədi, ancaq on ildən sonra biabırcasına tərk eləməyə məcbur qaldı. Yaratdığı rejim özündən sonra vur-tut üç il duruş gətirdi. Qərbin dəstəyiylə həmin rejimi yıxan "Şimal alyansı" dörd ildən sonra siyasi səhnəni biabırcasına tərk elədi.

ABŞ silahlı müdaxilə yoluyla Talibanı devirəndə dünyanın yeganə super gücüydü. Çinin dünyaya meydan oxumağına azı 10 il, Putinin məşhur "Münhen nitqi"nəsə ondan üç il az vaxt qalırdı. ABŞ qarışıq bütün Qərb hələ Fukoyamanın "Tarixin sonu" siyasi bestsellerinin laylasına qızınırdı. Amma onun da işğalı 20 ildən sonra artıq öz acı sonluğuna doğru yaxınlaşmaqdadı, "gözü çıxmış rus qardaşı kimi" dibi görünməyən əfqan bataqlığından çıxış yolu tapa bilmir.

Sovetlərin on il ərzində qurduğu və "möhkəmləndirdiyi" rejim üç il tab gətirdisə, Vaşinqton rejimi qoşunların yarısı hələ ölkədəykən çat verməyə başladı. Taliblərin az qala hər gün yeni-yeni yaşayış məntəqələrini ələ keçirməsi barədə xəbərlər dünya KİV-lərinin səhifələrindən düşmür. Hökumət qüvvələri ölkənin Tacikistan və Özbəkistanla şimal sərhədlərindəki sərhəd-buraxılış məntəqələrini, sözün həqiqi mənasında, başlı-başına buraxaraq qonşu ölkələrə sığınır, həmin məntəqələr bir-birinin ardınca taliblərin əlinə keçir. BMT-nin rəsmi açıqlamasına görə hökumət artıq ölkənin 50 faizdən çox ərazisinə nəzarəti itirib. Düzdür, bəzi mənbələr fərqli rəqəmlər söyləyir və bildirirlər ki, hələlik 400 -ə yaxın rayonun yalnız 50-60-ı taliblərin ixtiyarındadı və bütün iri vilayət mərkəzləri hökumət qüvvələrinin nəzarəti altındadır.

Bir sözlə, son günlər ölkə haqqında dünyanı dolaşan informasiyalar da məmləkətin durumuna uyğun olaraq qarışıq, ziddiyyətli, hörümşək toru kimi dolaşıqdı, nəyin düz, nəyin səhv, nəyin həqiqi nformasiya, nəyin təbliğat tryuku olduğunu ayırd etmək mümkün deyil.

Son yarım əsrin siyasi təlatümləri nəticəsində etnik dözümsüzlük, konfessional düşmənçilik elə bir həddə çatıb ki, bu ölkənin cənginə keçdiyi şər çevrəsindən nə vaxtsa qurtulacağı real görünmür. Böyük dövlətlərin kəsişən maraqları bir tərəfdən onun bütün faciələrinin qaynağıdırsa, digər tərəfdən hələ ki, bütövlüyünün qarantı olaraq qalır. Ölkədə kişiliqadınlı hamı döyüşçü olub. Əfqan dehqanının çuvalın bir gözündə kətmən, digərində avtomat daşımaq, gündüz çörəyini kətməndən, gecə avtomatdan çıxarmaq vərdişi hələ sovet işğalı dönəmində yaranmışdı.

Artıq ölkədə ayrı-ayrı etnik-dini-siyasi qrupların davası dövrü bitib, "hamının hamıya qarşı müharibəsi" adlı ölüm-dirim cəngi, sanki bir axirət savaşı gedir. Əsas məqsəd qalib gəlmək yox, sağ qalmaqdır. Döyüşən tərəflərin qalib və məğlub libasları permanent olaraq dəyişsə də, şüurlarına hakim kəsilmiş düşmənçilik yanğısından yaxa qurtara bilmirlər.

Yuxarıda dediyimiz kimi Amerikanın 20 illik hökmranlığı da, demək olar ki, nəticəsiz başa çatdı. İndi onlar da öz işğalçı sələfləri kimi adamları qədər relyefi də sərt olan bu diyarı əli ətəyindən uzun tərk edir. Ölkənin yenidən Talibanın cənginə keçəcəyi şübhə doğurmur. ABŞ işğalının ölkəyə gətirdiyi yeganə yenilik Talibanın legitimləşdirilməsi oldu. Bir vaxtların "ekstremist-terrorçu", Budda heykəllərinin məhvinə görə "dünya sivilizasiyasının düşməni" yarlıqlarıyla damğalanmış bu təşkilat indi siyasi-diplomatik nizamlanmanın yeganə tərəfi kimi onunla eyni masa arxasında oturur. Moskvanın yarımgizli, İslamabadın yarımaçıq dəstəklədiyi bu qüvvənin yenidən hakimiyyətə qayıdacağı və ölkəni yenidən orta əsrlərin qaramatına qaytaracağı çox az adamda şübhə doğurur. 20 illik işğal yenidən devrilmiş qüvvənin geri qayıtması və yaxud qaytarılmasıyla nəticələnəcəkdisə bu qədər qan-qada nəyə lazım imiş? Ötən idarəçilik illərində asdıqlarını asmış, öldürdüklərini öldürmüşdülər. İndi ölüm maşını yenidən işə salınacaq, on minlərlə, yüzminlərlə "kafir" yenidən ölkənin hər guşəsində qurulacaq dar ağaclarına sürüklənəcək.

NATO ordusu ölkədən çıxır, amma türk əskərləri Kabul aeroportunu qorumaq üçün hələ ki, orda qalacaqlar. Türksevər ekspert cameələrində bu fakt bəzən böyük sevinclə qarşılanır, qardaş ölkənin dünya siyasətindəki mövqelərinin güclənməsi kimi şərh edilir. Türkiyənin dünya siyasətindəki, geopolitik çarpışmalardakı rolunun get-gedə güclənməsi, bundan nəinki onun düşmənlərinin, hətta müttəfiqlərinin də əndişələnməsi son illərin danılmaz gerçəkliyidi. Amma son NATO sammitindən, Ərdoğanla Baydenin Brüssel görüşündən sonra müttəfiqlərin rəsmi Anqaraya yönəlik ritorikasında xeyli yumşalmalar hiss olundu. İndi məlum olur ki, bütün bunlar məhz Türkiyənin üzərinə qoyulan bu yeni missiya ilə bağlıymış.

Kabul aeroportu ABŞ-a çox lazımdı. Qoşunlar çıxarılsa da əfqan hökumətindəki sayı bəlkə də mindən yuxarı olan müxtəlif ekspert və instruktorlar Qəni iqtidarının son günlərinə kimi orda qalacaqlar və dar-macalda onların ölkədən çıxarılması üçün aeroport yeganə vasitə olacaq. Odur ki, tək daimi əlaqə yox, həm də bu baxımdan hava limanı rəsmi Vaşinqton üçün mühüm strateji obyektdir.

**Bir sözlə, Türkiyə qoşunlarının hələlik Əfqanıstanda qalması imtiyaz yox, məsuliyyətdi. NATO həmişə olduğu kimi indi də özünün hər fürsətdə qısnadığı bu ikinci ən güclü üzvündən çətin məqamda istifadə etmək qərarına gəlib. Odur ki, Türkiyənin ağır bir yükün altına girməsindən eyforiyaya qapılmaq, yumşaq desək, naşılıq əlamətidi. Unutmaq olmaz ki, heç müsəlman təəssübkeşi Taliban da NATO üzvü kimi Türkiyədən yana deyil. Rusiyaya ondan daha isti münasibət bəsləyir.**



Faiq QİSMƏTOĞLU,
Əməkdar jurnalist,
faiqqismetoglu@box.az

# Zirvəyə gedən yol

... El-oba arasında nüfuz qazanmaq, hörmət sahibi olmaq və yeri gələndə insanlara düz yol göstərib ağsaqqallıq eləmək elə də asan məsələ deyil. Yadıma tibb elmləri namizədi və cəmiyyət tərəfindən sevilən həkim Rəşid Mahmudovun bir fikri düşdü: "Mənim tanıdığım bir savadlı ziyalıya dedim ki, çıx televiziya kanallarına, camaata öyüd-nəsihət ver, əxlaqi dəyərlərlə bağlı fikirlərini səsləndir. O da dedi ki, ay rəhmətliyin oğlu, nolsun ki, mən böyük aliməm, tanınmış ziyalıyam, amma öz evimdə qayda-qanun yarada bilmirəmsə, mən efirə çıxıb özümü biyabır etmək istəmirəm". Təbii ki, özünə hörmət edən adam elə belə də hərəkət etməli idi.

Mənim 30 ildən çox tanıdığım, dostluq elədiyim və qonşu olduğum Səməndər Eyvaz oğlu Məmmədov nəinki öz ailəsində, həm də yaşadığı, bizim Yeni Günəşlidə və eləcə də uzun müddət direktor vəzifəsində çalışdığı Sabunçu rayonunun 271 nömrəli tam orta məktəbdə çox böyük hörmət, nüfuz sahibi olub. O, bir ildir ki, yaş həddi ilə əlaqədar təqaüdə çıxıb. Yenə də həmin kollektiv tərəfindən hörmətlə xatırlanır və yada salınır. Bu da təsadüfi deyildir. Çünki Səməndər müəllim bir pedaqoq kimi, bir ziyalı kimi və bir insan kimi hamı ilə öz dilində danışmağı bacaran bir ziyalıdır. Mən inanmıram ki, o nə yaşadığı, nə də işlədiyi kollektivdə kiminsə haqqına girib və kiminsə qəlbinə dəyib. Özünün sadəliyi, səmimiyyəti, vətənpərvərliyi və ən nəhayət insanlığı ilə çox böyük nüfuz sahibi olub.

O, tək işlədiyi 271 nömrəli tam orta məktəbdə deyil, Sabunçu rayonunun ictimai-siyasi həyatında fəal iştirak edib və rayon icra hakimiyyətinin keçirdiyi bütün tədbirlərdə bir ziyalı, bir müəllim, bir pedaqoq kimi çox orijinal və unikal çıxışlar edib. Onun çıxışlarını dinləyən neçə-neçə ziyalı deyir ki, Səməndər müəllim yeganə ziyalılardandır ki, o, rayonun hər hansı bir tədbirində çıxış edəndə çox maraqla qarşılanıb. Çünki bu böyük ziyalının ürəyi, qəlbi həmişə dolu olub və öz qəlbinin, ürəyinin hərarətini sevə-sevə insanlara paylayıb. Və təsadüfi deyildir ki, Səməndər Məmmədov sözün həqiqi mənasında hər bir insana qiymət verməyi bacaran bir ziyalı olubdur. Başqa sözlə demiş olsaq, o kiminsə haqqını özgəsinə verməyib.

Əlbəttə, insan cəmiyyətdə nüfuz qazanmaq üçün ilk növbədə onun özünün tutduğu yol vicdanlı, ədalətli və işıqlı olmalıdır. O adamlar cəmiyyət tərəfindən qəbul olunur ki, onların əməli ilə sözləri bir-birini tamamlayır. Ən azından onu az-çox tanıyanlar bilir ki, həmin şəxsin səsləndirdiyi fikirlər boğazdan yuxarıdır, yoxsa ürəkdən, qəlbdən gəlir. Səməndər müəllim harda olubsa, harda işləyibsə, harda çalışıbsa, orda ürəyinin səsini və qəlbinin hərarətini insanlara paylayıb. Yəni, bu adam nə danşıbsa, nə deyibsə, sözünün də sahibi olub.



Elə insanlar var ki, onlar həmişə cəmiyyətdə nüfuz qazanmaqla yanaşı, insanlar arasında sülh, barış və sevgi yaradıblar. Yəni onlar yanan ocağın üstünə su töküblər. Su tökmək isə barış deməkdir, ağsaqqallıq deməkdir. Mənim 30 ildən çox tanıdığım Səməndər müəllim məhz belə böyük ziyalılardan biridir. Hər bir insan öncə öz ailəsində nizam-intizam yaratmalıdır və bu nizam-intizamı öz ailəsində yaradırsa, demək həmin insanlar başqalarına da yol göstərə bilər, məsləhət verə bilər. Mənim tanıdığım neçə-neçə insan var ki, ən çətin anda Səməndər müəllimin yanında olublar, ondan məsləhət alıblar və axırda da istəklərinə çatıblar. Yəni, Səməndər müəllimin ağsaqqallığı bir ailədə, bir evdə olan söz-söhbətə son qoyub və onlar arasında mehribanlıq yaradıbdır. Mən həmişə ona demişəm ki, dostum, qardaşım olsan da, səni hamımız ağsaqqal kimi tanıyırıq, ağsaqqallıq isə yaşla deyil, insanın əməli, müdrikliyi ilə müəyyənləşir.

Təbii ki, Səməndər Məmmədovun cəmiyyətdəki bu cür nüfuzu Sabunçu rayon icra hakimiyyətinin başçısı Adil Vəliyev tərəfindən həmişə qiymətləndirilib. Başqa sözlə demiş olsaq, Səməndər müəllimin rayon ictimai-siyasi həyatında iştirakı bir ziyalı, bir pedaqoq kimi vətənpərvər çıxışları onun nüfuzunun artmasına daha da böyük təkan verib. Bu yaxınlarda Sabunçu rayonunda Rayon Ağsaqqallar Şurasının konfransı keçirilib. Həmin konfransda Respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili Eldar Quliyev və rayon icra hakimiyyətinin başçısı Adil Vəliyev də iştirak ediblər. Konfrans yekdilliklə böyük ziyalı, böyük pedaqoq və yazıçı-publisist Səməndər Eyvaz oğlu Məmmədovu Sabunçu rayon Ağsaqqallar Şurasının sədri seçib. Bu münasibətlə həm millət vəkili Eldar Quliyev, həm də icra başçısı Adil Vəliyev Səməndər Məmmədovu təbrik edib. Səməndər müəllim də çıxış edərək bu yüksək etimada görə Ağsaqqallar Şurasının sədrinə və icra başçısına öz minnətdarlığını bildirib. O qeyd edib ki, mənə göstərilən yüksək etimada görə öz minnətdarlığımı bildirirəm. Çalışacağam ki, fəaliyyətimdə dövlətçiliyə, dövlətə xidmət edim, qarşıya qoyulmuş bütün vəzifələri yüksək məsuliyyətlə yerinə yetirim.

Aydındır ki, belə bir yüksək etimadın göstərilməsi Səməndər Məmmədovun həyatında yeni bir səhifə açır. O harda işləyibsə, həmişə göstərilən etimadı əməli işi ilə doğruldub. Daha doğrusu desək, tapşırılan işə yaradıcı yanaşır və orda "Səməndər adlı bir iz" qoymağı bacarıb və mən də bir dost olaraq inanıram ki, Rayon Ağsaqqallar Şurasının sədri kimi Səməndər müəllim çox böyük yeniliklərə, unikal hadisələrə və yadda qalan tarixi anlara imza atacaqdır.

Təsadüfi deyildir ki, Səməndər Məmmədov cəmiyyətdəki ictimai-fəallığına və dövlətçiliyimizə ləyaqətlə xidmət etdiyinə görə Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" medalı ilə təltif olunub və onu da qeyd edək ki, xalq şairi Zəlimxan Yaqub həmişə Səməndər müəllimə çox böyük qiymət və dəyər verib. Həmin qiyməti bir daha hörmətli oxucularımızın diqqətinə çatdırırıq ki, heç də o Ağsaqqallar Şurasına təsadüfən seçilməyib: "Təhsilimizin, maarifimizin, şeirimizin, sazımızın, sözümüzün səməndəri, pərvanəsi qardaşım Səməndər! Sən mənim elimin çox mərifətli oğlusan, çox böyük ürək sahibi olan gözəl bir insansan. Saçından dırnağına qədər şeirsən, şeiriyyətsən, sazsan, qara zurnasan, Faxralısan, Borçalısan, Azərbaycan təbiətisən, Türk dünyasısan. Sənin haqqında hər şey demək olar. Mən müəllim ailəsində doğulduğum üçün bilirəm ki, məktəb Məkkədir, müəllim peyğəmbərdir, qələm Allahın danışan dilidir, kitab Qurandır, mütaliə Allah işığıdır. Müəllim elmlə doludur. Allah hərəyə bir qismət verib. Ən böyük qisməti, ən böyük hüququ müəllimə verib. Müəllim həyalı, ismətli, abırlı, əl qabarı ilə, alın təri ilə, gözünün nurunu kitablarda kor eləyə-eləyə, elm oxuya-oxuya, elm öyrənə-öyrənə, elm öyrədə-öyrədə milləti tərbiyə eləyən ilahi bir varlıqdır. Onun ailəsi sazın telləri kimi nizam olmalıdır. Orada bircə tel kökdən düşdüsə, hava çalınmayacaq. O sazın 9 telinin 9-u da nizam olmalıdır ki, istədiyin vaxt istədiyin havanı çala biləsən. Mənim Səməndərim həmişə belə nizam kökdə olsun. Mənim Səməndərim qoy məclislərin yaraşığı olsun, könlümüzə layla çalsın, ruhumuza layla çalsın".

Mənim 30 ildən çox dostluq elədiyim böyük ziyalı, böyük insan, istedadlı yazıçı və publisist və yenicə Sabunçu rayon Ağsaqqallar Şurasına sədr seçilmiş Səməndər Eyvaz oğlu Məmmədov məhz belə bir insandır. Onun hər sözündən, hər kəlməsindən bal damır, sevgi yağır. Bir daha Səməndər müəllimi Ağsaqqallar Şurasına sədr seçilməsi münasibətilə bir dost olaraq təbrik edirəm, onun sevincinə şərik çıxıram və bu təbrikə mənim yaşadığım 13 nömrəli binanın sakinləri və eləcə də Səməndər müəllimlə uzun illər dostluq elədiyi insanlar və müəllim yoldaşları da qoşulurlar.

## *Boko Haramın 73 üzvü zərərsizləşdirildi*



*Nigeriyanın Borno ştatında Boko Haram terror təşkilatına qarşı əməliyyat keçirilib.*

*Bu barədə Türkiyə mediası məlumat yayıb.*

*Bildirilib ki, əməliyyat zamanı 73 terrorçu zərərsizləşdirilib. Bundan başqa, terrorçulara aid silah və hərbi texnikalar da ələ keçirilib.*

*Əməliyyatlar zamanı terrorçular tərəfindən girov saxlanılan 27-si uşaq olmaqla, 55 nəfər xilas edilib.*

## *Lukaşenko: Ukrayna "əriyir", biz nə edə bilərik?*



*Ukraynanın dövlət suverenliyi "ərimək"dədir. Bu açıqlama ilə Belarus Prezidenti Aleksandr Lukaşenko çıxış edib. "Belarusun suverenliyini və müstəqilliyini qorumaq uğrunda mübarizədə göstərdikləri dəstəyə görə bütün ruslara təşəkkür edirəm. Bu, bizim üçün çox vacibdir və dəyərlidir, çünki cənub qonşularımızın dövlət suverenliyinin necə əridiyini görürük. Güneylilər bizi bağışlasınlar. Ukraynalılar qardaş xalqımızdır, həmişə birlikdə olmuşuq və birlikdə olacağıq. Ancaq qardaş Ukraynanın rəhbərliyi fərqli bir yol tutubsa, nə edə bilərik?" - Lukaşenko qeyd edib.*

## *ABŞ sabiq prezidentlərə sanksiya tətbiq etdi*

*ABŞ Dövlət Departamenti Qvatemala və Hondurasın sabiq prezidentlərinə sanksiya tətbiq edib. Bu barədə Dövlət Departamentin yaydığı məlumatda deyilir.*

*Belə ki, müvafiq olaraq Alvaro Kolom və Porfirio Loboya məhdudiyyətlər tətbiq edilib.*

*Vaşinqton onları demokratik institutların işini pozmaqda və korrupsiyada ittiham edir.*

*MEHRİBAN*

# Daş döşəmə, qədim evlər - Tarixin yadigarı Qalaiçi...

## Antalya şəhərində yerləşən qədim şəhər Perge

(əvvəli ötən sayımızda)

**Türkiyənin turizm paytaxtı Antalyaya səfərimiz davam edir. Səfər çərçivəsində baş çəkdiyimiz növbəti məkan Perge antik şəhəri oldu. Antalyada xarici turistlərin üz tutduğu tarixi məkanlar arasında ön sıralarda dayanır. Turizm paytaxtı hesab edilən Antalya həm də özünəməxsus arxitekturası, tarixi yerləri və abidələri ilə də məşhurdur. Xarici turistləri də bu diyara cəlb edən Antalyanın təbiəti, turistlərə göstərilən yüksək səviyyəli diqqətlə yanaşı, həm də buradakı antik şəhərlər, tarixi yerlərdir.**







### Perge - böyük hamam və çoxsaylı fəvvarələr

Səfər çərçivəsində ilk baş çəkdiyimiz Perge antik şəhəri də belə yerlərdəndən biridir. Xatırladaq ki, Pergenin tarixinə dair müxtəlif məlumatlar var.

Bunlardan birində qeyd edilir ki, Antalya şəhərinin 18 km şərqindəki Aksu rayonunda yerləşən Perge böyük hamam və çoxsaylı fəvvarələrinə görə ”Su şəhəri” də adlanıb. Məlumata görə, qədim Pamfiliyadakı Perge Troya müharibəsindən qaçan qaçqınlar tərəfindən eramızdan əvvəl 1000-ci ildə qurulub. ”Parha” adı ilə tanınan və Hitit dövründə də mövcudluğunu qoruyan şəhər, Roma dövründə Anadolunun ən mütəşəkkil şəhərlərindən biri olub.

1946-cı ildə başlanan qazıntılar bu qədim şəhərlə bağlı çoxsaylı qiymətli tapıntıların üzə çıxmasına səbəb olub. Böyük bir Roma amfiteatrı, Roma qapısı, həmçinin şəhər divarlarının xarabalıqları, akropol və Bizans bazilikası bu tapıntılara aiddir.

Bundan başqa, mərmər lövhələrlə üzlənmiş və qədim heykəllərlə bəzədilmiş məşhur Roma hamamları da Pergedə qorunub saxlanılıb. Bu barədə bir qədər sonra.

### Antik Perge şəhərinin əsas təməl quruluşu olan stadion

Perge şəhərinin planının əsasını biri Şərq-Qərb, digəri Şimal-Cənub istiqamətində uzanan iki əsas küçə təşkil edir. Antik Perge şəhərinin əsas təməl quruluşu olan stadion Türkiyənin ən yaxşı qorunan qədim stadionlarından biridir. Stadionu gəzişdikcə filmlərdə gördüyümüz qladiator döyüşləri, at arabaları yarışları, döyüş səhnələri, səhnəyə çıxan vəhşi heyvanlar göz önündə canlanır. Stadionun kənarlarında döyüşçülərin və vəhşi heyvanların giriş qapıları hələ də qalır.

Bələdçimiz Meltem xanımın sözlərinə görə, eramızın II əsrində tikilən stadion təxminən 12 min tamaşaçı tutumuna malik olub.

### İsti su, soyuq su olan otaqlar

Yarışlardan öncə stadionda məşq edən idmançılar buradakı böyük hamamda çimiblər. Qədim romalılar bu hamamda hər cür şərait yaradıblarmış. İsti su, soyuq su olan otaqlar.

O da qeyd olundu ki, memarlıq və mərmər heykəltəraşlığı ilə məşhur olan qədim şəhərdəki qazıntılarda aşkarlanan heykəllər Antalya muzeyini ən əhəmiyyətli heykəltəraşlıq muzeylərindən birinə çevirib. Pergede heykəltaraşlıq məktəbi də fəaliyyət göstərib.

### Məşhur Perge bazarı

Liman şəhəri kimi önə çıxan Pergedə qədimdə geniş bir bazar da olub. Özü də bu bazar sayəsində Perge sakinləri zəngin həyat sürüblər. Aksu çayı vasitəsilə dünyanın müxtəlif yerlərindən bu şəhərə üz tutan xarici tacirlər çoxsaylı mallar gətirirmişlər. Ümumiyyətlə, bazarda çoxsaylı dükanlar olub.

Meydanın ortasında isə balıqçılara yer ayrılıb.

### Abidəli fəvvarələr və Roma qapısı...

Antalyaya səfər edən xarici turistlərin üz tutduğu tarixi məkanlar arasında ön sıralarda dayanan Pergedə eramızdan əvvələ aid mağaralara və məskunlaşmalara rast gəlinməkdədir. Mağaralar içərisində ən tanınmış olan Quru mağarası, Karainin qonşusu olan Öküzün mağarası, Beldibi, Bəlbas qaya sığınacaqları və Badamağacı bölgədəki ən tanınmış tarix öncəsi yaşayış sahələridir.

Antik dövrdə şəhərin əzəmətini əks etdirən digər sosial və mədəni quruluşlara düzbucaqlı planlı bir agora, hündür qüllələr, abidəli fəvvarələr və bir də Roma qapısı daxildir. Roma qapısı da eramızın ikinci əsrində tikilib. Şəhər böyüdükcə onun sərhədləri də böyüyürmüş. Nəticədə də ərazisi genişlənmiş şəhərin yeni giriş nöqtəsində Roma qapısı tikilir. Meltem xanım deyir ki, bu qədim abidənin bir sirri var. Ortadakı iki daşı götürsən bütün qapı divarları dağılar.

Roma qapısının üzərinə çəkilmiş akantus isə qədimdən yunanlar və romalılar tərəfindən bərəkət çiçəyi kimi dəyərləndirilirmiş. Bir də Pergedə əksər daşların üzərində akantusla yanaşı yumurta rəsminə rast gəlmək mümkündür. Meltem xanımın sözlərinə görə, qədim romalılar yumurtanı da bərəkət simvolu kimi qəbul edirlərmiş. Antalyaya səfər edən xarici turistlərin Pergeni görməkdə maraqlı olması təsadüfi deyil.

***

### Bakıdakı İçərişəhərin “əkiz qardaşı”

**Səfər çərçivəsində baş çəkdiyimiz növbəti məkan Qalaiçi adlanan qədim şəhər oldu.**

Qalaiçi dar və dolambaclı küçələri, qədim evləri, qədimlikdən güc alan kiçik çaplı alışveriş nöqtələri və turistləri razı salan kiçik, lakin ekzotik auraya malik restoranları ilə Bakıdakı İçərişəhəri xatırladır. Əslində, Qalaiçini bu özəlliklərinə görə Bakıdakı İçərişəhərin ”əkiz qardaşı” da adlandırmaq olar.

### İlin 365 gününü Qalaiçini gəzmək mümükündür

Antalya Kemer, Belek, Alanya və Side kimi turizm bölgələri ilə məşhur, turistlərin daim istirahət üçün seçdiyi şəhərdir. Burada turist axınının daha çox qeydə alındığı bölgə isə məhz Qalaiçi adlanan qədim şəhərdir. Bu da səbəbsiz deyil. Əvvəla, səfər zamanı bələdçimiz Məltəm xanımın bizə bildirdiyi kimi, təkcə yay mövsümündə deyil, ilin 365 gününü Qalaiçini gəzmək mümkündür.

### Yivli minarə - Antalyanın simvolu

Antalyanın görməli yerlərinin əksəriyyəti də, demək olar ki, bu ərazidə yerləşir. Buradakı evlərin çoxu mehmanxana və restorana çevrilib. Yivli minarə isə Antalyanın simvolu hesab edilir. Hündürlüyü 39 metrə çatan abidə 1230-cu ildə Sultan Ələddin Keyqubad tərəfindən inşa edilib. Binanın gövdəsi kərpic və firuzə rəngli plitələrdən ibarətdir. Gövdəsində olan 8 yarımsilindrik forma bu minarəni misilsiz edir.



Bir sözlə, 8 yivi var və yivlərinə görə Yivli minarə kimi populyarlaşmışdır. Səlcuqlu dekorativ sənətlərində böyük məna kəsb edən ”səkkiz guşə” və ya ”səkkiz nömrə”ni tez-tez görürük. Bu xüsusiyyəti Yivli minarədə də görürük.

### Osmanlı imperiyasına qədərki dövrün tapıntıları...

Qalaiçində əsası XIX əsrdə qoyulan Saat qülləsi, Xıdırlıq qalası, Adrianın qapıları şəhər sakinlərinin və qonaqların sevimli istirahət məkanlarıdır. Türkiyənin ən zəngin muzeylərindən biri məhz Antalyadadır. Burada Osmanlı imperiyasına qədərki dövrün tapıntıları, romalılara aid heykəllərlə işlənmiş sarkofaqlar nümayiş edilir.

### At nalı şəklində olan divarlarının 2000 illik yaşı var

Tarixin müxtəlif dönəmlərində müxtəlif imperatorluqların nəzdində sürətlə böyüyən Qalaiçi 1207-ci ildən etibarən türklərin nəzarətinə keçib. Anadolu Səlcuqlu dövlətinin hökmdarı I Qıyasəddin Keyxosrov tərəfindən ələ keçirilən Qalaiçi qısa müddət sonra itirilsə də, 1216-cı ildə Anadolu Səlcuqlu Sultanı I İzzəddin Keykavus tərəfindən yenidən fəth edilib. Qalaiçinin həm daxildən həm də xaricdən at nalı şəklində olan divarlarının 2000 illik yaşı var.

### Qalaiçində fərqli din, dil və irqə məxsus insanlar dostcasına yaşayıb

Hər biri ayrı gözəlliyə sahib 3000-ə qədər ev Qalaiçinin inciləridir. Burada əksər evlər iki mərtəbəlidir. Lakin 3 mərtəbəli evlər də var. Antalyaya səfər edib, qədim şəhərdə qalmaq istəyənlər bu evlərdə kirayə qala bilərlər. Qalaiçi evləri rəngarəng boyaları və bir çox özəllikləri ilə minlərlə turistə xidmət edir. Qalaiçinin bir başqa özəlliyi isə etnik tərkibi ilə bağlıdır. Belə ki, əsrlər boyu Qalaiçində fərqli din, dil və irqə məxsus insanlar dostcasına yaşayıb, hazırda da yaşayırlar.

**Bələdçimiz Məltəm xanım deyir ki, Qalaiçinə gələn turistlər burada bir sıra maraqlı muzeylərə də baş çəkə bilərlər. Ən nəhayət, bu qədim şəhəri gəzdikdən sonra limana düşüb, yaxşı bir balıq yemək də məsləhətdir.**

**Sübhan Mahmudov**
**Türkiyə, Antalya**

# İyirmi üç ayın ispolkomu

## Onun adını dilimə gətirəndə eşidənlər yalnız məmnunluq ifadə etdilər

**Bilmirəm, bu, mənim taleyimdi, yoxsa, alın yazımdı və yaxud da boyuma biçilmiş missiyadı. Hər nədisə barəsində yazmaq qərarına gəldiyim el-oba adamlarının, ümumiyyətlə, uzaqdan-yaxından tanıdığım hər kəsin taleyi məni həmişə özünə çəkib və bu maqnit gücü məni o qədər aludə edib ki, özümdən xəbərsiz o taleyə qoşulub, çox-çox uzaq ellərə, uzaq məkanlara gedib-çıxmışam. Bir də başımı qaldıranda görmüşəm ki, olduğum yer, dayandığım nöqtə, həmsöhbət olduğum adamlar məndən yaşca nə qədər böyük olmalarından, həmin məkanı necə tanımağımdan asılı olmayaraq, burda hər şey, hər an, hər söz mənə əzizdi. Deməli, bu da adamın, xüsusilə, söz adamının yaşadığını öz köynəyindən keçirməsidi. Həmin an doğmalıq, səmimiyyət elə bir həddə gəlib-çatır, elə bir mərtəbəyə yüksəlir ki, orda ikinci tələf olmur. Sən eşitdiklərini, gördüklərini öz həyatının, öz yaşamının bir səhifəsi, bir hissəsi kimi içində gəzdirirsən. Onunla əl-ələ tutub gəzdiyin hər yerdə bir rahatlıq duyursan və ...**

Bəli, barəsində yazmağa başladığım bu Kişini Qarabağda demək olar ki, hamı tanıyır. Mən hələ onun hüdudlarından kənarı demirəm. Bunu mənim inancıma, inamıma görə, iki səbəbi var. Birinci, bəlkə də, ən əsası, bu Kişinin halallığıdı. Yəni, sözü də halaldı, kəsdiyi çörək də halaldı, verdiyi salam da halaldı, gördüyü iş də halaldı və ən əsası dözümü, dəyanəti, mərdliyi, şəxsiyyəti də halaldı. Zənnimcə, təkcə bu saydığım çalarlar bir insanın yadda qalması, barəsində yazılması üçün kifayət edir. Oğul gərəkdir ki, bu halallığın ip ucundan tutub qoşula o Kişiyə və çıxıb-gedə 1941-ci il iyul ayının 14-ə. Bu tarix bir yaddaşdı, bir faktdı, bir gerçəklikdi. Çünki həmin tarixdə Şuşa rayonun Xəlifəli kəndində həmin Kişi doğulub. Düşünə bilərsiniz ki, burda qeyri-adi nə var ki. Amma tələsməyin. Bir anlıq səbr edin. Mənim dediklərimi, daha doğrusu yazdıqlarımı oxuyun, sonra görəcəksiz bu tarixin hansı əhəmiyyətə malik olduğunu və biləcəksiniz ki, Əliş Kişinin evində Göyçək ananın dünyaya gətirdiyi bu oğul atasının üzünü görməyəcək. Çünki cəmi 7 gün sonra onun atasını müharibəyə aparacaqlar. Bir damın altında Göyçək ana və bir də bu oğul qalacaq...

Tarixə baş vuraq. Xatırlayaq ki, Azərbaycanın da aid olduğu Sovet dövründə, daha doğrusu, o dövrün 1941-ci ilində nələr baş verib? Xatırladınızmı, əgər çətin də olsa, deyim: - Sovet -alman müharibəsi! Bəli, bu oğulun atası Sovet torpağını, alman faşizmini qorumaq üçün səngərə getdi. Əslində, getmədi, apardılar. Çünki aid olduğu böyük dövlətin yazılı və yazılı olmayan qanunu bunu tələb edirdi. Əliş kişi də oğlunu ömür-gün yoldaşı, həyatının ilk övlad nübarını ona bağışlayan Göyçək anaya tapşırdı, ananı da Allaha! Və beləcə, Şuşanın Xəlifəli kəndində bir damın altında bir ana bir oğlunu sinəsinə sıxdı. Bir oğul bir anaya sığındı... Sonra bir ana qərar verdi. Bir oğul bir ananın qərarına baş əydi. Və bir ana bir oğlunu götürüb Şuşa şəhərinə üz tutdu. Burda sığınacaq tapdı və o bir oğul bir ana ilə Şuşada həm həyatın müharibə acısını, həm yaşam acısını, həm də mücadiləsini yaşadı. Dişlə, dırnaqla bir ana və bir oğul ayaqda qaldı. Artıq 1950-ci il idi. Beş il ata yolu gözlədi oğul... beş il ər yolunu gözlədi Göyçək ana. O illər bu günə qədər də oğul tərəfindən gözlənilir. Heç olmasa bir xəbər naminə, bir işartı naminə. Amma xəbər kimi ata da, ər də gəlmədi. Və 1950-ci ildə həmin oğul Şuşadakı 1 №-li məktəbin şagirdi oldu. Oxudu, anasının köməkçisi oldu, yavaş-yavaş da, özü də hiss etmədən uşaqlığını kişiliklə əvəzlədi. Artıq hamı bildi ki, Əliş kişinin evində, Göyçək ananın yanında bir Kişi var - evin Kişisi!...







Yazının əvvəlində iki məqamdan söz açdım. Birini artıq demişəm. İndi qayıdıram ikinci məqama.

Barəsində danışdığım həmin Kişini halallığı ilə yanaşı, onu tanıdan və sevdirən ikinci cəhət uşaqlıqdan ağsaqqallıq missiyasını yerinə yetirməsi, haqqı-nahaqqa verməməsi, ədalət uğrunda axıra qədər çarpışması, qarşısına qoyduğu məqsəd üçün hər şeyi göz altına alması və bir də ən vacibi Şuşanı öz həyatının ifadəsinə, mənasına, kredosuna çevrilməsidi. Yəni, bu Kişi Şuşa üçün, şuşalılar üçün, tanıdığı və dəyər verdiyi hər kəs üçün gözünü qırpmadan zəruri olan bütün addımları atmaqdan heç vaxt çəkinməyib. Və bir də bu Kişi sirr saxlamağı, sirdaş olmağı, bununla bərabər dostu, yoldaşı qoruyub şərəfləndirməyi çox gözəl bacarırdı. Ona görə də onunla dost olanlar həmişə məmnun qalıblar, həmişə ona güvəniblər. Bax, elə bu yerdə yadıma barəsində danışdığım Kişi ilə bağlı söz düşəndə qarabağlıların, şuşalıların, Azərbaycan ziyalılarının yaxşı tanıdığı Zahid Abbasov dedi ki: "Əlövsət müəllim güvənilən kişilərdəndir. Ona söykənib heç nədən ehtiyatlanmadan sözünü də deyə bilərsən, işini də görə bilərsən. O elə bir ağsaqqaldır ki, onunla yalnız fəxr etmək olar. Səxavəti, duz-çörəyi, xətir-hörməti, torpaq sevgisi, dost sədaqəti, kişi xarakteri Əlövsət müəllimin hər kəs tərəfindən görünən, bilinən, dəyərləndirilən cəhətlərindəndir. Onun Şuşada gördüyü işlər, adamlara əl tutub kömək etməsi, məsləhət verməsi, qayğı göstərməsi hər kəsə məlumdu. Çox dizibərk, sözübütöv, heç nədən çəkinməyən bir kişidi Əlövsət müəllim. Allah ona ömür versin".

Təbii ki, bir Qarabağ ziyalısının söylədiyi fikirlər mənim də artıq adını sizə təqdim etdiyim Əlövsət Əliş oğlu Məhərrəmov orta məktəbi Şuşada bitirəndən sonra Bakıya gəldi. Politexnik texnikumunun inşaat faküləsinə daxil oldu. Təhsilini başa vurub doğulduğu şəhərə qayıtdı. Əmək fəaliyyətinə başladı. İki ildən sonra ali təhsil almaq üçün yenidən Bakıya üz tutdu. Bu dəfə Politexnik İnstitutunun inşaat fakültəsinə girdi. Müəyyən səbəblərdən institutu fasilələrlə bitirməli oldu. Təbii ki, bu da ailə vəziyyəti və bir də çalışdığı iş ilə əlaqədar idi. Amma bütün bu bəlli problemlərə baxmayaraq o, İnşaat İnstitutunun fərqlənən tələbələrindən oldu. Çünki istehsalatda qazandığı təcrübə onun bir çox keyfiyyətlərini vaxtında üzə çıxarmışdı. Hər kəs görüb bilmişdi ki, Əlövsət müəllim inşaat işini, memarlığı, rəhbərliyi gözəl bacarır. Ona görə də hələ 1963-cü ildən Şuşa rayon tikinti və arxitektura şöbəsində böyük mühəndis kimi işə başlayan Əlövsət Məhərrəmov 1965-ci ildə Şuşa rayon Təmir-Tikinti İdarəsində iş icraçısı idi. Burda da qısa müddət işləyəndən sonra onu yeni vəzifələrə irəli çəkiblər. Bütövlükdə, Şuşa şəhərində tikinti ilə bağlı olan sahələrdə Əlövsət Məhərrəmovun izi görünüb. Çünki onu hansı vəzifəyə təyin ediblərsə, orada mütləq bir yenilik dərhal bürüzə verib. Xüsusilə, çalışdığı kollektivdə, yaratdığı qayda-qanun, işgüzar mühit onu hamıya sevdirib. Hətta 1968-ci ildə Şuşa rayon yol idarəsində baş mühəndis kimi fəaliyyət göstərəndə onun Şuşanın yolları ilə irəli sürdüyü təşəbbüslər dərhal müxtəlif reaksiyalar doğurub, sevinənlər də olub, arxada dodaq büzənlər də. O isə daha çox sevinənlərin yanında olub. Onların istəyini, arzularını yerinə yetirib.

Burda bir məqamı da xatırladım ki, Sovet dövründə bir çox nazirliklərin Şuşada aildiyyatı idarələri, qurumları fəaliyyət göstərirdi və onların da tabeçiliyi nazirliyin özünə mənsub idi. Ona görə də bəzən nazirliklər yerlərdəki layiqli kadrları özləri axtarıb-tapır və onlara həmin yerlərdəki idarələrə, qurumlara rəhbər təyin edirdilər. 1969-cu ildə Azərbaycan Respublikası Sənaye Tikinti Nazirliyinin rəhbərliyi Əlövsət Məhərrəmovu 92 №-li Şuşa Tikinti İdarəsinə işə dəvət etdi. 3 ildən sonra artıq o, kolxozlararası tikinti idarəsinə rəis təyin olunmuşdu. Bax, beləcə Şuşanın tikinti sahəsi ilə yanaşı, burda fəaliyyət göstərən istirahət zonasının da, yeni, kurortlar idarəsinin də dövrün tələblərinə uyğun səviyyədə tanıdılmasında Əlövsət Məhərrəmov yaxşı nümunələr göstərdi. Təsəvvür edin ki, həmin dövrdə Şuşa o vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin tabeliyində olan bir rayon idi. Vilayətə rəhbərliyi isə ermənilər edirdi. Hətta ermənilər belə, Əlövsət müəllimin işində nöqsan tapa bilmirdilər. Nə qədər cəhd etsələr də, onu ləkələmək, onu gözdən salmaq daşnaklara müyəssər olmurdu. Çünki Əlövsət Məhərrəmov hər axşam işdən sonra anasının dizinin dibində oturub onunla 1941-ci ildən üzübəri yaşadıqlarını yenidən bölüşürdü. Onun nəsihətlərinə, onun xeyir-duasına söykənirdi. Və Əlövsət müəllim yaxşı bilirdi ki, saçlarını onun üçün ağardan ana hər gün dualar edib oğlunu Allaha tapşırırdı. Bu dünyada Allahdan və anasından başqa heç kimi olmayan Əlövsət Məhərrəmov da məhz sığındığı, Allahın kölgəsində onun yoluna kötük yumalayanlara qalib gəlirdi, onları götürüb yolundan kənara atırdı...

Bir neçə günün söhbətidi. Mənim üçün Qarabağda ən böyük haqqı olanlardan biri saydığım yazıçı-publisist, araşdırıcı Vasif Quliyev telefonuma zəng edib "düş yanıma" dedi. Təbii ki, getdim "Şuşa" qəzetinin redaksiyasına. Məni adını çoxdan duyduğum, özünü uzaqdan tanıdığım Əlövsət müəllimə təqdim etdim. Daha doğrusu, bu təqdimatın hər iki başında bir məqsədin dayandığını anladım. Bu məqsəd də təbii ki, Əlövsət müəllimin 80 yaşının mətbuatda qeyd edilməsi idi. Vasif müəllim fikirlərini tamamlayanda artıq mən öz içimdə bu yazını yazırdım. Çünki yazının ip ucu onun öz dilindən səslənmişdi. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay hakimiyyətdə olduğu kimi Əlövsət müəllim də 23 ay Şuşanın ispolkomu olmuşdu. Özü də bu işə cəhd göstərmədən, yəni...

1979-cu ildə Şuşa rayon Xalq Deputatları Sovetinə sədr seçilən Əlövsət Məhərəmov ona göstərilən etimad üçün təşəkkür etsə də, amma öz ürəyində bir narahatlığın qaldığını da hiss etdim. Sanki kimsə ona pıçıldayırdı ki, bu iş sənlik deyil. Sən tikib-qurmağı, yaratmağı, sərbəstliyi sevən insansan, əl çalmaq, kimlərinsə istəyinə "Amin" demək sənlik deyil. Duyduğu həmin o hiss 23 aydan sonra öz təsdiqini tapdı. Elə ki, ispolkom sədri kimi Şuşada gördüyü işlər, xüsusilə, növbəlilik prinsipinə əməl edilməsi, hər kəsin öz növbəsində rüşvətsiz, "şirinliksiz" mənzil alması, digər növbəli məsələlərin qanunauyğun həll edilməsi, sifarişlərə, özəl tapşırıqlara əhəmiyyət verilməməsi Əlövsət müəlimin ispolkom stolunu hər gün laxladırdı. "Yuxarılar", "imtiyazlar" yeni sədrlə yola gedə bilmirdilər. Haqqın, ədalətin zəfəri onları Əlövsət müəllimə qarşı birləşdirirdi. Və nəhayət, 23 aydan sonra heç bir ciddi səbəb göstərmədən, 5 gün əvvəl təşəkkürnamə almış ispolkomu vəzifəsindən azad etdilər. Məzuniyyətə hazırlaşan Əlövsət müəllim bundan heç narazı qalmadı. Əksinə, bu yükdən xilas olduğuna sevindi. Və dostların, bir də öz bacarığının hesabına müxtəlif vəzifələrdə çalışdı. Göstərdi ki, o öz haqqının sahibi olan Kişidi.

İki qızı, beş nəvəsi, doqquz nəticəsi olan Əlövsət Əliş oğlu Məhərrəmov bu dünyadakı bütün hadisələrin mənfi, müsbət çalarlarına həmişə bir bucaq altında baxıb və vurğulayıb ki, insanı alçaldan da, ucaldan da onun nəfsidi. Nəfsinə təslim olanlar alçalırlar, sürünürlər və gözdən düşürlər. Nəfsini özünə tabe edənlər isə özləri ucalır, özləri həmişə sayılıb-seçilirlər.

**Bu gün 80 yaşını həmin o Kişi qüruru ilə qeyd edən Əlövsət Əliş oğlu Məhərrəmovun bu dünyada yeganə borclu olduğu insan anasıdı. Bir damın altında, bir ana-bala və bir də başlarının üstündə Allah, bu böyük yolun yolçusu olublar. Yol da uğurlu olub, yolçular da Allah adamı. Ömrünüz keçdiyiniz yollar qədər uzun olsun Əlövsət Əliş oğlu.**

**Əbülfət MƏDƏTOĞLU**




**İFTİXAR**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru*


# ŞAİR HAQQINDA ŞEİRSAYAĞI DÜŞÜNCƏLƏR

**Bir şair haqqında söz açmaq və onun şeirlərini təhlil etmək, həm bir şair təbi qədər coşmağa, həm də, bir şeirə çevrilməyə bərabər xoşbəxtlikdir. Mən bu coşquya və xoşbəxtliyə qovuşmaq üçün bütün hisslərimlə və duyğularımla ürəyimə yol tapan bir şairin şeirləri ilə bir müddət, bir oxucu kimi baş-başa qaldım:**

***"Adını göyərdən dilim,***
***Qadını kövrəldən dilim...***
***Sevgini öyrədən dilim -***
***Hələ də deyirlər laldı..."***

poetik düşüncələri nəzərdən keçirdikdən sonra,

***"Ayıra bilmədən dizini yerdən,***
***Gözlərim dənləyir izini yerdən.***
***Qaldıra bilsəydim gözümü yerdən,***
***Gəzərdim, o gənclik vaxtdakı məni..."***

Xatirələr küncündən gözlərimə tuşlanmış baxışlarla üz-üzə dayandım.

***... "Gecəm şamdı - əriyir,***
***Bələnirəm tüstümə...***
***Sol gözüm çox səyriyir,***
***Əyilib qoy üstünə -***
***Gözünü!***

***Dan üzünün ayazı -***
***Sakini otağımın...***
***Toxundur ki, isinim -***
***Əlinin, dodağının -***
***Közünü!***

***Bax, bənövşə şehidi***
***Kirpiyimdəki nəm də...***
***Xəyalımın sehridi -***
***Görmək şəklini, həm də -***
***Özünü!"***

lirik, romantik duyğuların kəhkəşanına vardım.

***"Sevincində, qəmində***
***Kirpiyinin nəmində...***
***Hansısa bir dəmində -***
***Varammı?***

***Gülüşündə, nazında***
***Onun çox, ya azında...***
***Sənin alın yazında -***
***Varammı? "***

fəlsəfi, psixoloji oqat yaradan əhvala kökləndim. Və xeyli müddətdən sonra şairin şeirlərinə bir də şair nəzərləri ilə baxmağa başladım və bu nəzərlər məni şairin poeziyası haqqında danışmağa vadar etdi.

Şairin şeirlərini hər dəfə həm sosial şəbəkələrdən, həm də, qəzet səhifələrindən oxuduqca, şeirlərin hansı təbdən doğulduğunu və hansı mövzularla oxucu qəlbinə yol tapdığını həssas şəkildə müşaiət edirdim. Həm öz ruhuma təsir qüvvəsi, sözün və sözdəki lirik, romantik, psixoloji və fəlsəfi hikmətlə əhvalımda yaratdığı ovqat barədə düşünür, həm də, digər oxucuların könlünü hansı poetik ilhamla özünə yuva etdiytini bütün hisslərim və duyğularımla dərk etməyə çalışırdım. Təsəvvür edin, şeirin həm bədii-poetik səciyyəsi, həm fəlsəfi-estetik məcmuəsi, həm məzmun və mövzu genişliyi, həm zəngin söz ehtiyatı ilə cilalanan bənzərsiz özünəməxsusluğu və həm də, sözlərin alletriasiyası və simfonik musiqiyə bənzər ahəngdarlığı ürəyaçan və könüloxşayan bir nəğmə kimi ruha rahatlıq gətirir:

***"...Özümə özüm qədər***
***Yoxdur, yaşadan kədər!***
***Soruşmuram ki, hədər -***
***Varammı?***

***Dünyamdakı ataş, nur,***
***Bir azacıq yaxın dur!..***
***Əlini üzümə vur -***
***Varammı?.."***

Önəmli olan odur ki, şairin bütün həyatı boyu sakit, təmkinli, könlündə və qəlbində sükuta daha çox yer ayıran təbiəti, az sözlə böyük fikirlər ifadə etmək cəhdi şeirlərinin canına və qanına hopmuş halda oxucuya sövq-təbii rahatlıq gətirir və onu öz ovqatı ilə tilsimləyir:

***"Səndə çəmən, məndə örən***
***Kimdi məni məndə görən?***
***Görəcəmmi mən də, görən -***
***Görmək istədiyim günü?!"***

Aşağıdakı bənddə isə şairin nə qədər pünhan, nə qədər məhrəm, nə qədər ürəkparçalayan duyğularla alışıb yandığını, lakin aylar illərə calansa, içindəki onu yaşadacaq qüdrətə malik yeganə işıq sönsə də, sevdiyinə ziyan verməK istəmədən özü, öz dünyasında necə alovlandığını, qarşısındakının xəbəri belə olmadan eşqi ilə bərabər necə "öldüyünü" görürük. Tam pərvanə qarşılıq güdmədən öz eşqi uğrunda özünü qəfil oda atdığı kimi. Ədəbiyyatın əbədi mövzusu olan eşq səltənətinin əlçatmazlığında bir şair ürəyi bax beləcə, şam kimi əriməkdədir:

***"Anlar illərə dönür,***
***İçimdə işıq sönür...***
***Mənimlə bir eşq ölür -***
***bilmirsən..."***

yaxud,

***"Özümən, dörd divar, bir də ki, ahım -***
***Məni ovutmağa cəhd edən kimdi?..***
***Gedib Allaha da çatıb günahım -***
***Günahla ölməmi əhd edən kimdi?!."***

Şairin bu xüsusiyyəti bütün şeirlərinin "xasiyyətinə" və "xarakterinə" həzinlik, rəvan bir ahəngdarlıq, eyni zamanda, mövzuların, fərqli olsalar belə, bütün hallarda bütövlük və yetkinlik, lokaniklik və konkretlik, həm də yüksək bədii ifadəsi ilə ürək çalan, ürək alan, bir başa ruha siraət edən həssasiyyəti ilə seçilir:

***"Yaşayıram... yaşamaqsa əgər bu -***
***Mən anlara bölə-bölə ömrümü...***
***Həsrətinlə savaşdayam, günlərlə -***
***Paylaşıram, belə-belə ömrümü...***

***Bürünübdü taleyimdə gün "ah"a***
***Bilirəm ki, çox batmışam günaha!***
***Sənin üçün əl açaraq Allaha -***
***Nəzir dedim gülə-gülə ömrümü!.."***

Haqqında söz açdığımız, könlü məlhəmlə dolu olan şair qardaşım Əbülfət Mədətoğlu hələ körpəliyindən Qarabağımızın ən dilbər guşələrindən olan Tuğ kəndinin bulaqlarından içdiyi suyun, dağlarından və meşələrinin füsünkar təbiətindən aldığı bədii kamilliyin yükü və çəkisi ilə ağır, ləngəri böyük olan bir şair ömrünü öz həzin və dərin şeirləri ilə oxucusuna məcun kimi təqdim edir. Ürəyəyatımlı şeirləri ilə oxucusu qarşısına çıxdıqca şair, hər dəfə sanki imtahan verirmiş kimi dərin məhəbbətlə oxucusunun fikirlərinə ehtiram göstərir. Təbii ki, bu ehtirama görə Əbülfət Mədədoğlunun şeirləri hər dəfə onu oxucusuna bir ayrı məhəbbətlə sevdirir. Oxucunun sevgisi, şairin uca Yaradana həsr etdiyi, ona olan eşqininin tərənnümünə çevrilən "...ancaq O" şeirndə daha parlaq şəkildə sezilir, çünki belə bir poeziya nümunəsi bir oxucu kimi mənim də könlümü həssas şəkildə fəth etmişdir:

***... "Ocağım, odum, közüm***
***İlk, həm də ki, son sözüm...***
***Məni yaşadan dözüm -***
***ancaq O!"***

yaxud,

***"Haqqın yerdə zərrəsi***
***Ruhun şehli - tər səsi!***
***Ürəyimin pərdəsi -***
***ancaq O!"***

Allahı ürəyinin pərdəsi kimi incə, məhrəm duyğularla tanıyan, dərk edən şairin təxəyyül arealının geniş arenası bizi bu böyük ürək sahibinə qəlbən bağlayır. Əbülfət Məmətoğlu o qədər həssas ürək sahibidir ki, Allahına olan segisi ilə yanaşı, Azərbaycan ədəbiyyatının ustad hesab etdiyi görkəmli nümayəndələrinə də öz məhəbbətini izhar etməyi özünə borc hesab edir:

***"Boylanıb dünyaya sübh, dan üzündən***
***Sildim gözlərimin al qan üzündən...***
***Mənə sitəm edən bir can üzündən -***
***Ruhuna səcdəyə enirəm, Ustad!***
***İndi Qarabağa dönürəm, Ustad!***

***Ağac kölgə salıb, çiçək şeh əmib,***
***Tumurcuq budaqda çoxdan behlənib...***
***Ürəyim payızdan yaman şəklənib -***
***Sarala-sarala sönürəm, Ustad...***
***Üzü Qarabağa dönürəm, Ustad...***

***Yollar ot bitirib, qanqal göyərdib...***
***Tikan xatirəmi didib - kövrəldib...***
***Ahı varlığıma elə öyrədib -***
***Çəkdikcə heçliyə çönürəm, Ustad...***
***Üzü Qarabağa dönürəm, Ustad!***

***Gəlirəm əliboş - dili də sözsüz***
***Üstümə bir ovuc dupduru söz süz!***
***Tay qala bilmirəm ya "döz!", ya "dözsüz" -***
***Bağışla, qarşında dinirəm, Ustad!***
***Ruhuna diz çöküb dönürəm, Ustad!"***

Baxın, sözün əsl mənasında ustad şair olan, doğma Qarabağımızın havası və havacatı ilə daim cöşaraq şeir-irfan məclislərində həm şeirləri ilə, həm də şəxsiyyəti ilə bütün məclisi öz işığında tilsimləyə bilən unudulmaz Şahmar Əkbərzadənin ruhuna xitabən yazdığı bu şeirdə, Mədətoğlu ustad Şahmar müəllimə öz sevgisini necə ürəkdolusu məhəbbətlə bəyan edir və Şahmar Ələkbərzadə şəxsiyyətini doğma Qarabağ - Vətən miqyası ilə eyniləşdirir. Bu eyniləşməni mən də ürəkdolusu alqışlayıram. Çünki az zaman içində doğmalarım qədər sevgi ilə bağlandığım, lakin hələ işığına ürəkdolusu qızına bilmədiyim, tanıdığım gündən etibarən heç vaxt unutmadığım böyük insan, böyük şair, Azərbaycan ədəbiyyatı Azərbaycanın hüdudlarından kənarda, həm də ən qüdrətli sənətkarlar önündə şərəflə təmsil edən, onları heyran qoyan o nəhəng sənətkar - unudulmaz Şahmar Ələkbərzadə ürəyimdə öz zirvəsini elə yüksəltmişdir ki, o yüksəklik əbədi olaraq könümdə və könüllərdə yaşayacaqdır. Və Mədətoğlunun xoşbəxtliyi də ondadır ki, məhz əlahidə qüdrət sahiblərinə həmişə bağlı olduğunu eşqlə etiraf edir. Məhz ondandır ki, o, oxucu ürəyinə bənd-bənd hakim kəsilir, məhz bu amil ona oxucu sevgisini, şeirdən şeirə, ildırım sürəti ilə qazandırır. İllah da, könlü Vətən sevgisi ilə alovlanan şeirlərində şair daha böyük yanğı ilə diqqət çəkir. Çünki Vətən də, eşqlə bağlı olduğumuz qüdrətdir, müqəddəs, ilahi varlıqdır! Bu xüsusda, "Sən də..." şeirində Vətənə olan sərhədsiz sevginin içində daim alovlanan və yağı düşmənin xarabazara çevirdiyi yurd yerlərimizin ağrıacısının gətirdiyi dərd üstünə dərd qalayan ovqatını öz yanğısı ilə ürəyimizə hədəfləyir:

***"Korun-korun, öz odumda yanırdım,***
***Öz odumu tək özümün sanırdım...***
***Qibləm! - deyib, Qarabağı anırdım -***
***Sən də gəlib duz çilədin yarama..."***

Ancaq şairin "Vətən səsləyir" şeri bizi tamam başqa ovqata kökləyir. Qələbə, zəfər ruhu ilə könlümüzü ilhamla qanadlandırır:

***"Atlanmış Ağatlıdı,***
***Qaranlığı yarır O!***
***Yeldən də qanadlıdı -***
***Şuşamıza varır O!"***

Bu şeirdəki əhval, zəfər qələbəmizin müjdəsini gətirirmiş kimi oxucu könlünün bütün yanğılarını söndürür və oxucunun ürəyinə təskinlik məlhəmi səpir.

Otuz il doğma Qarabağa, onun ən dilbər guşələrindən olan gözəllər gözəli Tuğ kəndinə bütün varlığı və ruhu ilə həsrət çırağının közərən işığından boylanan, daim həsrətlə od tutub yanan Əbülfət Mədədoğlu qələbə sevincini öz poetik duyğuları ilə "Bu günü" şeirində belə hayqırır:

***"İllə, ayla gözlədim***
***Günlə, sayla gözlədim...***
***Qışla, yayla gözlədim -***
***Bu günü!***

***Dərd-ələmlə gözlədim,***
***Vaxt - sələmlə gözlədin...***
***Mərd qələmlə gözlədim -***
***Bu günü!***

***Para yurdla gözlədim,***
***Son umudla gözlədim!***
***Bir Boz Qurdla gözlədim -***
***Bu günü!"...***

Göründüyü kimi, başqa şairlərimiz qədər Əbülfət Mədədtoğlu üçün də Vətən mövzusu bütün mövzuların fövqünə yüksəlir. Otuz il hər gün gözləri önündə bir xəyal olaraq Tuğdakı od tutub yanan kənd evinin ilğım mənzərəsinin tablosundakı cərəyan edən ürəkyaxıcı yanğı ilə yaşayan, acılarla dolu dərd daşıyan Əbülfət Mədədoğlu Vətən haqqında yanğısız və sızqısız danışa bilmir. Illah da, dediyimiz kimi, göz və qan yaddaşının bir guşəsində daim od tutub yanan, yandıqca inləyən, sızlayan ata evinin alovunu gözləri ilə seyr etmiş bir şair üçün bu dərd ən ağır yüklə dolu, nüvə partlayışı qədər çılğın bir dərddir. Məhz ona görə də Əbülfət müəllimin şeirlərində bu mövzu çox ağrılı şəkildə doğulur. Bu ağrılarla yaşayan şair üçün Vətən uğrunda şəhid gedən doğmalarımızın taleyi, onun şeirlərində öz təcəssümünü ürəkparçalayan şəkildə, ən ağrılı formada tapır. Təkcə şəhid övladlarımızın deyil, onların döyüşə uğurlayan və şəhidlik zirvəsinə qalxdıqları yalnız göz yaşları ilə təsəlliyə çevirən qəhrəman analarımızın da ağrı-acılarını şair öz kövrək duyğuları və ürək yanğısı ilə nəzmə çəkir."Şəhid anası" şeirində olduğu kimi:

***"Yuxusu pərən düşüb,***
***Fikirləri yumaqdı...***
***İşi göz yaşı ilə -***
***Çöhrəsini yumaqdı -***
***Şəhid anasının..."...***

Övlad itkisi qədər can yandıran daha dəhşətli bir alov ola bilməz. Bir xalq , bir millət üçün Vətən itkisi nə deməkdirsə, bir ana üçün də övlad itkisi məhz eyni mahiyyətə malikdir. Dərdi, dərddən daha əsvəl sandığı Vətən məvhumuna qurban verən Şəhid anasının dözüm duyğularını "göz yaşı ilə - çöhrəsini yumaq..."la təskinlik zirvəsinə yüksəldən Mədətoğlu, Azərbaycan anasının monumental obrazını ədəbi mühitin fövqünə yüksəldir və onu poetik tabloya çevirir. "Torpaq" şeiri ilə isə şair, bir başqa poetik tablo rəsm edir və bu poetik tabloda torpaq eşqi, torpaq ehtirası - torpağa ümummilli sevginin təzahürünə çevrilir. "Torpaq uğrunda ölən varsa, Vətəndir" fəlsəfəsi, Mədətoğlunun "Bax, elə bu yolla özünə dönür - Şəhid qanı ilə suvarılmış torpaq!" poetik təcəssümündə özünü tam şəkildə isbat edir:

***"Od kimidi torpaq -***
***xışmalasam***
***ovcum yanacaq...***
***Və sonra da***
***barmaqlarımın***
***ucundan***
***pardaxlanmış***
***qan damacaq....***

***Od kimidi torpaq -***
***əl uzadıb,***
***üz sürtüb,***
***öpməzdən öncə***
***özün də bax -***
***gör necə titrəyir, əsir...***
***Ürək -***
***sanki, yarpaqdı, yarpaq...***
***Bax, elə***
***bu yolla***
***özünə dönür -***
***Şəhid qanı ilə***
***suvarılmış torpaq!"***

Bu cür yüksək bədii keyfiyyətə malik könül oxşayan şeirləri ilə baş-başa qaldıqca, şairin poeziyasına dalıb gedirsən və ayrılmaq istəmirsən...

Əlbəttə ki, Əbülfət müəllimin şeirləri və yaradıcılığının digər tərəfləri haqqında çox geniş və əhatəli söhbət açmaq mümkündür. Onun çoxşaxəli yaradıcılıq arealı buna imkan verir. Mən sadəcə, nə zamandır içimdə boy vermiş və vərəqlər üzərinə tökülməyə tələsən duyğularımı, hisslərimi şeirsayağı şəkildə ifadə etməyə çalışdım və hesab edirəm ki, bu kiçik yazı ilə yalnız şair dostumun yaradıcılığının tək bir cəhətinə ekskurs etdim, şeirlərinin bəzi nümunələri ilə dərdləşdim, söhbətləşdim və bəzi yarpaqları haqqında düşüncələrimi əziz oxucularla bölüşdüm.

Oxuduqca görürsən ki, Əbülfət müəllimin şeirləri dərin bir ümmandır və o ümmana baş vurmağına dəyər. Əziz oxucu, sizləri də o ümmana baş vurmağa dəvət edirəm. O ümmanda çox mətləblərin şahidi olacaqsınız, görəcəksiniz ki, vətənpərvər ruhu, sakit təbiəti, zəngin poetik təxəyyülü, dostcanlığı, istiqanlılığı, sözübütövlüyü və məhz bu kimi insana xas olan mühüm cəhətləri ilə şair cəmiyyətdə öz sanballı yerini tutmuş və rəğbət qazanmış bir sənətkardır.

Bu kiçik yazı ilə qələm dostum, tanınmış şair Əbülfət Mədətoğlunu əziz oxucu ilə mənim baxış bucağımda görüş astanasına gətirdiyimdən məmnunluq hissi keçirir, deməK istəyirəm ki, Əbülfət Mədətoğlu məhz həm sadalanan xüsusiyyətləri, həm də yazdığı poetik lövhələriinin məzmunu, fikir tutumunun səviyyəsi, poetik səciyyəsi və ümumən yaradıcılıq kredosu ilə öz sanballı obrazını yarada bilmişdir. Bu obraz Azərbaycan şairinin mükəmməl obrazıdır.

**Əziz şair qardaşım, gün o gün olsun ki, səninlə Tuğda, illərdir həsrətini çəkdiyin ata evində görüşmək nəsibimiz olsun! Vətən eşqi ilə alovlanan şeirlərini, öz dilindən məhz ata evinin ocağı başında eşidək! Artıq müzəffər ordumuz bu həsrətə son qoymaq üçün bizə zəfər qələbəsi nəsib etmişdir. O gün çox yaxındadır! Tuğ üçün çırpınan, Azərbaycan sevdası ilə döyünən şair ürəyinə eşq olsun!**



*Emin Piri*

# Xınayaxdı imza günləri

İmza günləri kütləvi deyil, çayxana dostlarının bir masa ətrafına toplaşıb domino oynamasına bənzəyir.

Xınayaxdı, sünnət toyu, yoxsa kitab təqdimatı?! Tam olaraq nəyə bənzədiyi, anlamının nə olduğunu söyləməkdə çətinlik çəkirəm.

Bu gün Azərbaycan reallığında baş tutan imza günləri, kitab təqdimatları xeyir-şər işlərinə daha çox bənzəyir.

Toyları xatırladan, toya pul yazdırmağın əvəzini çıxmaq kimi görünən imza günlərinə yazıçıların bu cür yanaşması təəssüfləndiricidir.

"O mənim kitab təqdimatıma gəlmişdi, gərək, mütləq mən də gedim", " "Filankəs imza günümdə məni tərifləmişdi, mən də tərifləyim", "kitabım haqqında xoş sözlər demişdi, nə olsun, kitabını oxumamışam, mən də tərifləməliyəm, kişinin yanında borclu qala bilmərəm. Sonra üzünə baxa bilmərəm, adama nə deyərlər" kimi fikirlərlə gedilən, keçirilən kitab təqdimatları nəyəsə, kimlərəsə xidmət edir. Amma o nəyinsə, kimlərinsə dəqiq ədəbiyyat olmadığının fərqindəyəm.

Əslində oxucu qıtlığı yaşandığı, kitab bazarının öldüyü zamanda yazarların bir-birinin oxucusuna çevrilməsi, ən azından getməklə həmin müəllifə dəstək olmaq istəyi başa düşülən, bəlkə də vacibdir. Amma bu dəstəyi bayağılığa çevirmək sonradan Azərbaycan ədəbiyyatına daha böyük travma vurur.

Bəli, budur kitabın vağzalısı çalındı,tamada bəh-bəhlə təqdim etdi, müəllifin mənəvi atası, mənəvi anası, kimlərsə irəli gedib mənəvi arvadınına söz verəcək. Pafoslu çıxışlar, adamı təngə gətirən uzun-uzadı xatirələr. Hərdən adama elə gəlir ki, bu təqdimatlarda kitabın kirvəsi çatışmır.

Bizdə kitab təqdimatlarının ikinci hissəsi daha çox ədəbiyyata xidmət edir, çünki insanlar heç olmasa içəndə bir qədər səmimi olur...

Azərbaycan yazıçısı az qala bütün oxucularını tanıyır, kimlərsə bütün oxucularıyla bir məclisdə yeyib-içib, kimisə oxucusunun bəlkə də qaynanasının ad gününə kimi bilir. Elə bu, oxucu arsenalının nə qədər kiçik olduğunu göstərir.

Zatən 5-10 oxusu olan bir yazarın çiyinlərinə bütün problemləri yükləmək istəməzdim. Bu, tək onun yox, həm də cəmiyyətin problemidir. Amma kitaba, imza günlərinə toy, ad günü kimi yanaşdıqca, daha şit, daha çox bayağılaşmanın şahidi olacağıq.

Sovet dövrü kitab sahəsini nə qədər inkişaf etdirsə də, həmin həcmdə də düşüncəyə böyük zərbə vurdu. Hər kəsin içində, hər oxucunun düşüncələrində "mənim də kitabım çıxıb" kimi arzuyla özünü göstərmək, kimsədən geri qalmadığını nümayiş etdirmək istəyi yatır. Sovet ənənəsinin gətirdiyi kitab təqdimatları, pafoslu sözlər, bədii mətnə, həmin kitaba aidiyyatı olmayan söhbətlər və.s. cəmiyyətdə mənfi örnəkdir. Kitabı çıxan, imza günü olan hər yazara eyni yanaşılması, eyniləşdirilməsi Azərbaycan oxusunun itirilməsi, yazara olan hörməti heçə endirir. Düzdü, burada siyasi təsirlər də böyük rol oynayır. Amma həmin zərbəni vuranların əsasını ədəbi mühitdə duranlar təşkil edir. Ciddi və qeyri-ciddi hər yazar haqqında eyni sözlərin deyilməsi, yazılması sonda düşüdüyümüz bu durumu yaratdı.

Bir yazar ixtisası, iş yeri kimi "şairəm" deyirsə artıq hansı faciənin içində olduğumuzu söyləməyə ehtiyac yoxdur.

"Azərbaycanda ciddi yazıçı, istedadlı şair yoxdur, ona görə də dünya ədəbiyyatı oxuyuram" deyən oxucuyla, "Azərbaycan oxucusunun düşüncəsi geri qalıb" deyən yazar arasında elə ciddi fərq yoxdur. Hər biri özünün mənəvi uğursuzluğunu bir-birinin üzərinə atmağa çalışan və yaxud özünü hər kəsdən yuxarı göstərməyə çalışan məxluqlardır.

Azərbaycan şairini bəyənməyib dünya ədəbiyyatından ağız dolusu danışanların da sonradan serial xarakterli ədəbiyyat azarkeşi olduğu və yaxud bəyənmədiyi yerli yazarlardan iki, üç qat zəif yazarların oxucusu olduğu ortaya çıxır.

Müşahidə etmisinizsə bizdə çox vaxt kitab maarifçiliyi ilə məşğul olanlar, özünü cəmiyyətin ziyalısı kimi göstərməyə çalışanlar kitabdan çox özünün reklamı ilə məşğuldur. Özünə ziyalı, tərəqqipərvər, maarifçi imzası geyindirmək üçün dəridən qabıqdan çıxır. Şou-biznes aləmində müğənnilərin öz xarici maşınlarını reklam etməsi kimi, xaricdən gətirdiyi kitab haqqında günlərlə paylaşımlar edir, o kitabı necə əldə etdiyi haqqında müsahibələr verir, o kitabı necə oxuyacağı haqqında köşələr yazır. Bütün bunlar kitab, cəmiyyət naminə deyil, sırf özünə yuxarıda yer tapmaq istəyindən başqa şey deyildir. Bu insanlar aldıqları kitabların onların imzasına xeyir gətirməsi üçün çalışdığı vaxt qədər heç o kitabı oxumağa sərf etmir.

Çox yazıçı "oxucu yoxdur" kimi fikirlərə, mülahizələrə öz yaradıcılığından daha çox vaxt sərf edir. Enerjisini belə yoxluğa yönəldən yazıçı sonda özü yoxluğa yuvarlanır.

Tez-tez rast gəlirəm. Hər kəs metroda, avtobusda kitab oxduğunu qeyd edir. Və kitab oxuyarkən insanların onlara qəribə yadelli kimi baxmasından bəhs edir. Hətta 5 dəqiqə kitab oxuduqlarına görə, insanların baxışlarından saatlarla material hazırlayırlar. Dəfələrlə bunu yoxlamaq istədim amma deyilən olmadı. Çünki kitab oxuyarkən sənin insanların nə etməsindən, anbaan haralara baxdığından nə xəbərin ola bilərki? Demək ki, sən kitab oxuyarkən başqaları sənə deyil, sən insanları izləməklə onlara narahatçılıq yaradırsan. Bunun özü də məhz təhtəlşüur özünü cəmiyyətdən yüksək görmək, "bu cəmiyyət mənə uyğun deyil" fikrini yeritmək və ya ən azından daxildəki boşluqdan xilas olmaq cəhdidir.

Ümumiyyətlə, bizdə hələ də təqdimat, kitab müzakirəsinin və imza gününün nə olduğunu bilmirlər, ya da bir-biriylə qarışdırırlar. Daha çoxsa üçünün birində keçirildiyi "maccofe" kitab günlərinin şahidi oluruq.

Cəmiyyətimizi bəzi "mental" dəyərlər geri saldığı kimi daha çox sovet ənənəsinin duyulduğu bugünkü kitab günləri bizi irəli yox, geri salıraq dünya ədəbiyyatının uğurlarından məhrum edir.

# ÇEVRİLİŞ 6 AVQUSTA TƏYİN EDİLİB

## Artıq atəşlər açılmağa başlayıb

**Ştatlarda atəş açmaq həmişə sevilib, lakin 2021-ci ilin yayı daha məhsuldar olub. Hətta yaşlı insanlarda bu qədərini gördüklərini xatırlamırlar. Vikipediyada bununla bağlı " qətl təqvimi" adlı səhifədə açılıb. İlin əvvəlindən başlayaraq, demək olar ki, hər gün bu səhifə yenilənir.**

Götürək 19 iyun tarixini - bu gün Ştatlarda quldarlıq gününün ləğv olunması günü kimi qeyd olunur. Həmin gün bayram "geniş" qeyd edilib: Alyaskanın Ankorudje şəhərində bir nəfər öldürülüb, 4 nəfər yaralanıb, Nyu-Arkda ( Nyu-Cersi) 4 yaralı, Kaliforniya ştatı Öklende - bir nəfər qətlə ytirilib, 6 yaralı, Luizana ştatı Baton-Ruje- iki nəfər öldürülüb, 4 nəfər yaralanıb. Bu yalnız odlu silahla törədilən qətillərdi, soyuq silahla qətlə yetirilənlər hesaba alınmayıb.



Rəsmi məlumatlara görə, ABŞ -da zorakılıq cinayətləri ötən ilə nisbbətdə üç dəfə artıb. Lakin bu da kriminalın törətdikləri əsil cinayətləri tam əks etdirmir. Təəcüblüdə olsa, Trampın tərəfdarlarının məskunlaşdığı , "Paslanmış kəmər" sayılan ərazidə nisbi sakitlikdir. Şəhərlərdə sanki, antiutopmiya hökm sürür.

Məsələn, Atalantada qətllərin sayı bir dəfə yarım, Portlendə isə altı dəfə artıb. Amerikanlar bu bölgələrdə bir-birlərini xəbərdar edirlər ki, "Əgər həyatınız sizin üçün qiymətlidirsə, "göy şəhərlərə getməyin". "Göy" sözü burada seksual orentasiyalı insanlara aid deyil, ABŞ-ın "Demokratlar" partiyadının idarə etdikləri şəhərlər mənasında işlədilir.

Vəziyyət o hala çatıb ki, hətta prezident Co Bayden də xüsusi müraciətində, koronavirus pandemiyası dövründə cinayətlərin artmasında bu şəhərlərin rəhbərlərini günahlandırıb. O lokdaundan çıxmaqla atəşin artdığını bildirib. Prezident qeyri-leqal silah satanlarıda hədələməyi unutmayıb. Baydenin çıxışı elektrotatı tərəfindən skepsis qarşılansada, demokratların tərəfdarları hakim dairəni qətiyyətsizlikdə günahlandırır. Onlar əsasən odlu silaha malik olmaqla bağlı İkinci düzəlişin ləğv olunmasına etiraz edirlər.

Baydenin çıxışı göstərir ki, məhz Demokratik partiyanın rəhbərlik etdiyi "Göy" şəhərlərdə cinayət açıq şəkildə maliyələşdirilir və amerikan şəhərlərində cinayətlərin alovlanmasına gətirib çıxarır. Məhz "göy" şəhərlər və ştatlarda cinat hadisələri baş alıb gedir, polisin maliyələşdirilməsi azaldılır, cinayətkarlar barədə kütləvi şəkildə aministya tədbiq edilir və bu da banditlərdə toxunulmazlıq əminliyi yaradır. Demokratlar partiyasının əsas məqsədi öz yaraqlılarını qızışdırmaqla Tramp tərəfdarlarını güc tədbiq etməyə təhrik etməkdir. "Qaraların həyatı əhəmiyyət kəsb edir" şüarları ilə trampçılara evdə kimin "xozeyn" olduğunu nümayiş etdirərək qorxudmaqdır. Dempartiyaya yaxın təşkilatlar son günlər mətbuata təzə bir feyk məlumat ötürüblər. Feyk məlumata görə guya eks prezident Donald Tramp avqust ayında ölkədə hakimiyyəti ələ keçirməyə cəhd edəcək.

Buna səbəb Trampın yeni " 2024, yoxsa daha tez" sloqanı əsas götürülüb. Təbii ki, eks prezident bu sloqanı ilə çevriliş etməyi nəzərdə tutmur. O, prezident seçkilərinin hələ başa çatmadığını, oğurlanmış səslərin yenidən saylması məsələsinin davam etdirildiyini nəzərdə tutur. Tramp ümid edir ki, Ali Məhkəmə 2020-ci il prezident seçkilərinin nəticələrini ləğv edəcək.

KİV- lər isə bunu şişirdərək "Tramp putç hazırlayır" ( Vanity Fair jurnalı), "Bizdə hər şey Myanmedə olduğu kimi olacaq"- trampist fanatiklər prezident Trampın Ağ Evə dönəcəyinə inanırlar ( Rolling Stone jurnalı), "Myanmi stilində putç" (CNN) və s. kimi məqalələrlə aranı daha da qızışdırırlar. Vəziyyət o hala gəlib ki, hətta "Vaşinqton Post" kimi nüfuzlu qəzet də "6 avqusdan, 6 yanvaradək" başlıqlı yazı ilə çıxış edib.

Bir sözlə, əsas auditoriya Qebbels uydurmalarını həyata keçirməklə, miflər yaradaraq vətəndaşların nəbzini yoxlayırlar.

**Beləliklə 6 avqustda Dempartiyanın geniş miqyaslı təxribatı gözlənilir. Onların bölükləri Tramp tərəfdarlarına qarşı təxtibatlara hazırlaşır. Onların adamları trampçı qiyamçılar kimi hərəkət edəcək və Dempartiya bu hərəkətləri nümayiş etdirməklə dünyaya "əsl mahiyyəti" göstərəcəklər.**

**Rus dilindən tərcümə:**
**Rüstəm Hacıyev**

# *Çoxmənzilli binalarda qaz sayğacları pulsuz quraşdırılacaq*

**Məişət istehlakçıları üçün qaz sayğacları pulsuz quraşdırılacaq.**

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən Adalet.az-a verilən məlumata görə, qurum yeni inşa olunan çoxmənzilli binalarda sayğacların quraşdırılması zamanı sakinlərdən sayğacın dəyərinin tələb olunmasına dair müraciətləri araşdırıb.

Araşdırma zamanı məlum olub ki, mənzil tikinti kooperativi sayğacları enerji təchizatı ilə məşğul olan qurumlardan öz hesablarına aldıqlarını əsas gətirərək sakinlərdən sayğacların dəyərini tələb edir.

Qeyd edilən məsələlərin müzakirəsi məqsədilə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində enerji təchizatı ilə məşğul olan qurumların nümayəndələri ilə görüş keçirib. Görüş zamanı mənzil-tikinti kooperativləri tərəfindən inşa edilən çoxmənzilli yaşayış binalarına quraşdırılan qaz sayğaclarının dəyərinin sakinlərdən tələb edilməsi hallarına yol verilməməsinin və bu sahədə mövcud qanunvericiliyin tələblərinə riayət edilməsinin zəruriliyi vurğulanıb.

**Qeyri-müəyyənliyin aradan qaldırılması məqsədilə Dövlət Xidmətinin tövsiyəsinə uyğun olaraq, bu ilin 1 iyul tarixindən mənzil-tikinti kooperativlərinə verilən texniki şərtlərdə sakinlərin məişətdə istehlak etdikləri qaz sayğaclarının pulsuz quraşdırılması tələbi qeyd olunacaq.**

# Beyləqan Rayonu Səhiyyə Sistemi Koronavirusla Mübarizədə

***Butun rayonlarımız kimi Beyləqan rayonu da sehiyyə sisteminin inkişaf prosesinə güclü önəm verir. Rayonun səhiyyə ocaqlari yeni və müasir avadanlıqlarla təchiz olunur. Bu sahədə dovlətin diqqət və qayğısını öz üzərlərində hiss edirlər.***

***Hal-hazırda bütün dünyanı,o cümlədən də ölkəmizi cənginə alan pandemiya dalğası Beyləqan rayonundan da yan keçmədi.***

***Virusun hal-hazırkı durumu ilə bağlı üz tutduq Azərbaycan Respublikasi Səhiyyə Nazirliyi Beyləqan Rayon Merkezi Xəstəxanasına.***

***Burada suallarımızın bir qismini xəstəxananın infeksion şöbəsinin müdiri Əsədova Təranə xanim cavablandırdı.***

**- Rayon üzrə bugünə qədər neçə nəfər koronavirusa yoluxub?**

-Bugünə qədər 2106 nəfər koronavirusa yoluxub.

**- Bu xəstəlikdən neçə nəfər sağalıb?**

-Bu xestelikdən 2104 nəfər sağalıb.

Hal-hazırda 2 nəfər aktiv xəstəmiz var.

**- Neçə nəfər məlum xəstəlikdən dünyasını dəyişib?**

-2020-ci ildə 50 nəfər,2021-ci ilin ilk 6 ayında isə 16 nəfər dünyasınını dəyişib.

***Digər suallarımı isə xəstəxananın pediatr həkimi Salahova Ofeliya Əmir qızı cavablandırdı.***

**- Rayonda vaksinasiya prosesi indiki dovrdə aparılırmı?**

-Beli aparılır.

**- Bugünə qədər hansı sayda əhali vaksinasiya edilib?**

- 35100 nəfərdə aparılıb. Qalan əhali növbədədir.

**- Vaksin vurulan şəxslərdə hər hansı əks-təsir qeyde alınıbmı,alınıbsa hansı şəkildə büruzə verib?**



-Iynə yerində ağrı,başgicəllənməsi olur. Bu,normaldır. Bir xəstəmizde ciddi əks-təsir qeydə alınıb. Dərhal müdaxilə olunub,səhhəti stabilləşib.

**- Vaksinasiya prosesində vaksinin hansı növlərindən istifadə olunur?**

-Koronovak ve sinovac növlərindən istifadə olunur.

**- Doktor,bu dərman preparatları hansı ölkələrdən idxal olunur?**

- Cin Xalq Respublikasından və Türkiyə dövlətindən idxal olunur.

**- Əhali arasında vaksinləşmədən sonra passportlaşma aparılırmı?**

-Bəli aparılır. Birinci müayinədən sonra passport açılır. Ilk doza yazılır,ikinci dozanın tarixi qoyulur.

Ikinci doza vurulduqdan sonra məsul tibb işçisinin adı yazılır və baş həkimin möhrü qoyulur. 24.06.2021-ci il tarixinə görə deyə bilərəm ki, əhalinin 30%-i passportaşdırılıb.

***Burada apardığım müşahidələr,verdiyim suallara aldığım cavablardan belə qənaətə gəlmək olar ki, Beyləqan rayon səhiyyə sistemi normal qaydada əhalinin xidmətində-dir ve tibb personalı səylə çalışır.***

**Nevai Bayram oğlu**

# İmişli təhsili inkişaf yolunda

***Təhsil millətin gələcəyidir.Bu sozləri ulu öndər Heydər Əliyev demişdir. Bəli bu dahi insanin dediyi çox deyerli kelmeler her zaman aktuallığını qorumaqdadir.Təhsilə önəm verməyən millət məhvə məhkumdur.Ölke başçımız İlham Əliyevin təhsilə göstərdiyi xususi diqqət ve qayğı olkəmizin butun regionlarinda inkişafa səbəb olmuşdur.Yeni ve muasir dövrun tələblərinə cavab verən məktəb binaları və ən muasir avadanlıqlarla təminatı muəllimlərin işə qəbulu prosesində ən ciddi şəkildə keçirilən imtahanları və faktları misal gətirmək olar.Ölkəmiz uçun savadlı kadrlarin yetişdirilməsində(təhsillə bağlı)xarici ölkələrlə bağlanan muqavilələr əsasında kadr hazırlığına da geniş ustunluk verilir.Ölkemizdə təhsilə önəm verən ve daim yenilikləri izləyən ve tətbiq edən rayonlarımızdan biri də İmişli rayonudur.İmişlinin təhsillə bağlı vəziyyətini öyrənmək uçun İmişli Rayon Təhsil şöbəsinə uz tutduq.Burada bizi qarşılayan RTŞ-nın mudiri Ələmdar Abbas oğlu Quluyev cənabları oldu.Ona unvanlanan suallarımızı səmimi cavablandırdı.***

**- Hal-hazırda İmişli rayonunda təhsilin səviyyəsi necədir.**

- Bildirmək istəyirəm ki,ötən illərə nisbətən 2020-ci ildə İmişli rayonu uzrə təhsilin səviyyəsi xeyli yuksəlmişdir.Muqayisə uçun deyə bilərəm ki, 2019-cu illə muqayisədə 2020-ci ildə musbət dinamika muşahidə olunur.

Belə ki, 2020-ci ildə əvvəlki illə muqayisədə rayonda iki pillə musbət dinamika olub.Lakin onu da qeyd etmək lazimdir ki, 2021-ci il tedris ilinin yekunlarına görə butun respublikada olduğu kimi pandemiya ilə əlaqədar 2020-ci illə muqayisədə fənlər uzrə umumi orta bal göstəricisinə görə 7.9 bal aşağı olmuşdur.




Məlumdur ki,pandemiya dalğası İmişli rayonundan da yan keçmədi.Bu, İmişli rayonu təhsil sistemində hansı problemlər yaratdı.Pandemiyanin dunya təhsil sisteminə göstərdiyi çətinliklər respublikamızdan eləcə də rayonumuzdan yan otməmişdir.Tədris prosesində ən xoşagəlməz cəhət dərslərin əyani tədrisin dayandırılması və onlayn tədrisə keçilməsi oldu.

Təbii ki, ucqar kəndlərimizdə internetə çıxışda problemlərin olması,şagirdlərin İKT avadanlıqları ilə təmin olunmaması ilə bağlı problemlər vardır.Bu zaman təhsil nazirliyinin təşkil etdiyi teledərslər muəllim və şagirdlərin köməyinə çatdı.

**- Şagirdlərin onlayn dərslərdə göstərdiyi fəallıq sizi qane etdimi?**

- Eyni zamanda qeyd etmək lazımdır ki, şagirdlərin böyuk bir əksəriyyəti onlayn dərslərdə fəallıq göstərdilər.Umumiyyətlə,onlayn dərslər əyani dəsləri əvəz edə bilməz.Buna görə də mən deməzdim ki,virtual dərslər qaneedicidir.

**- Hal-hazırda rayon ərazisində təhsilə yararsız və təmirsiz məktəb çoxdurmu?Məsələn,təmirli məktəblər,komputer otaqları və digər muasir avadanlıqlar?**

- Son illər Azərbaycan dövlətinin apardığı iqtisadi siyasətin nəticəsində butun sahələrdə olduğu kimi məktəblərin madditexniki bazası xeyli yaxşılaşmışdır.Hazırda İmişli rayonunda 3 orta məktəbin yeni bnasının tikintisi işləri aparılır.Belə ki Axıcanlı kənd tam orta məktəbi uçun 132 yerlik,Məmmədli kənd tam orta məktəbi uçun 96 yerlik modul tipli məktəb binası quraşdırılır.7 nömrəli məktəbin 800 yerlik yeni binasının tikintisinə başlanılıb.Hər 3 məktəbin 2021-2022-ci tədris ilində istifadəyə verilməsi nəzərdə tutulur.Bununla belə rayonumuzda Kurdmahmudlu,Qulubəyli və Qaravəlli kənd tam orta məktəbləri uçun yeni bina tikintisinə ehtiyac var.Son vaxtlar məktəblərimizin maddi-texniki bazasının yenilənməsi istiqamətində dövlətimiz böyuk işlər görur. 6, 8 nömrəli və Xəlfəli kənd tam orta kəndlərinin binalarının cari təmir işlərinin aparılması işləri nəzərdə tutulur.

**- Elə ailələr var ki, onların internetə qoşulmaq cəhətdən imkanı yoxdur. Sözugedən şagirdlərin tədrisi necə aparılır?**

- Bu sıradan olan ailələlərin övladları əsasən teledərslər və vatsapp qrupları vasitəsilə aparılır.

**- Elə muəllimlərimiz də vardır ki,şagirdlərlə dərsləri bəzi zəngli proqramlar vasitəsilə etmişdirlər.Sizin məktəblərin muəllimlərindən bu usuldan istifadə edən oldumu?**

- Umumiyyətlə,pandemiya dövrundə tədrisin onlayn olaraq təşkili uçun butun mumkun vasitə və usullardan istifadə edilmişdir.

**Nəvai Bayram oğlu**

***Bakcell abunəçiləri "Vətəndaş" tipli "Asan İmza" xidmətindən pulsuz istifadə edəcək***

***Bakcell abunəçiləri 1 iyul 2021-ci il tarixindən başlayaraq "Vətəndaş" tipli "Asan İmza" xidməti üçün aylıq abunə haqqını ödəməyəcəklər.***

***Bu imkandan 20 iyun 2020-ci il tarixindən xidmətə qoşulan vətəndaşlarla yanaşı, qeyd olunan xidməti 1 iyul 2021-ci il tarixindən əldə edən bütün vətəndaşlar yararlana biləcəklər. Xatırladaq ki, "Vətəndaş" tipli "Asan İmza" xidməti üçün aylıq abunə haqqı, 2.50 AZN təşkil edirdi.***

***Xüsusilə vurğulanmalıdır ki, "Asan İmza" xidmətini mövcud olan mobil nömrədə aktivləşdirmək olar və yeni nömrənin əldə edilməsinə ehtiyac yoxdur. "Asan İmza" xidmətinin aktivləşdiyi nömrədən istifadə etdikdə, həmin nömrəyə dövlət qurumları və digər elektron xidmət təchizatçılarından birbaşa olaraq, vacib ismarıcları qəbul etmək mümkün olacaq.***

***Bu xidməti aktivləşdirmək üçün abunəçilər şəxsiyyət vəsiqəsi ilə Bakcell Müştəri Xidmətləri Mərkəzlərindən birinə müraciət etməli və burada "Asan İmza" xidmətini aktivləşdirərək "Asan İmza" SİM kartını əldə etməlidirlər. Daha sonra isə SİM kartda Asan İmza sertifikatlarını aktivləşdirmək üçün Dövlət Vergi Xidmətinin Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət olunmalıdır.***

***"Asan İmza" xidmətindən fiziki şəxslər (vətəndaşlar), hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, dövlət və özünüidarəetmə orqanlarının nümayəndələri istifadə edə bilərlər.***

***Qeyd edək ki, "Vətəndaş" tipli "Asan İmza" xidmətini tamamilə ödənişsiz əsaslarla əldə edən abunəçilər Azərbaycanda dövlət və özəl qurumlar tərəfindən təqdim olunan 1000-dən çox elektron xidmətdən yararlanmaq imkanına malikdirlər.***

**Bakcell haqqında**

***Azərbaycanın İlk Mobil Operatoru Bakcell şirkəti müasir mobil telekommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl mobil internet xidməti göstərir. Bakcell və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.bakcell.com/az/news (və ya İngilis dili üçün www.bakcell.com/en/news) səhifəsinə daxil olun. Qeyri-Bakcell abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə "Bakcell"in məhsul və xidmətləri haqqında məlumat əldə edə bilərlər.***

# Cənnətin əbədi sakini Baxış Əsədov: Yurdunu sevən və sevdirən şəhidin ad günüdür

**Ağdam rayonunun Xındırıstan kənd inzibati ərazi dairəsində bir kənd var, adı Birinci Yüzbaşılı! Qarabağ düzündədir. Keçmışdə Yüzbaşılı adlanan bu kənddən XIX əsrdə başqa bir yaşayış məntəqəsi (İkinci Yüzbaşılı) ayrıldıqdan sonra kənd Birinci Yüzbaşılı adlandırılıb.**

Bu məlumat yəqin ki. çox soydaşımıza tanış deyil. Çoxları indiyə qədər Qarabağda- Ağdamda belə bir kəndin varlığından heç xəbəri də yox idi. Bəli bu ötən ilin sentyabrın 28-nə qədər beləydi. İndi bu kəndin balası şəhid Baxış Əsədova Birinci Yüzbaşılı kəndi bütün Azərbacana tanışdı, əzizdi.

### *Vətən sənə oğul dedi, nə dərdin...?*

2020-ci ilin noyabrın 10- da xalqımızın taleyində böyük bir dönüş oldu. Dövlətimiz 44 günlük əks-hücum əməliyyatlarını müvəffəqiyyətlə başa vurdu. Vətən müharibəsi bizim böyük zəfərimizlə bitdi. Zəfərimizə mənəvi məna verən isə 28 il işğal altında olan torpaqlarımızı, xüsusilə siyasi və strateji əhəmiyyət daşıyan Şuşa şəhərinin hərbi döyüşlərlə azad edilməsi oldu. Beləliklə, Azərbaycan son 2 əsrlik tarixində ilk dəfədir ki, müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Azərbaycan Ordusunun əldə etdiyi tarixi zəfər dövlət və xalqın mənafeyi baxımından xüsusi əhəmiyyətə malikdir. Uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi ilk növbədə Azərbaycan xalqının özünə inamını qaytardı. Bu inam isə can bahasına , torpağa qarışan minlərlə igidimizin qanı bahasına qaytarıldı. Boş yerə demirlər ki, torpağı vətən edən şəhid qanıdır. O şəhid qanının hesabına həm işğaldakı torpaqlarımız azad olub, müqəddəsləşib, həm də şəhidimizn doğulub böyüdüyü yurd-yuvası, həm də son mənzili yerləşən el-obası müqəddəsləşib.

### *Baxış Əsədov zirvəsi*

Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Əsədov Baxış Sahib oğlu da yurdunu müqəddəsləşdirən, doğma Yüzbaşılı kəndinin adını Azərbaycanın hər bucağında məşhur edən igid oğullardandı.

Bu gün şəhidliyi ilə bütöv bir xalqın qəlbində, yaddaşında yaşayacaq şəhid Baxışın doğum günüdür.

***1999-cu ilin bu günündə anadan olan Əsədov Baxış Sahib oğlu. Ağdam rayonu Birinci Yüzbaşlı kəndində də orta məktəbi başa vurub. Azərbaycan Ordusunda həqiqi hərbi xidməti Naxçıvam MR da keçib. Əsgərlik yoldaşı - onunla birlikdə bir il 5 ay birlikdə xidmət göstərən, Ağdamın Orta Qərvənd kəndindən olan Şəhriyar Zeynalovla söhbətimizdə o bildirdi ki, Baxış sakit təbiətli, əxlaqlı eyni zamanda vətənpərvər oğlan idi:" O başqaları kimi hərbi hissədə qalmaq istəmirdi. Həmişə çalışırdı ön xətdə olsun. Culfada öz istəyi ilə ön xətdə - sərhəd mövqelərində qulluq edirdi.Təhlükə onun üçün heç nə ifadə etmirdi" .***



Bəlkə də ruhundakı qorxmazlıq və cəsarət onu yenidən ordu sıralarında olmağa vadar etdi. Həqiqi hərbi xidməti başa vurduqdan sonra Silahlı Qüvvələrdə müddətdən artıq həqiqi hərbi xidmətə ( MAXE) könüllü daxil oldu.

Dostu Baxışı itirəndən sonra uzun müddət özünə gələ bilməyən həmkəndlisi Samir Vəliyevlə söhbətimiz kədərli notlarla başladı. Samirin ilk sözü o oldu ki, Baxışın dəfnində də, yas mərasimində də iştirak edib:" Amma hələ də inana bilmirəm ki, o yoxdu.

Asta-asta. sakit-sakit danışmasını, heç vaxt heç kəsin xətrinə dəyməməsini, mübahisəli söhbətlərdə həmişə sülhün tərəfində durmasını və digər insani hərəkətlərini xatırladıqca gözlərim dolur. O, orduya yazılanda elə düşünürdüm ki, belə sülhsevər, sakit, mehriban biri heç vaxt kiməsə güllə ata bilməz! Amma onun dəfninə gəlmiş silahdaşları söylədi ki, Baxış nə ard-arası kəsilməyən mərmilərdən, nə də snayperə hədəf olmaqdan qətiyyən çəkinmirdi. İstiqamət üzrə irəliləmək qarşıdakı düşmən hədəfi yox etmək kimi vacib bir işi şəxsən özü etməyə can atırdı ki, dostlarına güllə dəyməsin, silahdaşları mərmilərə qurban getməsin! Mənim dostum Baxış belə oğul idi. Özündən başqa hamının qayğısına qalırdı. Atası Sahib əmiyə, anası Esmira xalaya necə təsəlli verəcəyimi də bilmirəm...Baxışgil 1 bacı, 3 qardaş idilər. Özündən böyüklər evlənmişdi. Amma Baxışın taleyinə subaylıq əbədi yazıldı.

Həyatımda ikici dəfədir eyni hissləri yaşayıram. Birinci dəfə 1993-cü ildə - I Qarabağ müharibəsində şəhid olan subay qardaşım Elşən Vəliyevin, bir də indi, dostum subay Baxış Əsədovun itkisini eyni sarsıntı ilə yaşayıram. Onların nə qədər arzuları, planları vardı... gələcəyə necə ümidlə baxırdılar...!? Tək təsəllim isə odur ki, onlar bu dövlətin, bu xalqın yolunda canlarını qurban verib və hər iki şəhidimiz cismani olaraq yaşamasa da xalqımız, dövlətimiz onları yaddaşında, qəlbində əbədi yaşadacaq. Bütün şəhidlərimizin ruhu şad olsun!"

Birinci Yüzbaşılı kəndinin övladı Baxış sentyabrın 28-də Qarabağın azadlığı uğrunda Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olaraq həm el obasının, həm doğma rayonunun fəxri, həmdə Azərbaycanın qürur mənbəyinə çevrildi.

Hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Baxış Əsədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Cənnətdəki doğum gününün mübarək nur üzlü şəhidimz Baxış Əsədov!**

**Əntiqə Rəşid**

# Yazıçı Elçin Hüseynbəyli Sankt Peterburq şəhərinin oxucuları ilə görüşüb

**İyunun 30-da Sankt Peterburqun (Rusiya) V.Mayakovski adına kitabxanasında yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi, AYB sədrinin müşaviri Elçin Hüseynbəyli ilə onlayn görüş keçirilib.**



Bu barədə məlumatı Sankt-Peterburqda yaşayan, layihənin Azərbaycan üzrə əlaqələndiricisi, şərqşünas-türkoloq, yazıçı Şahnaz Kamal verib.

"Oxuyan Piter" layihəsi çərçivəsində baş tutan tədbirə Rusiyanın müxtəlif şəhərlərindən, Türkiyə və Azərbaycandan da iştirakçılar qatılıb. Söhbət əsasən E.Hüseynbəylinin "Oxuyan Piter" müsabiqəsinə təqdim olunmuş "Şaqi komandora, ili 141 pervıy Don Juan" ("141-ci Don Juan") əsəri və yazıçının yaradıcılığı üzərində qurulub.

İki saata yaxın davam edən görüşdə yazıçı həyat və yaradıcılığı ilə bağlı oxucuların və ədəbiyyat mütəxəssislərinin çoxsaylı suallarına cavab verib.

Şəhnaz Kamal qeyd edib ki, bu, Nobel mükafatçılarının da qatıldığı layihə çərçivəsində ilk görüşdür.

Mustafa Çəmənli

# YAZIÇI ƏLİSƏFA AZAYEVƏ AÇIQ MƏKTUB



*Əzizim Əlisəfa bəy! Bu günlərdə "Azərbaycan yazıçıları" ensiklopedik kitabını vərəqləyəndə sənin 1 iyul 1951-ci ildə Kürdəmir rayonunun Qaramahmudlu kəndində anadan olduğunu bildim. 70 yaşın mübarək! İllər necə də quşqanadlıdır. Qısaca bioqrafiyana nəzər salanda gördüm ki, sən çox şərəfli bir ömür yaşamısan. Orta məktəbi bitirəndən sonra bir il kolxozda işləmisən, sonra M.Ə.Sabir adına Şamaxı pedaqoji məktəbində təhsil almısan, rayonunuzun Şüşün kəndində müəllimlik etmisən, Sovet ordusu sıralarında əsgəri xidmətdə olmusan. Bundan başqa "Bilik" cəmiyyətinin Kürdəmir rayon təşkilatının məsul katibi, rayon xalq deputatları soveti İcraiyyə komitəsi təşkilat sovetinin müdiri vəzifələrində çalışmısan.*



*Sən Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmisən və 1992-1996-cı illərdə BDU-nun konstitusiya hüququ üzrə aspiranturasında oxumusan. Uzun illər Ədliyyə orqanlarında çalışmısan. I dərəcəli Ədliyyə qulluqçususan.*

*Əzizim Əlisəfa bəy, səninlə şəxsi tanışlığımızdan 26 il keçir. Bu iyirmi altı il ərzində, az qala, bir-birin ardınca yazdığın "Sirli qətl", "Gözlənilməz hadisə", "Qürbət ellərdə", "Əsgər anası", "Prokuror qızı", "Sahildə qətil", "Qanlı gündəlik", "Günahsız məhbus", "Bayıl məhbusu", "Səadət sorağında" və s. roman və povestlərinin ədəbi redaktoru olmuşam.*

*Göz dəyməsin, sən olduqca məhsuldar yazıçısan. Bu da sənin ədəbi istedadınla yanaşı, çox həssas müşahidə qabiliyyətinin bəhrəsidir. Ədəbi ictimaiyyət, geniş oxucu kütləsi səni dedektiv yazıçı kimi tanıyır. Ancaq kitablarının əksərinin redaktoru kimi deyərdim ki, sən bu dedektiv janrda yazdığın povestlərinin hər birinin mövzusunu real həyatdan götürmüsən. Sən peşə etibarı ilə hüquqşünas olduğun üçün povestlərində, əsasən, orqan işçilərinin obrazını daha məhəbbətlə canlandırmısan. Təsadüfi deyildir ki, mən povestlərinə yazdığım annotasiyalarda səni oxuculara yazıçı-hüquqşünas kimi təqdim edirdim. Nümunə üçün həmin annotasiyalardan birini oxuculara təqdim etmək istəyirəm. Buyurun, tanış olun: "Tanınmış yazıçı-hüquqşünas Əlisəfa Azayevin detektiv ruhda yazdığı "Ölüm qorxusu" povestində cəmiyyətimizdəki neqativ hallar, ələyrilik edən, ancaq yüksək vəzifə sahibləri qarşısında yaltaqlanan, hər cür sifətə düşən insanlar ifşa edilir. Bununla yanaşı, povestdə haqq-ədalət nəticədə öz yerini tapır, necə deyərlər, düz əyrini kəsir. Mərd və namuslu insanlar qalib gəlirlər".*

*Əzizim Əlisəfa, şahidəm ki, oxucular sənin mövzusunu həyatdan götürdüyün bu dedektiv ruhlu povestlərini necə həvəslə oxuyurdular. Əldən-ələ keçib oxunan və üz qabığının rəngi getmiş kitablarını nümunə üçün mənə göstərəndə keçirtdiyin fərəh hissini indi də unutmamışam!*

*Əziz və unudulmaz 70 yaşlı həmkarım, sənin redaktoru olduğum roman və povestlərinin motivlərini, ədəbi qəhrəmanlarını bir daha xəyalımdan keçirib düşünürəm ki, bu əsərlər geniş ədəbi təhlilə möhtacdır. Bu, sənin halal haqqındır. İnşallah əsərlərinə dəyər verənlər tapılar.*

*Bununla yanaşı, ədəbi yaradıcılığın və ədliyyə sahəsində gördüyün işlərin müqabilində hər hansı təltifə də, fəxri ada da layiqsən.*

*Əziz Əlisəfa bəy, sən həyatda çox az-az rast gələnən etibarlı, vəfalı insansan. Yaradıcılığı ilə şəxsiyyəti birbirini tamamlayan qələm sahibisən. Gözəl ailə başçısısan. Hər cür məhəbbətə, hörmətə layiqsən. 70 yaşın bir daha mübarək olsun!*

*Böyük Yaradanımız səni qorusun!*

*Bu gün "Ədalət" qəzetinin qonağı Şuşa Dövlət Musiqili Dram Teatrının direktoru Əməkdar artist Yadigar Muradovdur. Ondan ilk dəfə 20 il əvvəl müsahibə almışam. O dövrdə Şuşa Teatrının kollektivi Gənc Tamaçaşılar teatrına sığınmışdı, yarıqaranlıq bir otağa… Otaq başdan-başa geyimlərlə və rekvizitlərlə dolu idi. Otağın küncündə balaca masa vardı, teatrın direktorunun masası. Bu gün şükürlər olsun ki, Şuşa Teatrının adına layiq binası, direktorun da gözəl bir kabineti var. Amma teatrın kollektivi bu binanı istəmir. Niyə? Səbəbini teatrın direktoru Yadigar müəllim özü deyəcək, buyurub izləyə bilərsiz…*

Azərbaycan Teatr Tarixinə qızıl hərflərlə yazılacaq. Həm də nazirinə də xoş gələcək ki, onun şuşalılarına sığınacaq vermisən. Necə deyib elə də deyirəm. O da durdu ayağa, şkafdan bir açar götürüb dedi ki, dalımca gəlin! Teatrın labirint koridorları ilə getdik, üstündə "Ədəbi hissə müdiri" yazılan otağın qapısını açıb dedi ki, bu oldu sizin. Sonra kiçik zalı bizə göstərdi ki, məşlərinizi burda edərsiz, geyim, rekvizit, qrim üçün ləvazimat nə lazım olsa istifdə edin. Sonra sexləri bir-bir bizə göstərdi və ordakılara tapşırdı ki, Şuşa Teatrına nə lazım olsa əsirgəməyin! Allah ona qəni-qəni rəhmət eləsin! Tez bir zamanda fəaliyyətə başladıq. ondan xahiş etdik bizi ora buraxdılar. Evimi gördüm. Ermənilər onu dağıtmamışdılar. Artıq elə xoşbəxt idim ki, ölmək filan yaddan çıxdı.

Belə bir lətifə var e, biri hündür binadan aşağı yıxılır. Göydə deyir ki, salamat qalsam, var dövlətimi kasıblara paylayacam. Elə olur ki, sağ qalır. Öz-özünə deyir ki, adam göydə olanda beyninə sarsaq fikirlər gəlir... Mən də fikirləşdim ki, elə 28 il Şuşasız hər gün ölüb-dirilmişəm də. Yəni ölmək limitimi doldurmuşam... Evimin qarşısında bir xarab "Cip" də vardı. Ermənilər də üstünə yazmışdılar ki, "türk bunu düzəldib sürərsən"... Neynirəm ki, ermənin

# Yadigar Muradov: "Məni "Xarıbülbül" festivalına dəvət etməmişdilər, kimsə deyib ki, o, şuşalı deyil, ağdamlıdır..."

***Həsən müəllim dedi ki, Bakının küçələrində çox avaralanacaqsız?***

**- Yadigar müəllim, sizinlə hardasa 20 il əvvəl söhbət etmişdik...**

- Yadıma gəlir, sən onda arıq sütül oğlan idin...

**- Onda sağollaşanda bir-birimizə, inşallah Şuşada görüşərik demişdik. Üstündən 20 il il keçib. Şükürlər olsun ki, bu gün Şuşa qayıtdı, xalqımız arzusuna çatdı. Şuşa Dövlət Musiqili Dram Teatrının çəkdiyi əziyyətlər bu illər ərzində mənim gözümün önündə olub. Yadıma gəlir, Gənc Tamaşaçılar Teatrında sizin teatra bir otaq ayrılmışdı. Otaq başdan başa, geyimlər, rekvizitlərlə dolu idi. Küncdə balaca bir stol var idi, direktorun stolu.. Bu gün sizin teatra Bakıda gözəl bir bina da verilib. Amma yəqin ki, Şuşaya dönməyi səbirsizliklə gözləyirsiz...**

- Mən sizi Şuşa Teatrının bu gözəl binasında salamlayıram. Siz danışdıqca mən o illəri xatırlayıram. Kino lenti kimi çəkdiyimiz o əziyyətli anlar gəlib gözümün önündən keçir. İllər o qədər sürətlə keçir, özözümə sual verirəm ki, mən bu illəri nə vaxt yaşadım? Həqiqətən, biz o vaxt Gənc Tamaşaçılar Teatrında bir otağa sığınmışdıq. Ataların gözəl bir deyimi var, "El elə sığar, ev-evə sığmaz"... Amma biz el-elə sığan kimi orda sığmışdıq. O vaxt Gənc Tamaşaçılar Teatrının direktoru rəhmətlik Kamal Əzizov idi. Mən onunla yanaşı rəhmətlik Həsən Əblucu da xatırlamaq istəyirəm. Söz vaxtını çəkər, hardasa 1992-cü ilin iyun ayı olardı, Həsən Əbluc, Azad Şükürovla mən Gənc Tamaşaçılar Teatrının qarşısındakı çayxanada çay içirdik. Birdən rəhmətlik Həsən müəllim dedi ki, Bakının küçələrində çox avaralanacaqsız? Şuşa Teatrını niyə bərpa etmirsən? Şuşanın işğalından gör neçə vaxt keçib? Kolektivini bir yerə yığ. Teatrı dağıtmaq çox asandı, yaratmaq isə çətin. Sözün düzü, mən bu teatrı min bir əziyyətlə yaratmışam. Həm də o ərəfədə rəhmətlik Hicra Hüseynov televiziyada bizim teatr haqqında "Hardasan, Şuşa Teatrı" adlı gözəl bir veriliş hazırladı. Mən həmin veriliş vasitəsilə teatrımızın kollektivinə çağırış etdim. Teatrımızın əməkdaşları Azərbaycanın müxtəlif rayonlarında məskunlaşmışdılar. Təbii ki, hamı gəlməsə də, kollektivin 80 faizini yığa bildik. Ona qədər də, məskunlaşmaq üçün yer axtarmağa başlamışdıq.

Həmin illərdə Mədəniyyət naziri olan Polad Bülbüloğlu dedi ki, maraqlanın görün harda yer var, mən tapşırım sizə məskunlaşmağa yardım etsinlər. Yenə də Həsən Əbluc bizi rəhmətlik Kamal Əzizovun yanına apardı. Onda Həsən müəllim Kamal Əzizova dedi ki, sən həmişə xeyirxah adam olmusan, amma Şuşa Teatrına yardım etsən adın



Onu da deyim ki, biz Şuşada Dövlət Teatrı statusu alsaq da, açılış edə bilməmişdik. Çünki "Dövlət Teatrı" statusu alandan sonra açılışa qədər olan dövr ərzində biz iki yox üç tamaşa hazılayırdıq. Həm də onda Şuşanı ermənilər tez-tez atəşə tuturdular, gündə bir hadisə olurdu deyə tamaşaları hazılaya bilmədik, rəsmi açılış da qaldı. 1993-cü il, fevralın 13-də şaxtalı-çovğunlu gecədə Gənc Tamaşaçılar Teatrında Şuşa Dövlət Dram Teatrının rəsmi açılışını etdik. Çox narahat idik ki, qar-çovğun, küçələr donub, nəqliyyat iflic vəziyyətində, kimsə tamaşaya gəlməyəcək. Amma tamaşa anşlaqla keçdi. O gündən biz orda hər janrda maraqlı tamaşalar hazırladıq...

**- Bu binanı nə sizə nə vaxt verdilər?**

- 2005-ci ilə qədər Gənc Tamaşaçılar Teatrında olduq. Sonra bu binanı bizə verdilər. Onda "Savalan" kinoteatrı kimi fəaliyyət göstərirdi. Əslində bina çox bərbad vəziyyətdə idi. Köçdük bura. 2014-də də bura təmirə bağlandı. Onda da dostumun restoranında məskunlaşdıq... Təmirdən sonra 20018-ci ilin dekabrın 24-də bu binanın açılışını etdik. Bir il gözəl tamaşalar oynadıq. Burdan da inşallah yaxın zamanlarda Şuşaya gedəcəyik.

Neynirəm ki, ermənin cındır günündəki "Cip"ini, özümün gül kimi "Yeşka"m var da...

**- Şuşaya qayıdandan sonra görüləcək işlərin planı hazırlanıbmı? Həm də, mənə maraqlıdır, Şuşanın azad olunması xəbərini eşidəndə hansı hissləri yaşadız?**

- Bzi Şuşadan çıxandan bəri Şuşaya qayıdandan sonra görəcəyimiz işlərin planını tutmuşuq. Bu illəri hər gün Şuşaya qayıtmaq ümidi ilə yaşamışıq. Doğrudur, çox uzun çəkdi.

Amma şükürlər olsun ki, bu günü gördük. Bu illər ərzində yalnız onu arzulamışam ki, kaş Şuşaya qayıdaq. Gedim üzümü Qala divarlarına sürtüm, Üzeyir Hacıbəyovun "Sənsiz" romansını oxuyum, elə ordaca ölüm... Şuşaya gedəndə bizi Qala divarlarına yaxın buraxmadılar... Şuşadan qayıdanda Qala divarlarının yanında avtobusumuz xarab oldu. Teatrımızın aktyoru Teymur müəllimin hərbçilər arasında tanışı vardı, cındır günündəki "Cip"ini, özümün gül kimi "Yeşka"m var da...

Şuşa azad olunan gün mənim kiçik oğlumun ad günü idi. Evdə balaca bir xudmani məclis qurmuşduq. Ondan bir iki gün əvvəl Şuşanın azad olması xəbərini alırdıq. Amma noyabrın 8-də möhtərəm Prezident, cənab Ali Baş Komandan Şuşanın azad olunmasını elan etdi. O xəbəri eşidəndə sevincdən ağlımı az qala itirmiş kimi oldum. Çünki sevincdən həm dəli kimi gülürdüm, həm oynayırdım, həm qışqırırdım, həm də oxuyurdum. Həmin gün mənə yalan olmasın minlərlə zəng gəldi. Həmin zənglərə də, biixtiyar Əlibaba Məmmədovun bir mahnısı var, onu oxuyub cavab verirdim:

*Bu gün elə xoşbəxtəm ki sanki qanadlı quşam*
*Elə bil ki, anadan indicə doğulmuşam...*

Bu gün teatrımızın bütün kollektivi gecəgündüz yalvarır ki, ay Allah, qismət elə, tez qayıdaq. Mən o gün də televiziyada danışanda elan etdim ki, Şuşa Teatrı üçün bina hazır olanadək, ordakı evim iki mərtəbəli, üstündə hündür çardağı olan çox böyük bir binadır, teatrın binası kimi istifadə etmək olar. İkinci mərtəbəsi də böyük bir çardaqdır. Orda da məşq edib, 200-250 nəfərə tamaşa göstərə bilərik. İnanın bizim teatrın indiki binasından çox böyükdür. Teatrın kollektivi orda məskunlaşa da bilər. Mən öz mülkümü Şuşa Teatrına ərmağan edirəm, təki tez qayıdaq. Qayıdıb yaradıcılıqla məşğul olaq, erməni də yanıb-tökülsün. Çünki işğaldan sonra ermənilər bizim teatrın binasında Kukla Teatrı açmışdılar, bir neçə il bundan əvvəl isə tamamilə yerlə yeksan etdilər. İndi o binanın yerinə daş düzüb, guya park ediblər.

**- Novruz bayramında Şuşada bayram tədbiri keçirəcəkdiz, deyəsən alınmadı...**

- Bəli, biz Novruz bayrmında Şuşada bayram konserti təşkil etmək istəyirdik. Ssenarisi də hazır idi. Pəhanəli xan, Xurşudbanu Natavandan tutnuş, Bülbül, Xan Şuşinskiyədək Şuşanın bütün tarixi şəxsiyyətlərinin obrazları həmin ssenaridə vardı. Kosa ilə Keçəli də müasirləşdirmişdik. Ssenaridə onlar tamam başqa obrazlar idi, pay yığmaq əvəzinə özləri sovqat paylayırdılar... Amma bizdən asılı olmayan səbəblərdən bu planımız alınmadı.

**- "Xarıbülbül" festivalında da Şuşa Teatrının kollektivini səhnədə görmədik...**

- Niyə ki, bizim teatrın kollektivindən 13 nəfər "Xarıbülbül" Festivalına qatıldıq, amma tamaçaşı kimi. Heç məni aparmaq istəmirdilər. Kimsə deyib ki, Yadigar Muradov ağdamlıdır, şuşalı deyil...

**(ardı var...)**

**Söhbətləşdi:**
**İltifat HACIXANOĞLU**

# Adının mənasını həqiqətə çevirən vətən oğlu

**Vətən, torpaq haqqında yüksək emosiyalı sözlər deyib, ucadan danışmaq adama heç bir şey demir. Vətəni sevmək, vətənpərvər olmaq adamın, bu torpağın oğlunun gərək qanında ola. Vətənə hədsiz, sönməz məhəbbət içəridən, qəlbinin dərinliyindən, düşünən beynin ən yüksək nöqtəsindən gəlməlidir. Vətənə olan sevgini, məhəbbətini sözdə yox, əməlində, hərəkətində görünməlidir.**

Şöhrət Rəsul oğlu Orucov 1975- ci ildə iyunun 26-da Salmanbəyli kəndində anadan olub. Mənalı ad sahibi olan Şöhrətin doğum günü Silahlı Qüvvələrimizin yarandığı günlə üst-üstə düşür. Bu bəlkə də təsadüfdür. Amma onun keçdiyi həyat yoluna yaxından nəzər salanda, bir daha inanırsan ki, belə təsadüflər həqiqətən də zərurətdən doğulur.



1982-ci ildə Salmanbəyli kənd tam orta məktəbinin birinci sinfinə daxil olan Şöhrət 1992-ci ildə bu məktəbi uğurla başa vurur. 1993-cü ildə S. Ağamalıoğlu adına Azərbaycan Dövlət Kənd Təsərrüfatı Akademiyasının (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) iqtisadiyyat fakultəsinə qəbul olur. 1998-ci ildə bu təhsil ocağını başa vurur. 1999-2001-ci illərdə ordu sıralarında zabit kimi xidmət edən Şöhrət motoatıcı taqım komandiri olur. Bir taqım komandiri kimi Şöhrət təkcə taqım üzvlərinin yox, bir çox əsgər və zabitin dərin hörmət və şöhrətini qazanır. Şöhrətin taqımda qurduğu lazımi xidmət şəraiti, həm də döyüş postlarında təşkil etdiyi hərbi nizam-intizam mühiti təqdirəlayiq bir yenilik kimi çoxlarının ürəyincə olub. Gənc zabit taqımında olan əsgərlərə təkcə komandir yox, onların məsləhət yeri olaraq həmişə dayaqları olub. Bir böyük, zabit kimi əsgərlərin daim yanında olan Şöhrət bacarıq nümunəsi, idarətmə səriştəsi, hərbi əməliyyatlarda yaxından iştirak etmək cəsarəti ilə əsgərlərinin həmişə yanında olub. Onların döyüşdə çətinlik çəkməmələri üçün təlimdə əlindən gələni edib.

Xidmət zamanı nümunəvi xidmətinə görə dəfələrlə fəxri fərmanlarla təltif olunan Şöhrət Orucov haqqında "Azərbaycan Ordusu" qəzetində geniş məqalə çap olunur və onun haqqında Azərbaycan Televiziyası tərəfindən hərbi-vətənpərvərlik ruhunda veriliş çəkilir.

2001-ci ildə ordudan tərxis olunan Şöhrət uzun müddət fərdi əməklə məşğul olur.

2020-ci ilin sentyabrında ilk səfərbərlik zamanı, sentyabrın 21-də hərbçi vətənpərvər öz sözünü ön cəbhədə demək üçün ordu sıralarına qatılır. N saylı hərbi hissədə komandirin yavəri (adyütant) kimi xidmətə başlayır.

Vətən müharibəsinin yaxın iştirakçısı olan Şöhrət Füzuli, Hadrut istiqamətində gedən döyüşlərdə xüsusi bacarıq və hərbi hazırlıq nümayiş etdirir.

Ötən il dekabrın 19-da Şöhrət Orucova baş leytenant rütbəsi verilir. Dekabrın 28-də ordu sıralarından tərxis olunur.

Adının mənasını həyatda həqiqətə çevirən Şöhrətin gələcək arzuları çoxdur. O, həmişə torpaqlarımızı, Qarabağımızı azad nəfəs alan görmək istəyir. Və bir də çalışır ki, gənclərimiz, gələcək nəsil əsl vətənpərvərlik ruhunda böyüsünlər, vətəni, torpaqlarımızı ürəkdən sevərək bugünkü nəslin layiqli davamçıları olsunlar.

**Hazırda Ağcabədi Rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri vəzifəsində çalışan Şöhrət Orucov bir keçmiş hərbçi, vətənpərvər vətəndaş kimi, Vətənin tərəqqisi, daha da inkişaf edib çiçəklənməsi üçün əlindən gələn hər şeyi edir. Sizə bu sülhməramlı və xoşniyyətli işinizdə uğurlar arzulayırıq, Şöhrət müəllim!**

**Adil MİSİRLİ**



*Elnur Uğur*

***Tovuz döyüşlərində dünyasını dəyişmiş Şəhid Cənab Mayor Anar Novruzovun əbədiyaşar xatirəsinə ehtiramla...***

**Vətən düşünürük Ana deyəndə,**
**O bizə əbədi ana qucağı.**
**Vətəni heç nəyə dəyişməyəndə,**
**Onda müqəddəsdir Vətən torpağı.**

**Torpağa dammasa Şəhidin qanı,**
**Torpaqdan yoğrulmaz Vətən kündəsi.**
**Eşqin məbudumuz yoxsansa qanda,**
**Nə sən eşq Tanrısı,nə mən bəndəsi.**

**Bizi biz eyləyən məndəki məndi,**
**O bizə anadır,biz oğullarıq.**
**Dünyada əvvəl də,son da Vətəndi,**
**Vətən varsa varıq, onsuz olmarıq.**

**Vətən yoxsa quru can nəyə yarar?**
**Üstümüzdə gəzən bədənik, bədən.**
**Eşqinə baş qoyub dincələr ruhum,**
**Ən əziz doğmamsan, Vətən, can Vətən!**

**Oğullar getdi ki, yolunda sənin,**
**Oğullar yıxıldı hərəsi bir dağ.**
**Oğullar getdi ki, yaşayasan sən,**
**Vətənə dönəsən,ey ana torpaq.**

**Vətəndən de kimlər,kimlər keçmədi?**
**Əliflər,Samidlər,Camallar düşün!**
**Üzü ayrılıqdı şəhadətlərin,**
**Batini əbədi eşqin görüşü.**

**Bu eşqin görüşü ucalıq istər,**
**Nolsun qış soyuğu var bu çilldə.**
**Duruş gətirənlər qalxa bilənlər,**
**Eşqlə qol-boyundur ən son pillədə.**

**Bu pillə batini durularındır,**
**Bu pillə Tanrının durduğu pillə.**
**Bu pillə elə bir ucalıqdı ki,**
**Onun kölgəsində ən uca qüllə.**

**Mənə bu pillədə dayanan hər kəs,**
**Doğma qardaşımtək əzizdir inan.**
**Xəyalım dırmanır ilk pilləsinə,**
**Görürəm dünyanın son ucundayam.**

**Oradan o yana uçurum,qaya**
**Söz də çatmır şəhid mərtəbəsinə.**

**Hər şəhid gözüylə baxsan dünyaya,**
**Könlün oyanacaq eşqin səsinə.**

**Könlü diksindirir bir şəhid səsi,**
**Mayor Novruzovun Vətən səsi bu.**
**Can verir torpağa Vətən nəfəsi,**
**Ölümü ölümmü?-eşq nəğməsi bu.**

**Səngər Generalı Polad Paşanın,**
**Tovuz döyüşündə tərəfdaşıydı.**
**O Polad Paşanın, İlqar Paşanın,**
**Vətən məsləkdaşı, ruh yoldaşıydı.**

**O ruhlar daşıdı yolu yoluna,**
**O ruhlar son bəndi eşqtək qanunun.**
**Könüldən-könülə qapısı açıq,**
**Məsləki bir olan ruh qonşusunun.**

**O ruh qonşuları Vətən məzarlar,**
**Tovuz döyüşündə candan keçdilər.**
**Yaşarkən ölməkdən üstün tutaraq,**
**Ölüb yaşamağı məram seçdilər.**

**Tovuz döyüşləri xalq sevgisini,**
**Zərrəykən bir bütöv,bir küll elədi.**
**Millət yenilgini, uduzmağını,**
**O gün sevgisiylə tam güllələdi.**

**Poladtək Paşanın rəhbərliyində,**
**Vuruşmaq hər zabit üçün şərəfdi.**
**Odur çağırışa baş üstə deyib,**
**Mayor Novruzov da Tovuza gəldi.**

**"AQS 17 adlı silahın,**
**Deyirlər,atası deyirlər sənə",-**
**Polad Paşa üzün tutdu Anara,**
**Göstər hünərini görüm düşmənə.**

**Açıldı AQS 17 dəhşət,**
**Düşməni oturdu zərbələr geri.**
**Erməni təlaşa düşmüşdü o gün,**
**Akula ləqəbli döyüşçü gəlib.**

**Düşmən Qarabağda at oynadandan**
**Anarın adını çoxdan duymuşdu.**
**Anar kəşfiyyatda sulayıb meydan,**
**Çox dır-dığaların gözün oymuşdu.**

**Onun Ağdərədə şücaətini,**
**Heç zaman unutmaz o düşmən qarı.**
**2008-ci ildə Anarla,**
**Açdıq Ağdərəyə Vətən yolların.**

**Aprel döyüşləri yurda qayıdış,**
**Doğdu Anarların zəfərlərindən.**
**Millətin qanında böyük oyanış,**
**Güc alır Vətənin al səhərindən.**

**Anar Novruzovun xidməti birmi,**
**Saydıqca sayasan gəlməz ki saya.**
**O bir hərbiçitək, ruhunda mərdlik,**
**Doğulub gəlmişdi cani dünyaya.**

**Haqqı, ədaləti can bahasına,**
**Qorumaq onunçün böyük amaldı.**
**Elə haqq uğruna, zəfər uğruna,**
**Qalxdı şəhadətə qədər ucaldı.**

**Yaşı tamam oldu bütün yaxınlar,**
**Ona təqaüdə çıxsın dedilər.**
**Taorpağı işğalda olan zabitin,**
**Söylədi evi də səngərdir,səngər.**

**Ona ev tik dedi, istəyənləri,**
**O isə elə bir ev tikəcəyəm,**
**Bütün doğmalarım, sevənlərimlə,**
**Kölgəsində hər gün dincələcəyəm.**

**Şəhadət evidi tikdiyi ev də,**
**Bu boyda xalq üçün kölgəsi yetər.**
**Bir məzarı var ki,tək baş daşına**
**Baxanlar Vətəndə Vətən dedilər.**

**İki yadigarı qalıb dünyada,**
**Oğlu Nihad ilə qızı Füruzə.**
**Onları özünüz kimi qoruyun,**
**Onlar Azadlıqdan yadigar bizə.**

**Anar Novruzovun gül balaları,**
**Ata hünəriylə fəxr eləyirlər.**
**Ölümün qırışıq əlini sıxıb,**
**"Vətən sağ olsun!"bax belə deyirlər.**

**Özü sağlığını düşünməyənlər,**
**Vətən sağlığına canını verdi.**
**Azadlıq toxumu eşqlə səpildi,**
**Şəhid qanlarıyla hər gün göyərdi.**

**Şəhidlər ruhuna borcluyuq hər an,**
**Bu boyda torpağın azadlığını.**
**Onların qanıyla hər gün bağlaram,**
**Könlümdə qırılmaz Vətən bağını.**

**Tovuz döyüşündən başlar zəfərim,**
**O döyüş millətin ruh döyüşüydü.**
**Orda Anarların, Polad,İlqarın,**
**Acı ayrılıqla son görüşüydü.**

**Orda Generalım sübut elədi,**
**Vəzifə sevgidən gücsüzdür hələ.**
**Vətən dediyimiz Müqəddəs Ana,**
**Ayaqdadır övlad sevgisi ilə.**

**Orda Anar odlu silahla o gün,**
**Azğın düşmənləri ot kimi biçdi.**
**Tovuz döyüşləri elə döyüş ki,**
**Zəfərə xalqımız bir körpü keçdi.**

**Bəli, Anarların şücaətiylə,**
**Tovuzda yerini aldı ədalət.**
**On iki imamın eşqinə orda,**
**On iki igidim daddı Şəhadət.**

**Həmin Şəhadətdən daman damla qan,**
**Kütləni döndərdi selə ölkədə.**
**Qarabağ hayqırdı, bu vaxta qədər-**
**Millət qalxmamışdı belə ölkədə.**

**Axdı Qarabağa axdı baxışlar,**
**Vətənə məhəbbət,düşmənə nifrət.**
**Yağdı Qarabağa yağdı baxışlar,**
**O Sevgi buludu gözlərə heyrət.**

**Tovuz döyüşləri əsrin savaşı,**
**O savaş bizlərdən kimlər almadı?**
**Səngər Generalı, Vətən İlqarı,**
**Bir də tarix oldu Anarın adı...**

**Cavan ömürlərin Şəhadətini,**
**Elə düşünürəm,elə yanıram.**
**Hər birin bağrıma basıb xəyalda,**
**Bir nəğmə eşqiylə alovlanıram.**

**Anarın taleyin vərəqlədikcə,**
**Səsimə hardansa bir səs hay verir.**
**Bu böyük şəhadət şəhdi çox şirin,**
**Yazdıqca dipdiri sözlər boy verir.**

**44 illik ömrünü,**
**Sərf elədin Vətənə.**
**Bu gün məzarın üstə,**
**Vətən deyirəm sənə.**

**44 il bundan öncə,**
**Bir sevdadan yoğruldun.**
**Tarixə döndü adın,**
**Vətəndə Vətən oldu.**

**Adını Anar qoyan-**
**Atanın eşqin andın.**
**Düşməni damğaladı,**
**Vətənə oğul andın.**

**44 illik yaşamı,**
**Bir sevgiylə yaşadın.**
**İndi adın tarixdə,**
**Azadlıqla qoşadı.**

**Səndən yazınca ünüm,**
**Yetir haqqın səsinə.**
**Sözüm an-an ucalır,**
**Şəhid mərtəbəsinə.**

**Ucalıqdan baxanda,**
**Ucalıqlar kiçilir.**
**Şəhid qəbri önündə,**
**Keçilməzlər keçilir.**

**Ey cismi cismən köçən,**
**Ey ruhu doğmam mənim.**
**Baş daşında dikələr,**
**Ucalığı Vətənin.**

**Hər bir təzimdədir,**
**Şəhid adın önündə.**
**Tanrı məhəbbəti var,**
**Bu dipdiri ölümdə.**

**Ölüm intihar edir,**
**Hər gün bu baş daşında.**
**Dörd hərfli ad iz salıb,**
**Zamanın yaddaşında.**

**Ha qazısam yaddaşın,**
**Unutmaz zaman səni.**
**Əziz balasıtək oxşar,**
**Bu Vətən -Anan səni.**

# "Qüvvət elmdədir..." devizi ilə növbəti mühazirə keçirilmişdir

**AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xaqani Şirvani adına Aran regional filialı Azərbaycanın ən görkəmli şairlərindən biri Nizami Gəncəvinin 880 illiyi münasibətilə 2021-ci il "Nizami ili" çərçivəsində növbəti onlayn mühazirə keçirmişdir. "Qüvvət elmdədir! Başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz..." devizi ilə "Nizami mühazirələri"nin dördüncü toplantısı 30 iyun tarixində Kürdəmirin Tədqiqi və Təbliğinə Dəstək İctimai Birliyi ilə birlikdə onlayn formatda baş tutmuşdur.**



Onlayn tədbiri Aran regional filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı açaraq Nizami Gəncəvi yaradıcılığının öyrənilməsi və təbliğinin vacibliyindən bəhs etmişdir. Nizami irsində təkcə Şərq ədəbi-mədəni dəyərlərin deyil, eyni zamanda Qərb ədəbi-mədəni dəyərlərin öz kamil sintezini tapmasından, Nizami yaradıcılığının klassik dövrün yeni mərhələsi kimi qiymətləndirilməsindən bəhs etmişdir.

Aran filialının keçirdiyi mühazirələrin gənc nəslin Nizami irsinə marağının artırılması üçün böyük əhəmiyyət kəsb etdiyini bir daha vurğulamışdır. Sonra Bakı Slavyan Universitetinin Beynəlxalq Münasibətlər kafedrasının müdiri, Kürdəmirin Tədqiqi və Təbliğinə Dəstək İctimai Birliyinin sədri, tarix elmləri doktoru, professor Habil Məmmədov "Nizami yaradıcılığı tarix və etnoqrafiyanın öyrənilməsində mühüm mənbə kimi" mövzusunda mühazirə söyləyərək, şairin əsərlərində əks olunan tarixi faktlardan, toponimlərdən, dövlətçilik ənənələrindən, Sasani və türk hökmdarlarından bəhs etmiş, tarixi mənbə kimi "İsgəndərnamə" poemasına xüsusi diqqət yetirmişdir. Eləcə də, mühazirəçi dahi şairin yaradıcılığında özünü biruzə verən zəngin etnoqrafik məlumatları dinləyicilərin nəzərinə çatdırmışdır. Mühazirədə Nizami Gəncəvinin əsərlərində təsərrüfat, ailə məişət, mənəvi və maddi mədəniyyət məsələlərinə dair maraqlı fikirlər xüsusi olaraq vurğulanmışdır.



Tədbirin digər mühazirəçisi AMEA Milli Azərbaycan Tarix Muzeyinin elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Nərgiz Əliyeva "Nizami dövrü Azərbaycanda təhsil" mövzusunda mühazirə söyləyərək, Azərbaycanda orta əsrlərdə islam mədəniyyətinin yayılmasında mühüm rol oynamış təhsil müəssisələri, o cümlədən mədrəsələr haqqında məlumat vermişdir. Öz yeni keyfiyyətlərinə görə, digər mədrəsələrdən fərqlənən Bağdad Nizamiyyə mədrəsəsi, oradakı təhsil və azərbaycanlı müdərrislərin rolu haqqında da danışan mühazirəçi, mənbələr üzərində apardığı araşdırmalar nəticəsində Xilafətin 30-dan çox mədrəsəsində azərbaycanlı müdərrislərin fəaliyyət göstərmələri haqqında məlumat əldə etdiyini qeyd etmişdir. Eyni zamanda, o, Azərbaycanda təsis edilmiş mədrəsələr və oradakı təhsil haqqında da söz açmışdır.

**Mühazirəyə Kürdəmirin Tədqiqi və Təbliğinə Dəstək İctimai Birliyinin üzvləri, Kürdəmir rayon ümumtəhsil məktəblərinin dil-ədəbiyyat və tarix müəllimləri, Nizami yaradıcılığına maraq göstərən məktəblilər və klassik poeziya həvəskarları qoşulmuşlar. Məruzəçilər dinləyicilərin suallarını cavablandırmışlar.**

# Göy yolçusu

***Sən başda olmaqla 70-inin başında fır-fır fırranmalıydıq indi hamımız, a Məmməd. Tədbirlər silsiləsinin də müəllifi özün olmalıydın. Çeşidbə-çeşid kitadların bəzək-düzəyini də özün düzüb-qoşmalıydın. Yığnaqların da çevrəsini, coğrafiyasını - bir yanı, İncə-Gəncə, bir yanı Bakı - özün müəyyənləşdirməliydin. Axırda Novxanıdakı bağında ”çənə” kababınnan, bağın ayağında basırdığın balonun üzərə çıxmasınnan tamamlanacaqdı. Mənim 67-im sənin 70-inin gözünə qatılacaqdı iyulun dördündə. Bütün ”iyulist”ləri- Nəsir müəllimi, Rüstəm Kamalı, Nəvaini, Ramizi... özün yığacaqdın bir araya, a Məmməd.***

***O qədər mənasızlıqlara urcah olduq ki. Hərdən işıq gələn tərəfə gedib sevinmək də düşdü qismətimizə səndən sonra. Bircə axırı xeyirə calansın. Akifə de ki, Şuşaya gedə biləcəyik. Şuşanın sağ əli Qılınckəndinin başına.***



***Off, a Məmməd. Sənin harana yaraşırdı ölüm? Kimin ağlına gələrdi? İçin də, çölün də qar-qar qaynamırdımı həyat eşqi ilə bizim əlimizi üzümüzdə qoyduğun gündən bircə qırıq əvvəl?***

***Heç bilirsən dünya sənsiz nə qədər darıxdırıcıdı? Bəlkə bilirsən, bəlkə də bilmirsən. Biz hardan bilək ki, oralarda nə var-nə yox. Orda birlik varmı? Necədi? Ordan bizə baxırsınızmı? Baxdıqca yazığınız gəlirmi? Son vaxtlar yaman hallandırırlar ki, çox yaşamaq çox zulum çəkməkdi, Allahın adama verdiyi cəzadı. Ağıl kəsən işdi. Ancaq, a Məmməd, qardaş canı, könüllü ölmək də heç ağıl kəsən söhbət döy. Akif demişkən: ”Bu arvad-uşaq olmasa...”. Bu tale möhləti bəlkə də sizdən sonra nəsə eləmək missiyasıdı? Onu da qoysalar. İllər bir-birindən burulğannı gəlir, a Məmməd. İndi çağalardan tutmuş ahıllara qədər hamının qorxa-qorxa dediyi pandemiya, karona kimi əcaib-qəraib sözlər, covid pasportu adlı sənəd peyda olub. ”Toy eləmə, vay eləmə, ora getmə, bura gəlmə”- kimi qadağalar ağlınıza gələrdimi? Başımıza gəldi.***

***Nə isə, a Məmməd, səni ”qəbirləri qucağında olan elə” tapşırıb gələndən beş il ötür. İndi sənin 70 yaşın var. İndi neyniyək sənsiz? Nə iş görək? Ana-ana yanmaqmı? Yana-yana anmaqmı? Yanmaqların, anmaqların sənin əbədiyyətinə dəxli yoxdu, a Məmməd. Sən əbədiyyətini çoxdan, lap çoxdan qazanmısan. Çəkdiyin portretlərin, insan mənzərələrindəki şəxsiyyətlərin (guşənişin olduğun ”Ədalət” Allah şahididi) özlərinin və doğmalarının sayı sanı, irfan şeirinin fanatlarının sayı sanı, tikib-qurduqlarının, yapdıqlarının sayı sanı, elədiyin yığnaqların istisini unutmayanların sayı sanı, yəni sonsuzadək varsan sən. Bizim sənə olan sevgimizi sevənlərin şaxəli sevgisinin sayı sanı varsan ömrün bu tayında. O tayında, Haqqın dərgahında da belədi yəqin. Yəqin ona görə ki, Allah səni sevməsəydi bu qədər istedadı sənə verərdimi? Və qəflətən, tələm-tələsik səni yanına, yanındakı əbədiyyətə çəkib aparardımı?***

***...Hər sənə(sizə) doğma yığnaqlarda Aslanın, Ağamalının, Şöhrətin, Nazimin, Akifin, Oktayın... sağlığını da unutmuruq. Yenə vuracağıq: badələrimizin içində bir damla xatirə, bir damla həsrət, bir damla göz yaşı... və bir udum... Və buna da min şükür. Yoxsa nə olacaqdı ki, a Məmməd. Məmməd İlqardan, Rüstəm Qazaxlıdan sənə və uşaqlara salamlar var.***

***70-in mübarək olsun, ORAların mübarək olsun a Məmməd.***

***Sənli 60-ında yazdığım bu yazını sənsiz 70-ində bir də xatırlamaq istədim.***

***

Əzizim, arkadaşım Məmməd! 60-a dildın-dilə, eldən-elə, güldən-gülə, küldən-külə, fəqət gilə-gilə gəldin. 60-ında üzünə açılan qapıya gedə-gedə, gələ-gələ, ağlaya-ağlaya, gülə-gülə gəldin. ”Sabahdan axşama yol” ola-ola İncəmizdən qopub hardasa, çox-çox uzaqlarda halə quran və bir qismi də çox-çox yaxınlarda, könlünün guşəsində bərq vuran İşığa qənşər yol gəldin. Mübarək olsun.

Yol gəldin kəlamını biz ha demirik ”Yollardan haqqın yolunu Sorub urfana yol gedən”ə! Nəkərayıq biz? Bu səda həmin Ulu İşığın həndəvərində qərarlaşan mələklərin nidasıdı. Biz əlimizi gözümüzün üstə, eşqimizi könlümüzün üstə qoyub durduğumuz yerdən uzaq başı: ”yol getdin və 60 adlı dayanacaqda nəfəs dərib yol gedirsən”- deyə bilirik könül xoşluğuyla, arkadaş.



Cismin yer, ruhun göy yolçusu... Havaxt, harda haçalandın, arkadaş? ”Bir yolçuyam yolların qəzaqədərində mən”i dərk edəndənmi? Bəlkə, yaranmadan qoşalaşdı bu yollar? Bəlkə, varlığından öncə mövcud olan ortaq başlanğıcdan yoğruldu bu yollar? Bəlkə də, özünüdərkdən açıldı Ulu İşığa can atan ruhun yolu? Heç fərq etməz. İstər qayğı dolu fəna yolu, istərsə eşq yüklü işıq yolu- biri o birinin nişanəsidi. Di gəl ki, ölüm deyilən fiziki sonluqda sonu çatan yer ömrü ömürdən sonrakı ömrün başlanğıcı olan göy ömrünün məhvinə yol açar, sayı-hesabı bilinməyən şeytanları qara bulud kimi araya salar, göy yolçusunu Ulu İşıqdan perik salar. Bax, bu səbəbdən hər yetən göy yolçusu ola bilmir, arkadaş. Of, bu yerin amansız qayğıları... Bir tərəfdən də baxır içindən keçdiyin zamana, cəmiyyətə... Bir də Adəm övladının qaçılmaz ”Yuvamda ac balalarım, Gecə-gündüz dən gəzirəm”- borcu.

Şükürlər olsun ki, sən dözdün, a Məmməd. ”Üzü yerə göyərdim, üzü göyə qocaldım”- desən də, yerdəki ömrünü elə qura bildin ki, göyü qoruya bildin. Çox şükür, a Məmməd. Yerin şeytanına üz verib göyün mələyini küsdürmədin. Qırılmadı göy yolun, qırılmadı, arkadaş.

Yeniyetməliyində özünü tanıdın. Könlündəki işıq selinin içindən keçən sözlərin kağıza qondu. Fəqət o dönəmdə yer üzünün - gəncliyin, arzuların, gücün, gümanın şeirini, körpə təfəkkürün şeirini yazdın. ...Yeniyetməliyində özünü tanıdın. Və ayaqların fəna torpağında büdrəyə-büdrəyə, gözlərin göy işığında böyüyə-böyüyə, gizlin-gizlin, oğrun-oğrun tanıdığın MƏN-i şeirə ismarladın.

İntəhası, içindəki işıq selinə bələnən abırın onlara sandıq taleyi bəxş elədi. Amma haqqın həbsi əbədi olmur, arkadaş. Sənin gənclik yazılarına hopmuş işıq öləzimədi, üzərə çıxanda bir daha parladı, bərq vurdu və nə yaxşı ki, bu işığı ilkin görənlərdən biri də mən oldum. Sən hələ altmışıncı illərdən aləmi tanıya və ifadə eləyə bilirdin, sözlə mənzərə çəkirdin: ”Söyüdlər saç atar, çinarlar budaq, Ağacda oxuyan quşdu, ya yarpaq?..”, ”Ruhumda gizlicə üşütmə yatır, Gözümdə qalıbdır üfüqün qanı...”

Səni Allahdan və özündən sonra olsun ki, ən yaxşı tanıyan da elə mənəm. Yəqin razılaşarsan: Məmməd Dəmirçoğlu həqiqətinin qırxıncı sirli otağının divarlarına yazılı-yazısız məndən yaxşı bələd olan varmı ki, arkadaş? Yəni, özün dəvət etdin məni könlün evinə. Yer yoluyla göy yolunun ayırdığı özəl dünyanın hüdudlarına harayladın bir axşam.

Nə yaxşı ki, şeirin burulğanı yazmağa başladığın erkən gənclik illərindən səni tez-tələsik alıb aparmadı. Nə yaxşı ki, canında olan qabiliyyət, hökmlər sarvanı olan və istedad deyilən tanrı payı hara getdinsə, hansı işin qulpundan yapışdınsa səni yarıtdı. Rəssam da oldun, tərtibatçı da. Dizayner də oldun, heykəl yapanlara yardımçı da. Hə yaxşı ki, belə oldu. Belə olmasaydı, ilk mübarək şeirlərini yazan vaxtdan birmənalı, birtərəfli olaraq müqəddəs şairlik xəstəliyinə mübtəla olar, indiki durumundan, indiki imkanlarından məhrum olardın, arkadaş! Zamanı bilmədən, ətrafı çözmədən keçinmək çətin məsələdir axı. İmkan və nüfuz sahibi olmayanı, sayılmayanı saymırlar vallah. Ümumiyyətlə, indi şeiri əvvəlki eşqlə, əvvəlki həvəslə oxumurlar. Elektron ünvanlarda eninə-uzununa yayımlananlar da ayrı adamlardı məncə. Yoxsa, sənin əslindən-nəcabətindən sənə miras qalmış və yaxşılar tərəfindən qəbul olunmuş ”Dəmirçoğlu kişi adamdır” hökmü təklənərdi, qəribsiyərdi vallah. Sən yer üzünün ilhamından söz-söz, misra-misra qopub göy üzünün sirri-sübhan pıçıltısına varanda artıq göründüdə, gündəmdəydin. Çox şükür.

***Doğrudan da, özünü tanımağın şah yolu özünü tanıtmaqdan keçir, arkadaş. Özünü yaxşı görməkçün özünü əhli-hallar güzgüsünə tutmalısan. Göy işığını tanıma bəndəlik döyül. Amma Göy işığını sevən bəni-insanın səni tanıması gərəklidi. Yer üzünün halal alqışları, halal duaları Göy işığına bir az da yaxınlaşdırar adamı.***

Sözə tapınıb sözə könül verdin: şair dedilər, rəngi tanıyıb, sərgilədin: rəssam dedilər, daşı tanıyıb tumarladın, könül verdin: heykəltaraş dedilər, səsi tanıyıb, səsi səsə qovuşdurdun: aşıq dedilər. Bəs çox-çox uzaqlarda halə quran işığı tanıyıb içində yuvalanan işığın nuruyla işıqlanana, işıqlandırana nə deyirlər, a Məmməd?

Səni tanıyanlar səni sevdilər. Çünki, öncə sən onları sevdin. İçində sevgi olmayanları da sevdin. Dedin: binəvanın nə günahı, onu Yaradan belə yaradıb. Fəna sonluğunda adama qalan: ”Rəhmətlik yaxşı adamıydı və ya gorbagorun adamlığı yoxuydu” qazancını kim bilmir ki? İntəhası, bilməknən olmağın arasında böyük məsafə var, a Məmməd.

Hər şeirini təzə-təzə, bitdə-bitdə oxumuşuq, birgə sevinib, birgə həyəcanlanmışıq. Olub ki, bir sözün üstündə iddəşmişik də. Özümüzə sözümüzə hər şeyi demişik də, yazmışıq da. İndi nə deyim ki? İndi şeirlərinə və şəxsiyyətinə fikir sərgiləyən canballı söz adamlarına səndən də qabaq, səndən də çox ”Allah sizi var eləsin, sevginizə sağlıq” deyirəm. Bircə məqama baxaq. Burda dolanışığa, orda işığa gedən yollar arasında qulluqçuluq yaşamından ”qul”luq dərgahına qalxan, ya da qalxmağa cəhd edən Allah bəndəsinin ömür koordinatları şeirlərin içindədi. Heç özün də fərqində olmamısan. ”Səhra gülləri”ndə qoşalaşan şeirin birində deyirsən ki, ”Yazdığım şeirlər qul xatasıymış, Allah, kərəm eylə, qulların yazıq.”

Yəni qul məqamına varan sən Dəmirçoğlu etiraf eləyirsən ki, yer üzündə camaata qoşulub yazdığım şeirlər, hələ o zamanda içimdə dolanan haqq işığıyla var olan qulun xatasıymış. Buna görə tanrıdan mərhəmət diləyir və dübarə dünyaya deyirsən ki, ” ...Min bir dərdi bir səbrimin quludu...”

Yəni ikinci adı səbr olan Allahin qulunun adı dərdiymiş. Göyün nuruna qərq olub yerin üzündə gördüyün və görəcəyin dərd. Təkcə bu yetərli deyilmi bilsinlər ki, hardan gəlib hara gedirsən, a Məmməd?

Sənə aid olan əsas arzum ”İnsan mənzərələri”ni tamamlamaqdı. 60-a çatdırammadın, üzü 65-ə Allah kömək olsun. Səni rənglər dünyasından ayırıb seiriyyət cənginə salan könlün və biz dostların sənin içini oyum-oyum oyan o biri sevdanın yanında günaha batmamısıq ki?! Bizi bu günahdan da azad elə, a Məmməd. Onsuzdan da rənglər də sənə çox-çox uzaqlarda halə quran Ulu İşıqdan və çox-çox yaxında, könlün guşəsində işaran nurdan gəlir.

Deyəsən yuxarıda axtardığım sualın cavabı ağlıma gəldi: Haqqın işığına varanlara Mövlanə, onların ətəyindən tutanlara dərviş deyirlər, sufi deyirlər, irfan deyirlər.

***Əldən-ətəkdən olma, arkadaş!***
***Bir də ki, özün demiş:***

***Mələklər biz özümüzük,***
***Özümüzü tapa bilsək.***

**Rəfail İncəyurd**

# SƏNƏTKAR TƏFƏKKÜRÜNÜN BƏDİİ ÜFÜQLƏRİ

**Min illərdir söz var, sözə könül verənlər, sözün işığında yol gedənlər var. Bəzən adama elə gəlir ki, daha deyiləsi yeni söz qalmayıb, bir ömür yaşayan insanla, onun həyata gəlişi və həyatdan gedişi arasında Allaha, cəmiyyətə, təbiətə sevgiylə bağlı hər şey deyilib və yazılıb. Ancaq insan təfəkkürünün və düşüncəsinin sərhədləri nəhayətsizdir. s**

Çağdaş ədəbi-bədii düşüncəmizin zənginləşməsində, təfəkkürümüzün bədii-fəlsəfi parametrlərinin qloballaşan dünyanın ölçülərinə uyğunlaşmasında, özünəməxsusluq indeksi ilə çıxış edən istedad sahiblərindən biri Sövkət Zərindir. Onun qələmə aldığı yaradıcılıq nümunələri növündən, janrından asılı olmayaraq öz tutumu və sanbalı ilə seçilir. Sövkət Zərin məxsusi ədəbi-ictimai, bədii-publisistik və bədii-fəlsəfi yaradıcılıq konsepsiyası olan yazardır. Onun insana, cəmiyyətə, dünyaya, bütövlükdə həyata baxışı lirik-psixoloji, bədii-fəlsəfi kodlarla şifrələnmişdir. Qeyri-adi həyat enerjisi, geniş və mütəhərrik təfəkkür orijinallığı, unikal ümumiləşdirmə bacarığı, həmçinin yüksək sənətkarlıq potensialı onun yaradıcılığını şərtləndirən başlıca amillərdəndir. İstər poeziyası, istər nəsri istedadın əyani təzahürüdür. O, orijinal, modern düşüncəli şair olmaqla yanaşı, həm də çox maraqlı və sənətkarlıq məziyyələri sərgiləyən nasirdir.

***Ömrünün 80-ci baharını yaşayan görkəmli sənətkarın çoxşaxəli, zəngin yaradıcılığına maraq tükənmir.***

***O, ənənəvi poeziya müstəvisində həyat həqiqətlərinə, ədəbi-bədii mətləblərə özünəməxsus orijinallıqla, yüksək fikir tutumu və poetik təravətlə yanaşan istedadlı şairlərdəndir.. Onun yaradıcılığı ideya-mənəvi axtarışların siqləti, obrazlı düşüncə zənginliyi ilə yanaşı, həm də milli-mənəvi və etik bütövlüyün poetik məxsusiliyini özündə ehtiva edir. Sövkət Zərinin bədii nümunələrində mövzu və forma dolğunluğu, emosional ifadə tərzi, poetik vasitələrin rəngarəngliyi, onun sənətkarlıq bacarığının mühüm elementləri kimi təzahür edir. Ərsəyə gətirdiyi poetik əsərlər öz istinad obyektinə, düşüncə miqyasına və bədii qaynaqlarına görə milli lirikamızın maraqlı nümunələri sırasındadır. Şair mövzunun poetik həllində lirik ovqatın səmimiyyətinə, təsvir və ifadə vasitələrinin orijinallığına, hadisələrin dramatizmindən doğan gərginliyə və bədii ümumiləşdirmənin fəlsəfi mahiyyətinə böyük önəm verir.***

Sənət müstəvisində ədəbi-bədii nümunənin mahiyyətindəki ictimai-fəlsəfi fikrin dolğunluğu, poetik özünüifadənin, özünütəsdiqin yetkinliyinə dəlalət edir. Çağdaş poeziyamızda öz səmimi ahəngdarlığı, bədii-ictimai mündəricəsi, forma və məzmun tamlığı, həmçinin poetik ümumiləşdirməsi ilə diqqət çəkən poetik numuneler sirasinda Sövkət Zərinin şeirlərini səciyyələndirmək olar.

Maraqlıdır ki, sair bu şeirlərin hamısında kövrək, həzin və dərin fəlsəfi poetikaya xas olan dil estetikasını sərgiləyir. Şeirlərin poetik tutumundan, orijinal bədii səciyyəsindən duyulur ki, müəllif öz məzmunu ilə seçilən maraqlı və mənalı bir yaradıcılıq yolu keçib. Sövkət xanımın şeirlərində millətə, yurda, vətənə, doğma ocağa bağlılıq hissi məxsusi poetika ilə səciyyələnir. Milli-mənəvi dəyərlərin, intizar, həsrət dolu sevginin, ləyaqət və insanpərvərlik duyğularının bədii tərənnümü onun poetik nümunələrində səmimi bir kaloritdə öz ifadəsini tapır. Onun şeirlərində zaman, təbiət, insan amili bədii təfəkkürün tərkib hissəsi kimi çıxış edir və hər bir poetik nümunəsi bu kontestdən səciyyəvidir. İstedadlı şairin poetik məfkurəsi milli düşüncənin geniş üfüqlərini əhatə edir. Sövkət Zərinin poetikasının lokomativi vətənpərvərlik mövzusudur və bu fakt bədii-fəlsəfi dəyəri ilə onun yaradıcılığına böyük sanbal gətirib. Onun şeirləri bədii-ictimai siqləti ilə sevilir və oxucunu düşündürür.

Şairin lirikasında həsrət və qəm motivlərinin yeknəsəkliyi, sentimental notlar, gərəksiz pafos heç vaxt duyulmur. Onun şeirlərində vətənin, valideyn-övlad məhəbbətinin, doğma ocağın tərənnümü, həmçinin xeyirxahlıq, nəciblik, əzəmət və gözəllik duyğularının bədii müstəvidə səmimi təbliği, bütövlükdə yaradıcılığına dərin ictimai-fəlsəfi mündəricə gətirir.

Doğma yurdu Cəbrayılın uzun müddət işğalda olması onun sənətkar qəlbini həmişə göynədib. Vətəndaşlıq yanğısı ilə qələmə aldığı bütün şeirləri yurd həsrətinə bələnib.

Onun poetik nümunələri ciddi ədəbi axtarışlardan doğan uğurun səciyyəsidir. "Yellərə sarı", "Bənövşələr hay verən yerə", "Payız fəslinə", "Mən olacağam", "Sənlə gedirəm", "Şəhidlik zirvəsində", "Bahar sevdası", "Köksümə sığınıb gecə", "Bir payız axşamı", "Sinəm vətənləşəcək", "Səni xatırlayıram", "Beşik" və s. şeirlər poetik təravəti, bədii ümumiləşdirməsi və müasirlik ruhu, çağdaşlığı ilə diqqəti cəlb edir. Sadaladığım bu şeirlərin hər birinin özünəməxsus poetik sanbalı var.

Sövkət Zərinin qan yaddaşında ulu türk ruhunun poetikası çox önəmli səciyyə daşıyır.

***Nola, zalım fələk insafa gələ,***
***Bu bəndi-bərəni aradan silə.***
***Quş kimi qol açam, sevinə-gülə,***
***Gedəm o əzəlki illərə sarı.***

Şeir - həyat həqiqətlərinin, duyğuların, düşüncələrin bədii-fəlsəfi, poetik həqiqətə çevrilməsi hadisəsidir. Və bu bədii-fəlsəfi məqam misralarda əyaniləşir. Bədii nümunənin məzmunundan asılı olmayaraq, şairin hər şeirindən yurd nisgili əsinti kimi keçir.

***Mən səni götürüb hayana gedim,***
***Orda özüm olum, bir də sən, könül?***
***Ümidsiz bu dərdə tapaq əlacı,***
***Taleyə qəhr edib inciyən, könül...***

Şeir - duyğuların dilində danışan adam kimidir. Onunla danışmaq, yaxud onu danışdıra bilmək hər iki müsahibin məharətindən, daxili aləminin zənginliyindən asılıdır. Sövkət Zərinin şeirləri çox maraqlı, kövrək ruhlu, səmimi müsahibdir.

Lirik qəhrəmanın məhəbbət, sevgi axtarışları, onun imtahanlardan, emosional sarsıntılardan keçən və möhkəmlənən insani keyfiyyətlərinin təsdiqini, həm də şeirlərin məzmun və mündəricəsini təşkil edir.

***Sən yox ikən mən də***
***Yalnızlığıma sarıldım,***
***Yoxluğuna darıldıqca, darıldım.***
***Yazdığım şeirlər də***
***Yalnızlıq saçır.***
***Xatirələr də hər an, hər saat***
***Məndən qaçır.***
***Bilmirəm, nədən ağrılarım***
***Min rəngdə çıxır ürəyimdən?***
***Qayıtmağını elə bil gözləyirəm.***
***Bəlkə gələsən,***
***Məni yalnızlığa qısqanasan,***
***Alasan əlindən.***

Lirik qəhrəmanın daxili aləminin, sevgi hisslərinin, məhəbbət iztirablarının ifadəsi onun söz palitrasında yeni rənglər, yeni çalarlarla üzə çıxır.

Şair ruhunun güzgüsüdür lirika. Çox zaman bu lirik nümunələr qələm sahibinin həyat və cəmiyyət haqqında düşüncələri, fərdi xarakteri, həmçinin şəxsiyyəti barədə dolğun təəssürat yaratmağa imkan verir. Lirik əsərlər obyektiv gerçəklik haqqında şair duyğularının obrazlı ehtivasıdır. Unutmaq lazım deyil ki, şeirin, bütövlükdə lirik əsərlərin bədii sanbalını təmin edən



başlıca amillərdən ən önəmlisi səmimiyyətdir. Bu misralarda olduğu kimi:

***Bir beşik eyvanda asılı qaldı,***
***Nə eyvan danışdı, nə beşik dindi.***
***Tarixin şahidi köhnə beşikdən,***
***Körpə hənirtisi bir gün kəsildi.***

Sövkət Zərinin şeirlərində ictimai, mənəvi, əxlaqi tamlıq və halallıq mövzusu geniş yer tutur və onun dünyagörüşünün, bədii-estetik idealının müəyyənləşməsində, formalaşmasında əhəmiyyətli rol oynayır. Bu poeziyanın ən səciyyəvi xüsusiyyətlərindən biri onun müasirliyidir.

***Bir payız şeiri yazdım bu axşam,***
***Sapsarı misralar düzüldü bir-bir.***
***Payız sükutunda azdım bu axşam***
***Payız ovqatına bələndi ömür.***

***Bir həsrət kövrəltdi şairliyimi,***
***Qələm söz dilində dərdi ağladı.***
***Tale sevincimi haram buyurub,***
***Kədəri canımda gizli saxladı.***

Bu şeirdə şairin poetik ovqatının payıza kökləndiyinin bədii mənzərəsini görürük və misralardan payız qoxusu duyulur.

Şairin yaradıcılığındakı lirik qəhrəmanın vətəndaşlıq mövqeyi, yurdsevərliyi, fəallığı mühüm önəm daşıyır. Onun poetik nümunələrində təqdim olunan vətən məhəbbəti, inam və xeyirxahlıq duyğuları, həmçinin yurd ağrısı bütövlükdə onun vətəndaş şair obrazının ehtivasıdır.

***Yağmalanan obam hanı,***
***Odda yanan odam hanı?***
***Qardaş getdi, atam hanı,***
***Günəşsiz, günsüz olmuşam.***

Sövkət Zərinin nasir kimi özünəməxsusluğunun, orijinallığının heyranlıq doğuran cəhətləri kifayət qədərdir. Onun nəsrimizi zənginləşdirən povest və romanlarında bədii dil xalqın milli xarakterinin və təfəkkür zənginliyinin başlıca amili kimi böyük səciyyə daşıyır. Canlı xalq dilinin zəngin xəzinəsinə dərindən bələd olması, sözün ifadə imkanlarından geniş surətdə faydalanmağı bacarması nasir məharətinin diqqətəlayiq cəhətləri sırasındadır. Onun "Tale yolu" romanı və "Əbədiyyətə qədər" povesti yazıçı məharəti ilə yanaşı, həm də yüksək vətəndaşlıq, vətənpərvərlik keyfiyyətlərinin bədii inikasıdır. Müəllifin təsvirindəki realizmin gücü bir tərəfdən həyat hadisələrini dərindən müşahidə etməsində, həyat materialını gözəl bilməsindədirsə, digər tərəfdən bədii sözün qüdrəti ilə səmimi, təbii detallarla sənət müstəvisində sənətkar səriştəsi ilə canlandırmasındadır. Möhkəm süjet xətti mühakimələrin bazisinə, təməlinə çevrildiyi üçün bədii mətləb qəhrəmanın taleyində səciyyəviliyi ilə reallaşır və əsərin emosional cazibədarlığı, həm də ideya-bədii mündəricəsi dolğunlaşır. Yazıçının həyatı realist boyalarla əks etdirmə bacarığı təsvir imkanlarındakı dəqiqlik və konkretlik məharəti bədii surətlərin zahiri görkəmində və lokal epizodların təsvirində də dərin maraq doğurur.

***"Şıdırğı yağış kəsmişdi. Bayaqdan yaxın-uzaq xatirələrin əlində çırpınan Qasım ağanın beyni də sakitləşmişdi. Ona elə gəldi ki, Fatma elə indicə içəri girəcək, sürüşüb düşən yorğanı oğlunun çiyninə çəkəcək, alnından öpüb onları nahara çağıracaqdı. Qasım ağa bir az qulaq asdı. Navalçadan düşən tək-tək damcı səsindən başqa heç nə eşitmədi". ("Tale yolu" romanı).***

Hadisə və surətlərin təsvirindəki kiçik təfərrüatların əhəmiyyəti ondadır ki, hər bir detal müəyyən lövhəni səciyyəvi əlamətlərlə tamamlayır, onun müxtəlif cəhətlərini işıqlandırır. Bu kontekstdə müəllifin əsərlərindəki bədii dil faktoru böyük önəm daşıyır. Sövkət Zərinin bədii dili öz xəlqiliyi və əlvanlığı, emosionallığı və lakonizmi, fəlsədi zənginliyi və dolğunluğu, həmçinin estetikası və dinamizmi ilə diqqət çəkir.

"Hər şey yoldan başlayır, yolda da qurtarır. Nahaq yerə ulu peyğəmbərimiz deməyib ki, ev doğulub ölmək üçün, yol isə yaşamaq üçündür. İnsan oğlu həyata gəldiyi gündən ruhunun kölgəsinə çevrilib, gözəgörünməzin, dərkolunmazın dərgahına doğru yolun axarını, səmtini axtarır. Özünə yol gəzir, yol seçir. Özü boyda sirli-sehirli dünya çarxını fırlada-fırlada öz qanunu ilə hərəyə bir yol açır, hər kəsi bir yolun yolçusu eləyir. Həyat yolu, mübarizə yolu, el yolu, Tanrı yolu, tale yolu..." ("Tale yolu" romanı)

***Yazıçının dilindəki bədii-fəlsəfi siqlət, sənətkarlıq səriştəsi onun koloritli təsvir və təhkiyə üsullarında məxsusi olaraq görünür. Bədii inikasın təmərküzləşdirilməsi, problemin qabarıq detallarla, əlvan boyalarla işıqlandırılması, həm də simvolik ümumiləşdirmələrə geniş imkan yaradılması nasirin dəst-xəttinin, yazı manerasının önəmli komponentləri kimi çıxış edir.***

Bu cümlələr sadəcə təsvir elementi deyildir. Burada qədim bir obanın, bir elatın yaddaşı, ulu bir ruhun həniri duyulur. Dədə Qorqud ovqatlı qədim bir tarix, zəngin bir etnoqrafiya boylanır bu cümlələrdən.

Xarakter təkcə insanın psixoloji durumunun göstəricisi deyil, o həm də təbiətdəki bütün canlı və cansız varlıqlara da şamildir. Bu baxımdan yazıçı zaman kontekstində hadisələri təsvir etməklə, həmçinin təsvirin trayektoriyası ilə onların xarakterini də bir növ əks etdirir. Milli kimliyin təravətini, özəlliyini, bununla yanaşı böyük bir etnoqrafik gözəlliyi məxsusi səliqəylə, səmimi və təbii doğmalıqla bir neçə cümləyə sığışdıra bilmək məharəti həqiqi yazıçı qüdrətinin bədii təsdiqidir.

"Oğlan tutuquşu kimi dil boğaza qoymur, bir sözdən başqasına keçir, zirzəminin alaqaranlığında o boşa-bu başa var-gəl eləyirdi.

***- Ə, nə sayıqlayırsan, görmürsən qalxa bilmirəm, qolumdan tutsana - deyə üstünə qışqırdım. Mən hələ bir şey eləməmişəm, ona da qiymət istəyəm. Bu bizim hər birimizin torpaq qarşısında borcudur. Qaç, Məcidlinin kimliyini öyrən, mənə de. Danışmaqdan çox iş görmək lazımdır. Bayaqdan boş-boş çərənləyirsən". (Əbədiyyətə qədər" povesti)***

Yazıçı əsərdə qan yaddaşının itməməsini səmimi və inandırıcı faktlarla sənət müstəvisində canlandırır və bədii həyat həqiqətinin bədii həqiqətə çevrilməsini sübut edir. Beləliklə, müəllif diqqəti hadisə və surətlərin mahiyyətinə, məzmununa istiqamətləndirərək, bədii həqiqətin həyat həqiqətinə çevrilməsinin bədii-fəlsəfi və psixoloji formulunu ortaya çıxarır.

Reallıq duyğusunun və vətənpərvərlik hissinin zənginliyi, həyat hadisələrinin təbiiliyi və inandırıcılığı, üslub özəlliyi və yazıçı təhkiyəsi çox maraqlıdır.

"Tale yolu" romanı təkcə Sövkət Zərin yaradıcılığının deyil, klassik roman ənənələrini inkisaf etdirən əsər kimi səciyyələndirsək, demək olar ki, bu əsər üslubi keyfiyyətləri, bədii-fəlsəfi və psixoloji manerası ilə nəsrimizin maraqli nümunələrindəndir.

Onu da qeyd edim ki, Sövkət Zərinin nəsrində maraqlı ola biləcək bir çox milli düşüncə elementləri ilə yanaşı, müəllifin bədii-fəlsəfi ümumiləşdirməsindəki bəşəri mətləbin bətnində vətənpərvərlik duyğularının modern poetikası maraq doğurur. Sövkət Zərinin nəsr əsərlərində də şair poetikasının rəngarəng çalarları duyulur.

**Tanınmış şair və istedadlı yazıçı Şövkət Zərinin əsərləri ədəbiyyatımızı zənginləşdirən dəyərli nümunələr sırasındadır. Görkəmli qələm sahibinə yeni yaradıcılıq uğurları arzulayıram.**

**Balayar Sadiq**


”Spartak Peşəkar İdman Klubu MMC”-nin 23.11.06 il tarixli, 1700868661 saylı Dövlət Qeydiyyat Şəhadətnaməsi və 01.05.08 tarixli Nizamnaməsi itdiyi üçün etibarsiz sayılır.


İkram Kərimov, Fuad Cavadov və Adil Minbaşı Azərbaycan prokurorluğunun veteranı, Baş Ədliyyə Müşaviri

**Aydın Mahmudovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Fidan Nizaməddin qızı Şərqiyyə və Məhərrəm Aslanovlara əzizləri

**Rüstəm kişinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**
**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 112**
Çapa imzalanmışdır: 02.07.2021